"Şiə hərəkatları, firqələri və yarandıqları tarixi dövr."

Mündəricat:

—Şiəlik, şiə anlayışı və qısa tarixçəsi
—İslamda ixtilaf və firqələrə bölünmənin səbəbləri
—İlk ixtilaf və xilafət məsələsi
—Hz Osmanın şəhadəti və Hz Əlinin xilafəti
—Əsas şiə firqələri və qolları. (tarixi ardıcıllığa əsasən)
—Hz Əli haqqında şiə firqələrinin görüşü
—Səbəiyyə
—Hz.Hüseynin ölümündən sonra (H.61/M.680) yaranmış şiə firqələri:

1. Əli ibn Hüseyni (Zeynəlabidin) imam qəbul edənlər.
2. Hz Əli, Həsən, Hüseyni imam qəbul edənlər.
3. Carudiyyə və qolları.
4. Muhəmməd ibn Hənəfiyyəni imam qəbul edənlər.
A) Muxtariyyə
B) Keysaniyyə
a) Kərbiyyə
b) Haşimiyyə və qolları:
1) Xalis Muxtariyyə
2) Hərbiyyə
3) Müaviyə firqəsi
4) Rəvandiyyə
5) Bəyaniyyə

C) Xürrəmiyyə
D) Mənsuriyyə
E) Xəttabiyyə və qolları:
a) Muamməriyyə
b) Bəziğiyyə
c) Umeyriyyə
d) Mufəddəliyyə
e) Muhammisə
f) Əlyəviyyə
g) Bişriyyə

— Əli ibn Hüseynin vəfatından sonra yaranmış şiə firqələri:
1) Zeydiyyə və qolları:
a) Carudiyyə
b) Yaqubiyyə
c) Naimiyyə
d) Süleymaniyyə
e) Bətriyyə

2) Baqiriyyə və qolları:
a) İmam Baqiri imam hesab edənlər
b) Muğiriyyə

— İmamətin Abbas oğullarına keçidi:
1.Əbu Muslimiyyə
2.Rizamiyyə
a) Muğanniyyə
b) Babəkiyyə
c) Məzyəriyyə
d) Hureyriyyə

Cəfəriyyə və qolları:
a) Navusiyyə
b) İsmailiyyə
c) Mubarəkiyyə
d) Şamitiyyə
e) Əftahiyyə

— Musaviyyə və qolları:
a) Qatiyyə
b) İmam Musa Kazımın ölmədiyinə inananlar
c) Musa Kazımın Mehdi olduğuna inananlar
d) Vaqifiyyə
e) Məmturə

— 11-ci imam Həsən əl Əskəri'nin vəfatından sonra şiə firqələri:
1) İmamiyyə
2) Həsən Əskəri'nin ölmədiyinə inananlar
3) Həsən Əskəri'nin Mehdi olduğuna inananlar
4) Həsən Əskəri'nin öldüyünə inananlar
5) Həsən Əskəri'nin soyundan bir nəfərin gələcəyinə inananlar
6) İmam Muhəmməd ibn Əlidir deyənlər
7) Həsən Əskəri'nin vəsiyyəti ilə qardaşı Cəfərin imamlığına inananlar
8) Həsən Əskəri'nin deyil, Cəfərin imam olduğuna inananlar
9) Həsən Əskəri'nin oğlu olmadığı üçün qardaşı Cəfərin imam olduğuna inananlar
10) Nəfisiyyə
11) Əli ibn Muhəmməd Mehdidir deyənlər
12) Həsən əl Əskəri'nin oğlu Əlinin imamətinə inananlar
13) Həsən əl Əskəri'nin adsız oğlunun imamlığına inananlar
14) Həsən əl Əskəri'nin oğlunun olmadığını deyənlər
15) Vaqifiyyə

Şiəlik hərəkatı,qısa tarixçəsi və şiə firqələri

Giriş

Tarixdə şiə firqələri çox olduğu üçün mənbələrdə şiə kəlməsi müxtəlif şiə firqələrin müştərək adı olaraq nəzərdə tutulurdu. Misal olaraq, müəyyən bölgələrdə şiə dedikdə o bölgələrdəki ismailiyyə, nusayri, zeydi, qulat və s. şiələr nəzərdə tutulurdu.
Şiəlikdə beş əsas cərəyan nəzərə çarpır, bunlar: Keysaniyyə, Zeydiyyə, İmamiyyə, İsmailiyyə və Qulat (ifrat, aşırı) firqələridir. Digər şiə firqələri əsasən bu cərəyanların qolları hesab olunurlar.
Oxuculara təqdim olunan bu kitabda şiəlik, onun yaranma tarixi və şiə firqələri haqqında qısa, elmi, obyektiv məlumat veriləcəkdir. Çalışmada bir çox akademik, mötəbər kitablardan mənbəyi göstərilməklə sitatlar gətirilmişdir. Kitabı oxuyan şiə firqələri, tarixi, etiqadları haqqında qısa elmi, obyektiv məlumat əldə edəcəkdir.

Şiəlik, şiə anlayışı və qısa tarixçəsi.

"Şiə" ərəb dilində qonağı qarşılamaq, izindən getmək, tərəfdar olmaq, ayrılmaq, qruplaşmaq və s.mənalarında istifadə olunan bir sözdür.
📚 Hasan Onat, "Emeviler devri şii haraketleri, səh 13; İbn Manzur, "Lisanul arab", c. 8,səh 188
"Şiə" kəlməsinin ilk dövrlərdə lüğəti mənasına uyğun olaraq "tərəfdar" mənasında istifadə olunduğu məlumdur.
Misal olaraq, Sasani sərkərdəsi Hürmüzan və rütbəli on iki nəfər İranlı Mədinəyə gətirildikdə Hz Ömər belə demişdi: "Bu adamı və şiəsini İslama boyun əydirən Allaha həmd olsun."
📚 Hasan Onat, eyni mənbə, səh 16; İbn Sad, V, 89
Hz Əli Cəməl hadisələri zamanı müxaliflərini niyə öldürdün sualına belə cavab vermişdi: "Onlar da mənim şiələrimi öldürmüşdülər."
📚 Hasan Onat, eyni mənbə, səh 16; Nasr b. Müzâhim, səh 5

Bu söz "şiatu Osman" və "şiatu Əli"
şəklində istifadə olunduqda Hz Osman və Hz Əliyə tabe olanları, "əş şiatul Ələviyyə" və "əş şiatul Abbasiyyə" şəklində istifadə olunduqda isə Əli və Abbas övladlarının tərəfdarları nəzərdə tutulurdu.
Qurani Kərimdə "şiə" sözü firqə, tərəfdar, qrup mənalarında işlənmiş və əsasən tənqid olunmuşdur.
"O kəslərdən ki, öz dinini parçalayıb, firqə-firqə (şiyəən) oldular. Hər bir firqə öz dininə (öz dininin haqq olduğuna) sevinər." (Rum 32)
"(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə (şiyəən) olub, dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. (Allah) sonra (qiyamətdə) onlara nə etdiklərini bildirəcəkdir!" (Ənam 159)
"Şiə" kəlməsi sözlük olaraq öz-özlüyündə neytral məna daşıdığı halda bu ayələrdə eyni dinin daxilində təfriqə salma mənası daşıdığı üçün tənqid olunmuşdur.

Əlimizdə əsərləri mövcud olan hicri 3-cü əsrdə yaşamış şiə alimlərindən olan Növbəxti (öl.310/922) "Firəq əş şia" — "Şiə firqələri" və Əbu Xələf əl Əşari əl Qummi (öl.301/913) "Məqalət" adlı əsərlərində şiə firqələri, onların yaranma şəraiti, baniləri haqqında məlumatlar vermiş, əqidə, inanc və iddialarını təsvir etmişdilər.
Günümüzə qədər gəlib çatmış bu kitablarla yanaşı məşhur alimlərdən Xətib əl Bağdadinin (öl.429/1037) "əl Fərq beynəl firaq", Əbul Həsən əl Əşarinin (öl.324/935) "əl Məqalət",

Şəhristaninin (öl.537/1142) "əl Miləl vən Nihəl" kitabları firqələr haqqında məlumat verən ən qədim və mötəbər mənbələr hesab olunurlar.

Əhli sünnətin böyük alimlərindən olan Əbul Həsən əl Əşari "əl Məqalət" adlı əsərində "Şiə"nin üç sinifə ayrıldığını, birinci sinfin "Ğaliyyə" olub, on beş firqəyə ayrıldığını, ikinci sinfin "İmamiyyə" (rafizi) olub, iyirmi dörd firqəyə ayrıldığını, üçüncü sinfin də "Zeydiyyə" olub, altı firqəyə ayrılıqlarını qeyd edir.
📚 H. Atay, "Ehli Sünnet ve Şia", səh 14;
Ebul Hasan el Eşari, "Makalat",səh 56,66,87,89,129, 132

Əbdulkərim Şəhristaninin "şiəlik" tərifi Növbəxti və əl Qumminin izahları ilə üst-üstə düşür. O yazır:
"Şiəlik dedikdə Əli ibn Əbu Talibə tərəfdar olanlar nəzərdə tutulur. Onlar Hz Əlinin xilafətinin gizli vəya açıq nassa (dəlil) sabit olduğunu iddia edirlər. Onlara görə imamət Hz Əlinin övladlarından başqasına keçə bilməz, olsa belə ya zülmlə ya da təqiyyə ilə olmuş ola bilər..."
📚 H.Onat, "Emeviler devri şii haraketleri", səh 15; Şehrestani, "el-Milel ve'n-Nihal", c. 1, səh 146-147

Mənbələrdə qeyd olunan məlumatlara əsasən şiəliyin istilahi mənasını belə izah etmək olar:
"Şiəlik Əli ibn Əbu Talibin Hz Peyğəmbərdən (s.a.s) sonra nass və təyinatla xəlifə olduğuna inanan, imamətin Qiyamətə qədər onun Hz Fatimədən olan soyundan gələcəyinə iddia edən bütün firqələrin müştərək adıdır.
📚 H.Onat,"eyni mənbə", səh 15

Qəbul olunan ümumi rəyə əsasən Hz Hüseynin Kərbəlada faciəvi şəkildə şəhid edilməsindən sonra
Əməvi iqtidarına qarşı başda Hz Hüseynin intiqamını və Hz Əli övladlarının haqqlarını almaq üçün mübarizə aparmış tərəfdarları üçün şiə termini aktiv olaraq istifadə olunmağa başladı. Kərbəla hadisəsi eyni zamanda ilk şiə firqələrinin dini və siyasi baxımdan təşəkkül tapmasında başlanğıc tarix olmuşdur.
📚 Fığlalı, "İslâm Mezhepleri", səh 265

İlk dövrlərdə şiəlik Hz Əlinin xilafətə daha layiqli namizəd olduğunu hesab edən siyasi bir qrup idi. Daha sonralar onun xəlifə olması ilə bərabər imam və vəsi olduğunu iddia etməyə başladılar.
📚 S. M. Leysî, "Cihaduş-şia", səh 26

Şiəliyin yaranması haqqında fikir bildirən tədqiqatçıların böyük bir qismi onun Hz Osmanın dövründəki fitnə hərəkatları ilə bərabər ortaya çıxdığını bildirirlər.
Məşhur Qərb şərqşünası Wilhausen də bu fikirdədir. Bu alimlərə görə fitnə hadisələrində ön planda olan Abdullah ibn Səbaya tabe olanlar şiəliyin nüvəsini təşkil edirdilər.
İbn Səba "hər bir peyğəmbərin vəsisi vardır, Əli də Muhəmmədin vəsisidir" şəklindəki iddiası ilə şiə fikirlərinin məğzini ortaya atmışdı.
Daha sonra bu ana xətt üzərində şiə imamət nəzəriyyəsi təşəkkül etmiş və mövcud şiəlik vücuda gəlmişdir.
📚 H.Onat, eyni mənbə, səh 148; Wellhausen, "el-Havaric ve'ş-Şîa"

Digər tərəfdən şiəliyin mənşəyi haqqında danışarkən, qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılara görə şiəlik İran kimliyi ilə sıx əlaqədardır. Məşhur Avropalı şərqşünas Dozy şiəliyin İran əsilli olduğunu iddia edənlərin başında gəlirdi.
Bəziləri də ibn Səba və Səbaiyyə firqəsi səbəbi ilə şiəliyin yəhudi əsilli bir hərəkat olduğunu iddia etmişlər.
📚 H. Onat, eyni mənbə, səh 20

Əli tərəfdarlığının siyasi bir zümrə olaraq nə zaman ortaya çıxdığı ixtilaflıdır. Bəzi şiə müəllifləri bütün peyğəmbərlərin səhifələrində Əlinin vilayətinə dair qeydlər olduğunu iddia etmişlər. (Kuleyni 1/437)
Əksəriyyət şiələrə görə isə bu tərəfdarlıq Peyğəmbərin (s.a.s) zamanında ortaya çıxmış, onun vəfatından sonra Hz Əlinin imam olacağı düşüncəsini mənimsəmiş, başda Salman Farsi, Əbu Zərr Qifari, Miqdad ibn Əsvəd, Əmmar ibn Yasir kimi səhabələrin "şiatu Əli" adı ilə anıldığını qeyd etmişlər.
📚 Qummi, səh 15; Növbəxti, səh 15-16
Alimlərin bir qismi (şiələr xaricində) Əli tərəfdarlığının Rasulullahın (s.a.s) vəfatından sonra iqtidara əhli beytdən birinin, xüsusilə Hz Əlinin gətirilməsini daha müvafiq hesab edən, əsasən Haşimilərdən olan bir camaat olduğunu qeyd edirlər.
📚 İbn Haldun, "el İbar", III, 170-171
Bir qisim alim şiəliyin Hz Osmanın ölümündən sonra ortaya çıxdığını və nifaq toxumlarının bu dövrdə Abdullah ibn Səba tərəfindən atıldığını irəli sürmüşlər.
📚 İbn Hazm, II, 216
Digər bir rəyə görə Əli tərəfdarlığı və "şiəlik" Siffin müharibəsi ilə zühur etmiş, (bax. Watt, Islam and the Integration, səh 104) başqa bir rəyə görə isə Hz Hüseynin şəhadəti şiəliyin yaranmasında təməl ünsür olmuşdur.
📚 R. Strothman, “Şia”, İA, İstanbul, 1979, XI, 503
Bunların içərisində ən doğru rəy sonuncu olub, digərləri şiəliyin firqə və məzhəb halına gəlmədiyi dövrləri əhatə edir. (T.D.V İslam ansiklopedisi)

Əməvilər zamanında ilk şiə hərəkatı Hz Əliyə minbərdən edilən töhmət və lənətə etiraz əlaməti olaraq Hucr ibn Adiy tərəfindən başladılmışdı.
Təşkilatlanmamış, konkret siyasi hədəfi olmayan və sırf etiraz hərəkatı olaraq qəbul edilən Hucr-un hərəkatı bütünlüklə şiə motivləri də daşımırdı.
Əməvilər dövründə "şiə" termini bəlli bir zümrəni vəsf etmək üçün ilk dəfə Hucr ibn Adiy hərəkatı üçün istifadə olunmuşdur. Qərb şərqşünaslarından Watt, Lammens, Tucker, Tritton; Həsən b.Həsən, Təyyib Nəccar və s.tədqiqatçılar bu hadisəyə ilk şiə hərəkatı nəzəri ilə baxmışlar.
Hucr ibn Adiy hərəkatı Kufə küçələrində toqquşmalarla müşahidə olunan, sonra Hucr və bəzi yoldaşlarının ölümü ilə nəticələnən, Əməvi iqtidarına qarşı baş vermiş sadə etiraz, üsyan hərəkatı idi. Hucr ibn Adiy və yoldaşları Hz Əlinin səfində yer almış, sonra digər müsəlmanlar kimi könüllü vəya könülsüz Muaviyəyə beyət edənlərdəndi. Hərəkat planlı şəkildə təşkil olunmamışdı və konkret siyasi hədəf daşımırdı. Hadisələr zamanı bu insanların "şiətul Əli" - Əli tərəfdarları adlandırılmasının səbəbi o idi ki, onlar əvvəllər Əli safında yer almışdılar. Bunların şiəliyi Əlinin Muaviyədən daha çox xilafətə layiq olduğunu demələrində idi.
📚 Hasan Onat, "Emeviler Devri Şiî Hareketleri ve Günümüz Şiîliği", səh 43,59, 61

Qəbul olunan ümumi rəyə görə Hz Peyğəmbərin (s.a.s) vəfatından sonra iqtidara kimin gələcəyi məsələsinə dair qəti dəlil olmadığına görə mühacirlərlə ənsarlar bu baradə fikir

ayrılığına düşmüşdülər. Haşimilərdən bir qisim və digər Əli tərəfdarları imaməti bir miras kimi qəbul edərək, Rəsulullahdan sonra xəlifəlik etmənin onların haqqı olduğu fikrini irəli sürmüşdülər.
Bu nöqteyi-nəzərdən Əlinin imamətinə (xəlifəliyinə) dəvət etmə düşüncəsinin normal siyasi bir tərcih şəklində başladığını söyləmək mümkündür.
Peyğəmbərin (s.a.s) vəfatı zamanı Hz Əli və əhli beyt mənsubları cənazə işləri ilə məşğul ikən, Səqifədə toplanan ənsar xəlifənin özlərindən seçilməli olduğunu düşünürdü.
Vəziyyətdən xəbərdar olan Hz Əbu Bəkr və Hz Ömər zaman itirmədən toplantı yerinə getdilər. Onlar orada olan səhabələri öz çıxışları ilə razı saldılar və ani bir qərarla Əbu Bəkrə beyət edildi. Daha sonra bunu öyrənən Hz Əli və yaxınları olanlardan məmnun qalmamış və hətta, bir rəyə görə Hz Əli beyəti bir müddət gecikdirmişdi.
Əslində, Hz Əli özünün xilafətə digər səhabələrdən daha əhil olduğuna inanmaqla bərabər Hz Əbu Bəkr, sonra Hz Ömərə beyət etmiş və onlar tərəfindən etibar görərək, önəmli məsələlərdə onunla istişarə edilmişdir.
Hz Əlinin bu davranışı sonralar təşəkkül etmiş şiə düşüncəsinin əksinə olaraq özünün xəlifəliyi məsələsində səhih bir nass (dəlil) olmadığına dəlalət edir.
Hz Əbu Bəkr və Hz Ömərin xilafəti dövründə dövlət işlərinin ləyaqətli şəxslərə verilməsi, fəthlərin uğurla davam etdirilməsi və cəmiyyətdə ədalət ölçülərinin qorunması bir başqa rəhbərin iş başına gətirilməsi zərurətini doğurmamışdı.
Ona görə Əli tərəfdarlığı varlığını yalnız kiçik ölçüdə mühafizə etmişdi.
Lakin, Hz Osmanın xilafəti dövründə vəziyyət dəyişmiş, xəlifənin yaşlılığı, idarəetmədə boşluqlar, vali və məmurların əvvəlki kimi işləməmələri əhali arasında narazılıqlara səbəb olmuşdu. Bu vəziyyət eyni zamanda şiəliyin siyasi mənada inkişafına da zəmin hazırlamışdı.
Məmurlardan doğan şikayət və narazılıqlar gün keçdikcə artmış, nəhayət Misir valisi Abdullah ibn Sad ibn Əbu Sərhdən şikayətçi olaraq Mədinəyə gələn (H.35/M.656) üsyançıların xəlifə ilə apardıqları danışıqları nəticəsiz qalınca, onlar xəlifənin evini mühasirə etmiş və onu şəhid etmişdilər.
Yaranmış qarışıqlıq Hz Əlinin xilafəti qəbul etməsi ilə qismən sakitləşsədə, siyasi və sosial təlatüm davam etmiş, onunla Hz Aişə, Hz Təlhə, Hz Zübeyr arasında öncə Cəməl, Şam valisi Müaviyyə ibn Əbu Süfyan arasında isə Siffin müharibələri baş vermişdi.
Daha sonra Hz Əli ordusundan ayrılan xəvaric adlı qrupla Nəhrəvanda döyüşməli olmuşdu.
Hz Əlinin 40/661-ci ildə bir xəvaric tərəfindən sui qəsd nəticəsində şəhid edilməsindən sonra onun yerinə Kufədə xəlifə təyin edilən oğlu Həsənin altı ay sonra Müaviyyə ilə imzaladığı sülh müqaviləsi bir qisim Əli tərəfdarlarını narazı salmışdı.
Muaviyənin ölümündən sonra oğlu Yezidin xilafəti dövründə Kufədə yaşayan Əli tərəfdarları Hz Hüseynə çoxlu məktublar yazaraq, onu xəlifə görmək istədiklərini bildirdilər və beyət etmək üçün Kufəyə dəvət etdilər.
Hz Hüseyn verilən vədlər qarşılığında Kufəyə hərəkət etmiş, ancaq Kərbəla çölündə Əməvi ordusu tərəfindən mühasirəyə alınmış, baş verən döyüşdə şəhid edilmişdi.
Bu hadisə şiəliyin yeni formada təşəkkül tapmasında qırılma nöqtəsi olmuşdur.
📚 Mustafa Öz; T.D.V, İslam ansiklopedisi

Hz Hüseynin şəhid edilməsindən sonra şiələr arasında ortodoks (ənənəvi) İslamdan ilk sapma cəhdləri baş göstərdi. Doğrudur, Səbailik kimi ilk qulat şiə firqəsi daha öncə özünü biruzə vermişdi. Sonralar tədricən şəhidlik kultu, imamların mifik ali məqamı, gözlənilən xilaskar Mehdi haqqında təsəvvürlər formalaşmağa başladı.
Hicri ikinci əsrdən etibarən mövcud şiə firqələri daha çox qollara və cərəyanlara bölünməyə başladılar. Onların hər biri Əməvilərə qarşı öz üsul və metodları ilə mübarizə aparırdılar. Şiə

firqələri arasında olan ən böyük ixtilaf hər dəfə ölən imamdan sonra növbəti imamın kimliyi məsələsi idi.
Zaman keçdikcə bu ixtilaf və ziddiyyətlər daha da artırdı. Eyni zamanda xilafətə qarşı xəvaric qrupları da amansız mübarizə aparırdılar. Şiə və xəvaric təbliğatçıları elə təəssürat yaratmağa çalışırdılar ki, sanki yer üzündə bütün bəlaların səbəbkarı xilafəti haqqsız olaraq ələ keçirmiş Əməvilərdir və əgər onlar devrilərsə və əhli beyt mənsubları iqtidara gələrsə Allahın bərəkəti müsəlmanların üzərinə yağacaqdır. Ancaq, sonrakı tarix göstərdi ki, böyük ümidlərlə üsyan nəticəsində iqtidara gəlmiş hər yeni qüvvə növbəti zalıma çevrilirdi.
Muxtar əs Səqəfinin üsyanından sonra şiəlik hərəkatlarında bir fasilə yaranmışdı. Bu səssizlik Əməvi xilafətinin son dönəminə qədər davam etdi. Bunun əsas səbəbi o idi ki, Əli oğulları və tərəfdarları Abbas oğullarından Muhəmməd ibn Əli öndərliyindəki Abbasi hərəkatına dəstək olmuşdular.
📚 Nahide Bozkurt, “Muhammed en-Nefsüzzekiyye’nin İsyanı”, səh 2; Cem Zorlu, "Abbasi devletine karşı ilk silahlı haraketler", səh 121

İslamda ixtilaf və firqələrə bölünmənin əsasən aşağıdakı səbəbləri mövcuddur:

1) Ölkə və mədəniyyətlərinin fəth edilməsini həzm edə bilməyənlər
fiziki müqavimət göstərə bilmədikləri üçün bu fəthin yeganə amili və səbəbkarı olan İslam dini haqqında məkrli planlar tərtib edib, onu daxildən yox etməyə cəhd göstərdilər. Zahirən müsəlman görünərək keçmiş din, düşüncə və mədəniyyətlərinin təsiri ilə İslam dini haqqında daban-dabana zidd fikirlər və izahlar gətirməklə dinin mahiyyətini və qayələrini təhrif etməyə çalışdılar.
2) Məqsədlərinə çatmaq, fiziki və maddi qüvvət əldə etmək üçün gizli təşkilat və cəmiyyətlər qurmuş, insanları ətraflarına toplamaqdan ötrü bəzi özlərinə zahirən sərf edən ayələri yanlış şəkildə təbliğ etmişdilər.
3) İnsanlarda olan hökmdarlıq, məqam və sərvət toplama ehtirası bir çox hallarda üstün mövqe və məqam əldə etmək naminə onları azğınlığa və həddi aşmağa sövq edir.
a) Bu ehtiras insanları müəyyən etiqad və düşüncəyə qarşı müxalif olacaq bir etiqad icad etməyə belə sövq edir. Məkkəli müşriklərin Hz. Peyğəmbərə qarşı çıxmaları maddi mənfəətləri və mövqelərinin əldən gedəcəyi qorxusu ilə idi. Eləcədə, peyğəmbərlik məqamını və nüfuzunu qısqanan, arzu edən bəzi qəbilə başçıları da özlərini peyğəmbər elan etmişdilər.
b) İslam gəldikdən sonra keçmiş ərazi, vilayət, ölkə böyükləri və məmurları
öz vəzifələrini itirmişdilər. Onlar əvvəlki məqam və dərəcələrini yenidən əldə edə bilmək üçün planlar cızır, sadə xalqdan olanlar isə yeni məqamlar əldə etməyə çalışırdılar.
c) Eyni əqidə və məfkurə sahibləri belə idarə etmə və liderlik məsələsində bir-biri ilə amansız rəqabətə girişə bilirdilər.
4) Fəth edilmiş ölkələrin din adamları İslam dininə qarşı müqavimət göstərmək və öz dinlərinin varlığını qorumaqdan ötrü ideoloji və mədəni mübarizə aparırdılar. Onlar İslamı qəbul edənlərə mane olmağa çalışır, elmi zəif sadə müsəlmanları isə İslamdan uzaqlaşdırmağa və dində şübhəyə salmağa çalışırdılar. Belə fəaliyyətlər insanlar arasında çaşqınlığa və böyük fikir ayrılıqlarına gətirib çıxarırdı.
5) İslamda insanların kütlələr halında qruplaşması vəya bir araya gəlməsi ilk öncə siyasi səbəblər nəticəsində baş vermişdi. Daha sonra hər bir qrup öz haqqlılığını isbat etmək üçün müxtəlif dəlillər gətirməyə başlamış və beləcə də ədavət artmışdı.
6) İslamda ilk siyasi bölünmə Hz Əli ilə Müaviyyə arasında beyət etmə üstündə baş vermişdi.

7) Mühüm məsələlərdən də biri bəzi insanların daima böyük kütlələrdən ayrılıb, müstəqil icma olma istəyi idi. Onlar böyük icmadan qopub, yeni adla icmalar təsis edir, liderlik fərasəti və şəxsi xarizmaları nəticəsində ətrafına insanlar toplayırdılar.
📚 H.Atay, "Ehli Sünnet ve Şia", səh 7-8

İlk ixtilaf və xilafət məsələsi.

Hz Muhəmməd (s.a.s) 10/631-cu ildə 23 il peyğəmbərlik etdikdən sonra 63 yaşında vəfat etdikdə müsəlmanlar xilafət məsələsində şiə alimlərinə görə üç, sünni alimlərə görə isə iki qrupa ayrılmışdılar:
1- Ənsar yəni, Mədinəli müsəlmanlar ilk başda Sad ibn Ubadənin xəlifə olmağını istəyirdi. Bu mövzuda bir xeyli müzakirə və fikir ayrılıqları olmuşdu. Lakin, bu firqə fikrini qəbul etdirə bilmədi və Sad ibn Ubadə xəlifə seçilə bilmədi. Bununla belə, onların fikir ayrılığı və etirazları davam etmədi.
2- Əbu Bəkrin xəlifə olmasını istəyənlər (mühacir) istəklərinə nail oldular və onun xəlifə seçilməsi ilə ixtilaf sona yetdi.
Bütün müsəlmanlar vəhdət halında tək bir xəlifənin ətrafında birləşərək, Hz Osmanın ölümünə qədər böyük inkişaf yolu keçmiş və fəthlərə nail olmuşdular.
3- Şiələrə gəlincə, onlar bu iki qrupdan əlavə Peyğəmbərin (s.a.s) vəfatından sonra üçüncü qrup olaraq Hz Əlinin xəlifə olmasını istəyən bir camaat olduğunu və onların ilk şiə olduqlarını söyləyirlər.
📚 H. Atay, "Ehli Sünnet ve Şia", səh 20-21; Eşari, "Makalat, səh 39-40; Nevbahti, "Fırak eş şia", səh 3 və s.

Müsəlmanlar arasında fərdi olaraq fikir ayrılıqları və ixtilafların olması labüddür və bu normal haldır. Lakin, səhabələr arasında yaşanan bu fikir ayrılıqları zamanı qütbləşmə olmamışdı. Bununla belə istənilən cəmiyyətdə öndə gələn kimsələrin tərəfdarları, sevənləri olduğu kimi sevməyənləri də ola bilər və bu adi haldır.
Müsəlmanlar Allahın buyurduğu kimi bir-birini müsəlman olduqlarına görə sevməlidirlər. Lakin, bu sevgidən əlavə insanlar öz aralarında olan yaxınlıqları, dostluqları, qarşılıqlı yardımları səbəbi ilə bir-birini daha çox sevirlər və bu insani, təbii bir xüsusiyyətdir. Bu baxımdan, Hz Əlinin də sevənlərinin, tərəfdarlarının olması təbii idi.
Bununla belə, şiələrin bu iddialarını isbat etmələri imkansız görünür. Çünki, Sad ibn Ubadənin xəlifəlik iddiası tarixən sabitdir. Lakin, Hz Əli və tərəfdarlarının xəlifəlik iddiası ilə ortaya çıxıb, qrup təşkil etdiklərini iddia etmək çox çətindir.
Əslində müsəlmanlar arasında o zaman bir firqə vəya qrupun olmadığı bilinməkdədir. Hamısı vəhdət halında, tək vücud kimi davranmış və hərəkət etmişdilər.
📚 H.Atay, eyni mənbə, səh 21

Burada mühüm bir məqamı nəzərdən qaçırmamaq lazımdır. Hz Əbu Bəkr və Ömər özlərindən sonra gələnlərin seçilməsini təsbit edərkən, bunu hər kəsə elan etmişdilər. Peyğəmbər (s.a.s) Hz Əlini əgər yerinə təyin vəya elan etmiş olsaydı bunu bütün səhabələr bilməli idi. Hz Əbu Bəkr, Sad ibn Ubadə, Ömər və Osman xəlifə olmaq üçün Hz Peyğəmbərin (s.a.s) sözlərinə zidd davranmazdılar, istəsəydilər belə edə bilməzdilər. Çünki, bütün səhabələr onlara qarşı çıxardı və belə bir şey olmamışdır.
📚 H.Atay, eyni mənbə, səh 18

Hz Osmanın şəhadəti və Hz Əlinin xilafəti:

Hz Osmanın xilafətinin son illərində bəzi vali və məmurların yanlış addımları üzündən bəzi vilayətlərdə narazılıqlar başlamışdı. Bu nöqsanları istismar edən və cəmiyyətdə sabitliyi pozmaq istəyən qüvvələr təşəkkül etmişdi.
Əslində, yaranmış qüsurları səmimi şəkildə düzəltmək istəyənlərlə problemli kimsələr bilərək vəya bilməyərək fitnəkar, pis niyyətli adamlarla birləşmişdilər. Nəticədə cəmiyyət böyük bir tələtümə sürükləndi və Hz Osman 35/656-cı ildə şəhid edildi.
📚 H.Atay ,eyni mənbə, səh 22; Hasan İbrahim Hasan, "Tarih ve'l-Islam", 1/ 359-363

Hz Osmanın şəhid edilməsi ilə ortaya çıxan problemlər:

1 —Hz Əli 35/656-cı ildə xəlifə seçildi. Hz Əlinin xəlifə seçilməsi də Hz Əbu Bəkrin xəlifə seçilməsi kimi ixtilaflı oldu. Lakin, Hz Əbu Bəkrin xəlifə seçilməsi ilə ixtilaflar aradan qalxmış, müsəlmanlar firqələrə ayrılmamış və vəhdət halında varlıqlarını davam etdirmişdilər.
Hz Əli çox böyük bir hadisə olan Hz Osmanın şəhid edilməsindən sonra xəlifə seçilmişdi. Əksəriyyət Hz Əlinin xəlifə məqamına layiqli namizəd olduğuna inanırdı və bunu doğru qərar hesab edirdi. İlk anlarda ona beyət etmədə tərəddüd edənlər (Sad ibn Əbu Vəqqas, ibn Ömər) vəya heç beyət etməyənlər (məs: Həssan ibn Sabit, Kab ibn Malik, Məsləmə, Əbu Səid əl Xudri, Muhəmməd ibn Məsləmə, Numan ibn Bişr, Zeyd ibn Sabit və s.)
Hz Əlinin ləyaqətinə olan şübhələrinə görə deyil, o zamankı vəziyyətə uyğun şəxsi qənaətlərinə görə etməmişdilər.
📚 H.Atay, eyni mənbə, səh 22

2 —Hz Əlinin xəlifə olmasına qarşı olanların əsasən şəxsi mənfəətləri var idi. Onun xəlifəliyini qəbul etməyənlərin cəm olduğu bir camaat formalaşmışdı. Hər birinin maraqları fərqli olsa da iffifaq etdikləri məsələ Hz Əlinin xəlifəliyi idi.
Şiə alimləri Qummi və Növbəxti Hz Təlha, Zubeyr və Aişəni Hz Əliyə qarşı gəlib, onun xəlifəliyini tanımayanlar arasında qeyd edirlər. Onlar Hz Osmanın ölümündən sonra müsəlmanları üç firqəyə ayırırlar. Birincilər Hz Əlini xəlifə tanıyanlar, ikincilər beyət etdikdən sonra onun müharibələrinə qatılmayanlar, üçüncülər isə ona müxalif olanlar idi. Bunlar Cəməldə məğlub olduqdan sonra Şamda Müaviyyəyə qoşulmuşdular.
📚 H.Atay, eyni mənbə, səh 22; "Tabari Tarihi", 3/452

3—Hz Əlinin xilafəti dövründə üçüncü bir grup ortaya çıxmışdı. Bunlar xilafət və siyasət mövzularında tərəfsiz olub, bəzi praktiki məsələlərdə fərqli düşünürdülər. Onlar Hz Əliyə beyət etsələr də müharibələrində iştirak etmədilər. Eyni zamanda əleyhinə çıxıb, qarşı tərəfə də dəstək olmadılar.
Döyüşdən itizal etdilər, savaşa qoşulmaqdan çəkindilər. Buna görə onlara "Mutəzilə" yəni, çəkinənlər deyildi. İlk mutəzilə termini bu şəkildə yarandı. Onların qayəsi heç bir döyüşən tərəfə qoşulmamaq idi. Çünki, hər iki tərəf müsəlman idi və tökiləcək müsəlman qanı olacaqdı.
Bitərəf qalanların içərsində böyük səhabələr və tərəfdarları mövcud idi.
Sad ibn Əbu Vəqqas, Abdullah ibn Ömər, Muhəmməd ibn Məsləmə, Usamə ibn Zeyd kimi səhabələr onların arasında ən öndə gələnlərdən idi.
📚 H.Atay, eyni mənbə, səh 24

— Əsas şiə firqələri və qolları - tarixi ardıcıllığa əsasən:

Şiə firqələrinin yaranmasını əlimizdə mövcud olan sünni, şiə və digər mənbələrdən istifadə etməklə açıqlayaq:
Hz Əli haqqında fikir bəyan edən "şiatu Əli" (Əli tərəfdarları) üç firqəyə ayrılmışdı:
1 — Birincilərə görə Hz Əli xəlifə olaraq Hz Peyğəmbərin (s.a.s) yerinə keçməli idi və hər kəsin ona itaət etməsi fərzdir.
Ona düşmən olan kafir, ondan başqasını özünə dost, vəli hesab edən bütpərəst və zəlalət əhlidir. Bunlar Hz Əlinin ölümünə qədər bu vəziyyətdə qaldılar.
2— İkinci firqəyə görə Əli Hz Peyğəmbərdən (s.a.s) sonra hər nə qədər ən fəzilətli və ondan sonra xəlifə olmağa layiq şəxs olsa da Əbu Bəkr və Ömərin xilafətinə Əli də razı olduğu üçün onların xilafəti caizdir.
Bu firqənin digər bir qoluna görə Əli Peyğəmbərə (s.a.s) olan yaxınlığına görə əshabın ən fəzilətlisi olsa belə insanlar istədiklərini özlərinə rəhbər seçə bilərlər. İnsanların əmir seçdiyi kimsəyə isə istər Qüreyşdən, istərsə də Haşimilərdən olsun, heç kəsin qarşı çıxması caiz deyil. İstəsə də, istəməsə də seçilən xəlifəyə qarşı çıxmaq küfür və zəlalətdir.
3— Carudiyyə adlı firqə Hz Əlidən başqasının önə keçməsinin küfr və azğınlıq olduğuna, ümmətin Hz Əliyə beyət etməməklə küfrə düşdüyünə inanırdı. Əlidən sonra oğlu Həsənin, sonra Hüseynin imam olduqlarına, sonra isə onların oğulları arasından şura ilə imam seçilməsinin vacib olduğuna etiqad edirdilər.
📚 H. Atay, eyni mənbə, səh 25-26

Hz Əlinin vəfatından sonra şiə firqələri:

Hz Əli şəhid edildiyi zaman onun imam (xəlifə) olmasında israrlı olanlar üç firqəyə ayrıldılar:
1 — Hz Əli öləndə onun tərəfdarları ilə Hz Təlha, Zubeyr və Aişənin tərəfdarları Müaviyənin tərəfinə keçdilər və vahid İslam camiəsini təşkil etdilər. Hz Həsən xəlifəliyi Müaviyəyə tərk etdiyi zaman bu proses daha da sürətlənmişdi.
📚 Kummi 19; Nevbahti, səh 22
Ancaq Hz Əliyə üsyan edən xaricilər (xəvaric) ayrı üsyankar bir qrup olaraq davam etdilər. Onlar xəlifəliyin Hz Əliyə Uca Allahın əmri və Peyğəmbərin (s.a.s) vəsiyyəti ilə keçdiyinə inanmırdılar.
📚 H. Atay, eyni mənbə, səh 22
2— Hz Əlinin soyuna bağlı olanlar az idi. Bunlar xəlifəliyin Əliyə Allah tərəfindən verildiyinə inanırdılar və öz aralarında üç firqəyə bölünürdülər.
📚 Kummi, "Makalat",səh 19
3— Səbəiyyə: Bu firqə ilk dəfə Hz Peyğəmbərdən (s.a.s) sonra ifrata varan (quluv) Abdullah ibn Səbanın qurduğu Səbəiyyə firqəsidir.
Abdullah ibn Səba, onun etiqadı, fikirləri, atdığı addımlar haqqında şiə alimi Növbəxti çox dəyərli məlumatlar verir. O yazır:
“Abdulla ibn Səba Əbu Bəkri, Öməri, Osmanı və əshabələri söymüş, onlara öz etirazını bildirmiş və onlardan ayrılmış adamlardan biridir. O, demişdir ki, bunu ona Əli əmr etmişdir. Əli onu danlamış, ondan bunu deyib-demədiyini soruşmuşdur. O, öz dediklərini boynuna almış, Əli onu öldürməyi əmr etmişdir."
Bunu görən adamlar çığırıb ona demişlər ki, ey Əmirəlmöminin, insanlar arasında sizə əhli beytə məhəbbət və sizin vilayətinizi, sizin düşmənlərinizdən uzaqlaşmağı təbliğ edən bir adamı necə öldürək? Belə olduqda Əli onu öldürməyib Mədainə (İranın o zamankı paytaxtı) sürgün edir. Əli əshabələrindən olan elm əhlindən bir qrupu hekayət etmişlər ki, Abdullah ibn Səba Islamı qəbul etmiş yəhudi olmuşdur. O, Əlinin tərəfdarı idi. Yəhudi ikən Musadan (ə) sonra Yuşə ibn Nunun vəliəhd olduğunu dediyi kimi, müsəlman ikən də Peyğəmbərin

(s.a.s) vəfatından sonra Əli haqqında da eyni sözləri demişdi. O, Əlinin imamlığının fərz olması sözünü açıq deyən birinci adam olmuş, onun düşmənlərindən aralanmış, müxaliflərini rüsvay etmişdir. Buna görə də şiəliyə müxalif olanlar demişlər: "Rafiziliyin əsası yəhudilikdən götürülmüşdür".
📚 "Fırak eş-şia", səh 31

Muhəmməd Əbdulkərim Şəhristani yazır: “İbn Səba Əlinin ilahi imaməti haqqında iddia edən ilk şəxs olub.
Abdulla ibn Səbanın ətrafında bir dəstə insanlar toplandı.Bu ilk firqə idi ki, zühuru, qeybdə olmağı və imamların geri qayıdacağına iman edirdilər.”
📚 “Dinlər və firqələr”, səh 137, Moskva 1999

Qummi yazır: “Səbailiər Abdullah ibn Səbanın davamçılarıdır.Ona yardım edənlər Abdullah ibn Hursi və ibn Əsvəd idi. Bunlar onun ən böyük səhabələri idilər. O,Əbu Bəkri, Öməri, Osmanı və digər səhabələri aşkarca tənqid, təhqir edən ilk insan idi.”
📚 “Mekalat vel firak”, səh 10-21

Bu firqə Əliyə ilah deyir, onun ölmədiyinə, bir gün gəlib, dünyanı ədalətlə dolduracağına inanırlar. Əliyə öncə peyğəmbər, sonra ilah dedikləri rəvayyət olunur.
📚 H.Atay, "Ehli Sünnet ve Şia", səh 26-30; Bağdadi, "el-Fark", 143; İsferayini, "el Tahsir", 71

Hz Həsənin imamlığına tabe olanlar:

Hz Əli öldükdə ona tabe olanlar böyük oğlu Həsənə tabe olmağa davam etdilər. Ancaq kiçik bir dəstə ondan ayrılmışdı.
📚 H.Atay, eyni mənbə, səh 30; Kummi,səh 23; Nevbahti, səh 24

Hz Həsən xəlifə olduqdan altı ay sonra 41/661-cı ildə xəlifəlikdən Müaviyənin xeyrinə ondan sonra şura ilə xəlifə seçiləcəyi şərti ilə vaz keçdi.
Həsənin tərəfdarları az bir qisim istisna olmaqla ona qəzəbləndilər və ondan ayrılaraq Müaviyənin tərəfinə keçdilər. Hz Həsən vəfat edənə qədər çox az bir qisim insan ona bağlı qaldı.
Hicri 47/667-ci ildə o vəfat etdiyi zaman 45 vəya 48 yaşında idi.
O, xəlifəliyi Müaviyyəyə verdikdən sonra Əhli Sünnəyə görə imamlığı bitmişdi.
Şiələrin çox az bir qismi onun imamlığının ölümünə qədər davam etdiyinə inanırdı. O, vəfat etdikdə yerinə qardaşı Hz Hüseyn keçdi. Həsənə bağlı olanlar Hüseynə bağlılıqlarını davam etdirmişdilər. Həsənin imamlığı altı il, beş ay davam etdi.
📚 H.Atay, eyni mənbə, səh 31; Kummi, səh 24

Hz.Hüseynin ölümündən sonra (H.61/M.680) yaranmış şiə firqələri:

Hz Hüseynin Kərbəlada öldürülməsi şiə fikirlərinin yaranmasına və dini-siyasi bir firqənin yaranmasına səbəbiyyət verdi. Həmçinin, Kərbəla faciəsi şiəlik ruhunun inkişafına, dərinləşməsinə, tərəfdarlarının isə artmasına böyük təsir göstərmişdi.
Hətta, şiə hərəkatının məhərrəm ayının 10-da ortaya çıxdığı da söylənilə bilər. Hz Hüseynin Kərbəlada qətli İslam ümmətində dərin bir hüznə səbəb oldu və Əməvi iqtidarına qarşı böyük bir nifrət hissi yaratdı.

İlk təşkilatlanmış, siyasi-dini fikirləri və hədəfləri olan şiə hərəkatı adlandıra biləcəyimiz "Təvvabun" hərəkatı bu hadisələr ərəfəsində ortaya çıxmışdı.
Hz Hüseynin qisasını almaq, bir sıra şəxsi ehtiras və mənfəətlərini əldə etmək üçün üsyan qaldıran Muxtar əs Səqəfi və onun hərəkatı şiəliyin dini görüşlərində önəmli qırılmalar meydana gətirmişdi. "Muxtariyyə", "Keysaniyyə" və bir sıra batil firqələr öz fikirlərini bu hərəkatdan almışdılar.
📚 Cem Zorlu, "Abbasi devletine karşı ilk silahlı haraketler", səh 121

İmamətin Əlidən oğlu Həsənə, ondan da qardaşı Hüseynə keçdiyinə inananlar Hz Hüseynin ölümündən sonra aşağıdakı firqələrə ayrılmışdılar:

1) Əli ibn Hüseyni (Zeynəlabidin) imam qəbul edənlər:
İmamlıq Əli ibn Hüseynə keçmişdir. Əbu Muhəmməd və Əbu Bəkr künyələri varsa da ən çox onun haqqında Əbu Bəkr künyəsi istifadə olunurdu. Mədinədə 94/712-ci ildə 55 yaşında vəfat etmişdi. Kərbəla hadisəsi zamanı xəstə idi və o zaman 22 yaşında idi.
Anası Sasani şahı Yezdəgirdin qızı "Suləfa" olub, İranın fəthi zamanı əsirlər arasında idi. Əli ibn Əbu Talib tərəfindən diyəti verilərək oğlu Hüseynlə evləndirilmişdi. Əli Zeynəlabidin ləqəbi ilə məşhurdur. 33 il imamlıq etmişdir.
📚 H.Atay, eyni mənbə səh 31; Kummi, səh 70; Nevbahti, səh 77; ibn Hallikan, 3/267; Zehebi, 1/105

2- Hz Əli, Həsən və Hüseynin imamətinə tabe olanlar:
Onlara görə imamət üç imama məxsus idi və bunların adları Peyğəmbər (s.a.s) tərəfindən bildirilmişdi.Bu üç imam Hz Əli,Həsən və Hüseyn idi.Onlardan sonra heç kəsi imam olaraq tanımamışlardı.
📚 H.Atay,eyni mənbə,səh 32; Nevbahti, səh 54;Kummi,səh 71

Hz Hüseyn qətlə yetiriləndə onun əshabələrindən bir dəstə adamlar gəldi və dedilər:
“Həsənin hərəkəti ilə Hüseynin hərəkəti bir-birinin əksi oldu. Çünki, Həsənin tərəfdarlarının sayca çox və qüvvətli olmasına baxmayaraq, Müaviyə ilə barışması və ona təslim olması haqqlı və düzgün iş idisə, Hüseynin tərəfdarlarının sayca az və zəif olduğu halda Yezid ibn Müaviyə ilə döyüşə girib özünün və bütün əshabələrinin də qətlə yetirilməsinə səbəb olması vacib olmayan səhv bir iş idi...Ona görə də onlar hər ikisinin imamlığına şəkk etdilər və imamlardan uzaqlaşdılar və avam adamların dillərinə düşdülər. Beləcə şiəlikdən ayrılaraq Müaviyənin tərəfinə keçdilər.
📚 H.Atay, eyni mənbə, səh 32; Nevbahti, səh 25-26, Kummi, səh 25

3—Carudiyyə:
Bir qisim insanlar Hüseynin ölümündən sonra Həsən və Hüseynin soyundan hər hansı bir kimsə qalxıb, özünün imam olduğunu iddia edərsə, imamlıq onun haqqıdır dedilər. Hər kəs o imama itaət etməlidir və ona inanmaq Əli ibn Əbu Talibin imamlığına inanmaq kimi fərzdir. Hər hansı bir kimsə də itaət etməzsə, o kafir və müşrikdir. Amma, hər hansı biri öz imamlığını elan edib, pərdələri endirib, evində oturarsa, o da kafir və müşrik bir imam olar və ona tabe olanlar da azmış sayılarlar. Bu firqəyə Sərhubiyyə və Carudiyyə adı verilmiş olub,Zeydiyyə firqələrindən sayılırdı.
Bu firqəni quran Əbul Carud Ziyad ibn Əbu Ziyad vəya Munzir adlı şəxs idi və Muhəmməd Baqir (5-ci imam) ona "Sərhub"(kor ilan) adını vermişdi.
📚 H.Atay, eyni mənbə, səh 32; Nevbahti,səh 54;Kummi, səh 71

Əbul Carud Zeydiyyə alimlərindən sayılırdı. Cəfəri Sadiq onu fikirlərinə görə lənətlənmiş və ona qəlbi, gözü kordur demişdi. Bunlar Zeydiyyənin Ğaliyyə firqəsi olub, Əbu Bəkr və Ömərı lənətləyirdilər. İnsanları Peyğəmbərdən (s.a.s) sonra Hz Əlini seçmədiklərinə görə küfrə düşdüklərini və azdıqlarını iddia edirdilər.
📚 H.Atay, səh 33; Kummi, səh 18,71,200,201;Nevbahti, səh 9, 48; Eşari,"Mekalat",1/133; ibn Nedim, Fihrist, səh 267

Carudiyyə firqəsi aşağıdakı qollara ayrıldı:
a) Bunlara görə Peyğəmbər (s.a.s) Hz Əlinin imamlığını adı ilə deyil,vəsfi ilə bildirmişdir.Yəni, bildirilən vəsflər kimdə varsa, imam o olmalıdır. Hz Əli, Həsən, Hüseyndən sonra növbəti imam Həsən və Hüseynin soyundan şura ilə seçilməlidir. Onların içindən qılınc çəkib, dinə dəvət edən, elmli və müttəqi olan kəs imam ola bilər.
📚 H.Atay,eyni mənbə,səh 33; İsferayini, "Tebsir",səh 16; Eşari,1/134

b) Bunlar Hz Əlinin imamətinin Hz Peyğəmbərin (s.a.s) vəsiyyəti ilə Əlidən sonra Həsənə və sonra da Hüseynə keçdiyini iddia edirlər. Hz Hüseyndən sonra imamət Hz Həsən və Hz Hüseynin soyundan şura ilə olmalıdır. Onların soyundan biri üzərində ittifaq edilərsə və o da qılınc çəkərsə,imam o olmalıdır.
📚 H.Atay, eyni mənbə, səh 33; Kummi,səh 19,21; Nevbahti, səh 21
Carudiyyənin bu qolu gözlənilən imam olmayıb, qılınc ələ alan və dinə dəvət edən Həsən və Hüseynin soyundan gələn hər hansı bir kimsənin imam ola biləcəyini iddia edirdi.
📚 H.Atay, eyni mənbə, səh 33; "el Fark",səh 31

c) Muhəmməd Nəfsus Zəkiyyəni gözləyənlər:
Hz Həsənin soyundan gələn Abdullah ibn Muhəmməd Nəfsuz-zəkiyyəni gözləyənlər (öl.151/768) onun ölümünü təsdiq etmir, gözlənilən Mehdi olduğunu iddia edirdilər.
📚 H.Atay, eyni mənbə, səh 34; "el Fark", 31, Eşari,1/134; İsferayini,səh 16

d) Muhəmməd ibn Qasımı gözləyənlər:
Hz Hüseynin soyundan gələn Əli ibn Ömər ibn Qasım ibn Muhəmməd alim, zahid, dindar bir kimsə idi. Xəlifə Mutəsimin zamanında Təlaqanda üsyan etmiş və Samarrada 219/834-ci ildə həbsdən qaçmışdı. Onun ölmədiyinə, diri olduğuna, gəlib dünyanı ədalətlə dolduracağına inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 34; "el-Fark",səh 31; Eşari,1/ 134; İsferayini, səh 17

e) Yəhya ibn Öməri gözləyənlər:
İmam Zeydin nəvələrindən olan Yəhya ibn Ömər Əbul Həsən 250/864-cı ildə Kufədə üsyan etməsindən sonra öldürülmüşdür. Ölmədiyinə və təkrar ortaya çıxacağına inanırdılar.
Carudiyyənin ortaq etiqadı ondadır ki, onlar səhabələri Hz Əlini imam seçməmələrinə görə küfrdə ittiham edir və quluva varırlar.
📚 H.Atay, eyni mənbə, səh 34; Eşari, 1/135; el-Fark 32; İsferayini 17

— Muhəmməd ibn Hənəfiyyəni imam qəbul edənlər:
Muhəmməd ibn Hənəfiyyəni həyatda imam olaraq qəbul edənləri iki qrupa ayırmaq olar.

A) Muxtariyyə:
Bunlar Muxtar ibn Əbu Ubeyd Səqəfiyə tabe olanlardır.

Muxtar 66/685-ci ildə siyasətə qoşulmuş çox inatcıl biri idi. Bir çox qruplar arasında özünə yer tapmağa çalışdı. Abdullah ibn Zubeyrin naibi olmağa çalışdı. Amma, ona etibar edilmədi. Çünki, o əvvəllər Əməvi tərəfdarı idi. Sonra o xəvariclərdən oldu. Daha sonra Muxtar Kufəyə gəlib, orada şiələrə qoşuldu. Şiələrin Hz Hüseynə etdikləri xəyanətdən dolayı peşman olduqlarını istismar edərək, onların başına keçdi və Abdullah ibn Zubeyr və Əməvilərə qarşı Hz Hüseynin intiqamını almağa çalışdı.
📚 H.Atay, eyni mənbə, səh 35; H.I.H. Tarihul islâm,1/402; Ebu Zehra, "İslam mezhepleri", səh 67
O, Kufəyə Muhəmməd ibn əl Hənəfiyyə tərəfindən göndərildiyini iddia edirdi.
İddia edirdi ki, Mehdi məni sizə vəzir olaraq göndərib, dinsizləri öldürməyi və ailəsinin intiqamını almamı əmr edib.
📚 H.Atay, eyni mənbə, səh 35; M.Zehra,səh 68; Kummi, 21; Nevbahti, 23
Muxtariyyə imamətin Muhəmməd ibn əl Hənəfiyyəyə atası Hz Əlidən keçdiyini, onun imam və Mehdi olduğunu iddia edirdi. Onlar əhli beytdən heç kəsin ona qarşı çıxmaq və izni olmadan qılınc çəkmək ixtiyarının olmadığını deyirdilər. Həsənin Müaviyə ilə bağladığı sülh və Hüseynin də Yezid ilə etdiyi müharibənin onun izni ilə olduğunu iddia edirdilər.
📚 H.Atay, eyni mənbə, səh 35; Nevbahti, 26, Kummi, 26

Muxtar (öl.67/686) Taifli olub, atası ilə Mədinəyə köçmüş, daha sonra atası İraqda Cisir müharibəsində vəfat etmişdi. Muxtar Mədinədə bəni Haşimə bağlı qalaraq böyüdü. Hz Əlinin ölümündən sonra Bəsra şəhərində yaşamış, Kərbəla hadisəsindən sonra Ubeydullah ibn Ziyad tərəfindən həbs edilmişdi. Lakin, bacısının əri Abdullah ibn Ömərin xahişi ilə azad edildi və Taifə sürgün edildi.
Yezid öldükdə İraqa gəlib, xalqı Muhəmməd ibn əl Hənəfiyyənin imamlığına dəvət etmiş, Hz Hüseynin intiqamını almışdır.
📚 H.Atay, eyni mənbə, səh 36

Muxtar haqqında iki fərqli qənaət mövcuddur:
a) Muxtar yalançı, özünə vəhyin gəldiyinə inanan, Allaha "bəda" sifəti nisbət edən bir kimsədir. Bu xəbərlər ibn əl Hənəfiyyəyə çatdıqda o Muxtardan təbərri etmişdi. Bağdadi bütün bunları Muxtara Səbəiyyənin tələqin etdiyini yazır.
📚 H.Atay, eyni mənbə, səh 36; "Fark", 46,47
Bağdadi "bəda" sifətini Allaha isnad etməsini belə təsvir edir:
"Muxtarın vəhy iddiası sərkərdəsi İbrahim ibn Əştərə çatdıqda, o Muxtardan uzaqlaşdı. Bunu fürsət hesab edən Abdullah ibn Zubeyr qardaşı Musabı ordu ilə Muxtarın üzərinə göndərdi. Muxtar sərkərdəsi Əhməd ibn Şumaytı Musab ilə döyüşə göndərərkən, ona vəhyə görə qalib gələcəyini söz verdi. Şumayt döyüşdə məğlub oldu və öldürüldü. Geri dönən əsgərlərə bunu izah edərkən, Muxtar dedi: Allah mənə söz vermişdi amma, sonra fikrini dəyişdi.
📚 H.Atay, səh 36; Fark, 50-2
İsfərəyani, Şəhristani də Muxtar əs Səqəfini bu şəkildə vəsf edirlər.
📚 el-Tebsir, 18,19,20; "Milel" , 2/198
Əbul Həsən əl Əşari isə Muxtarı sadəcə Hüseyn ibn Əlinin intiqamını almaqla insanları Muhəmməd ibn Hənəfiyyənin imamətinə dəvət edən biri olaraq təsvir edir. 📚 "Mekalat",1/89

b) Dr.M.Cabir Muxtarın adamlarının ərəb və qeyri ərəblərdən ibarət olmaqla iki dəstə olduğunu, görünüşdə bir olsalar da əslində bir-birinə düşmən olduqlarını yazır. Bəcilə

qəbiləsinin azadlı köləsi olmuş Əbu Əmra Keysan qeyri ərəblərə sərkərdəlik edirdi və bunlar Keysaniyyə firqəsini qurmuşdular.
📚 H.Atay, eyni mənbə, səh 38
Müasir dövrdə bir çox şiə alimləri Muxtarın yaxşı bir müsəlman olduğunu iddia edir, ona isnad edilən inanc və fikirlərin iftira olduğunu iddia edirlər.
📚 H.Atay, eyni mənbə, səh 37

B) Keysaniyyə məzhəbi:

Keysan adı haqqında üç növ izah mövcuddur. Ərəbcə "keyyis" - zəki mənasına gəlir və "Keysan" çox zəki mənasına gəldiyindən, bu ad Muxtara verilmişdir. Bunun bəzən də Muxrarın ləqəbi olduğu qeyd olunur.
📚 H.Atay, eyni mənbə, səh 38; Kummi 21, 26; el-Fark 38, Nevbahti, 23,27; Eşari, Makalat 1/90
Muxtariyyənin Keysaniyyə ilə eyni məzhəb olduğunu deyənlər bunu belə qəbul edirlər.
İkinci bir iddiaya görə Keysan Hz Əlinin azadlı köləsi (mövlası) olmuşdur. Muxtara Keysan adının verilməsi Keysanın təşviqi ilə Hz Hüseynin intiqamını almağa başlayanda ona verilmişdi.
📚 H.Atay, eyni mənbə, səh 39; Eşari 1/90; Kummi 22, "əl-Fark", 38, Nevbahti 23
Üçüncü iddiaya görə Keysan Bəcilə qəbiləsinin mövlası və Muxtarın sərkərdəsi olmuşdu.
Göründüyü kimi Keysaniyyə firqəsinin qurucusunun kim və necə bir şəxsiyyət olduğu məsələsi müəmmalıdır.
Hz Əli vəya Bəcilə qəbiləsinin mövlası olması və onun "Keysan" olaraq adlandırılması, ləqəbindən də görüldüyü kimi onun zəkalı olduğuna dəlalət edir.
📚 H.Atay, eyni mənbə, səh 39

Mənbələr Keysanın Muxtarın, Məhəmməd ibn Hənəfiyyənin nümayəndəsi və sərkərdəsi olduğunu bildirir. O, Hz Əlidən öncə xəlifə olanları və Cəməldə, Siffində iştirak edənləri küfrdə ittiham edirdi. Halbuki, Muxtar Hz Əlidən öncə xəlifə olanları deyil,
Cəməl və Siffində iştirak edənləri təkfir edirdi. Keysan Cəbrayılın Muxtara vəhy gətirdiyini iddia edirdi.
📚 H.Atay, eyni mənbə, səh 39; Kummi, 22; Nevbahti 23

Xətib Bağdadiyə görə Keysaniyyə firqəsini digər firqələrdən ayıran iki təməl ünsür olmuşdur: Onlar Muhəmməd ibn Hənəfiyyənin imamlığına inanır və "bəda"nı yəni, Allahın fikrini vəya iradəsini dəyişdirə biləcəyinə etiqad edirdilər. "Bəda" ya etiqad edənlərin isə kafir olduğuna hökm oxunub.
📚 H.Atay, səh 40; "Fark" səh 38-39

Səbəiyyə firqəsi necə məchulluğa bürünmüşdüsə Keysaniyyə firqəsinin də əvvəli müəmmalı olmuşdur. Hər iki firqə batil və qulat firqələrin qaynağı olmuşdur. Şünni və şiə alimləri ittifaq ediblər ki, bunlar İslam firqələrindən deyillər.
📚 H.Atay, eyni mənbə, səh 40

Məhəmməd ibn Hənəfiyyənin (öl. 81/700) 65 yaşda vəfatından sonra meydana çıxan firqələr aşağıdakılardır:

a) Kərbiyyə:

Bunlar Əbu Kərb əl Darka tabe olanlardır. Onlara görə Məhəmməd b. Hənəfiyyə ölə bilməz və ölməmişdir. O, gizlənmişdir, (qeyb olmuş) harada olduğu bilinmir və gəlib yer üzünə hakim olacaqdır. O, geri qayıdana qədər başqa imam olmayacaqdır.
📚H.Atay, eyni mənbə, səh 40; Nevbahti 27; Kummi, 27
Əbul Həsən əl Əşari Kərbiyyə firqəsinin ibn Hənəfiyyənin Mədinə yaxınlığındakı Radva dağında gizləndiyinə, sağında aslan, solunda qaplanın onu qoruduğuna inandıqlarını qeyd edir.
📚H.Atay, eyni mənbə, səh 40; "Makalat",1/90
Qummiyə görə Kərbiyyənin bir qisim Məhəmməd ibn Hənəfiyyənin oğlu Abdullaha atasının ruhunun girdiyinə etiqad etmiş, onun ölməyib, Radva dağında gizləndiyini etiqad etmişdilər.
📚H.Atay, eyni mənbə, səh 41; Kummi, 27

Görünən odur ki, Mehdi nəzəriyyəsi Keysaniyyə və bundan qaynaqlanan firqələrdən meydana gəlmişdir. Qaib imam nəzəriyyəsini ilk dəfə ortaya atan və zehinlərə yerləşdirin Keysaniyyə firqəsi olmuşdur.
📚H.Atay, eyni mənbə, səh 41;Dr. A. Feyyaz, "Tarihul İmamiyye", 114
Bu firqədən olan Həmzə ibn Əmmar adında biri özünün peyğəmbər, Muhəmməd b. Hənəfiyyənin isə ilah olduğunu iddia etmişdi. Mədinə və Kufə əhlindən ona tabe olanlar oldu. İmam Baqir onu lənətləmiş və şiələr də ondan ayrılmışdı.
Bu Həmzə ibn Əmmar öz qızı ilə evlənmiş və bütün haramları halal görürdü. O, imamı qəbul edən istədiyini edə bilər deyirdi.İraq valisi Xalid ibn Abdullah Kəsri onu həbs edib, on beş adamı ilə birlikdə Kufə məscidində yandırmışdı.
📚H.Atay, eyni mənbə, səh 41; Nevbahtı, 28

b) Haşimiyyə:
Bunlara görə Muhəmməd ibn Hənəfiyyə vəfat edib və özündən sonra oğlu Abdullah imamdır. Onun kunyəsi Əbu Haşim olduğuna görə onu imam olaraq tanıyanlara Haşimiyyə deyilmişdi. Əbu Haşim (H.98/M.716) ilində vəfat etmişdi və o Vasil ibn Atanın şeyxlərindən olub, bitərəf (itizaldə) biri idi. Altı hədis kitabında ondan hədis rəvayyət edilmişdir.
📚H.Atay, eyni mənbə, səh 42; "el-Fark" 27; Nevbahti, 30
Əbu Haşim Abdullah ibn Muhəmməd ibn Hənəfiyyə vəfat etdikdə, tərəfdarları beş firqəyə ayrıldılar:

1) Xalis Muxtariyyə:
Onlara görə Abdullah qardaşı Əli ibn Muhəmmədə imamlığı vəsiyyət etdi. Əli oğlu Həsənə, Həsən də oğlu Əliyə vəsiyyət etmişdi.... Onlara görə imamət Muhəmməd ibn Hənəfiyyənin soyundan gəlir və bunlar xalis Keysaniyyə və Muxtariyyə adlanırlar.
Bunlardan bir dəstə Həsən ibn Əlinin imamlığı kimsəyə vəsiyyət etmədiyini iddia edərək, Muhəmməd ibn Hənəfiyyənin Mehdi olaraq dönməsini gözləyirdilər.
📚H.Atay, eyni mənbə, səh 42; Nevbahti, 27,31,32; Kummi, 26-27, 39

2) Hərbiyyə:
Bunlar Abdullah ibn Amr ibn Hərbə tabe olanlardır. Onlar ruhların köç etməsinə inanırdılar. Bu firqəyə görə ilk imam Hz Əli idi, imamət Həsənə, ardınca Hüseynə, daha sonra isə Muhəmməd ibn Hənəfiyyəyə keçmişdi. O, gələnə qədər isə imam Abdullah ibn Hərbdir.
📚H.Atay, eyni mənbə, səh 42

Xorasan mənşəli Hərbiyyə təriqəti insan və heyvan ruhlarının başqa bədənlərə mükafat və cəza olaraq köç etməsinə etiqad edirdi. Abdullah Allahın ruhunun onun bədəninə keçdiyini, özünün həm ilah, həm də peyğəmbər olduğunu iddia edirdi.
Ruh köçünə (reankarnasiya) inandıqlarına görə Qiyaməti də qəbul etmirdilər. Onlara görə mükafat və cəza bu dünyada verilirdi. Hər şeyi yeyib, içmək isə sərbəstdir. Abdullah Xorasanda öldükdən sonra bəziləri onun ölmədiyinə və geri dönəcəyini iddia etdilər. Bəziləri də öldüyünə və ruhunun İshaq ibn Zeyd ibn Haris əl Ənsariyə keçdiyini qəbul etdilər. İshaqın başçılıq etdiyi qrupa Harisiyyə deyilirdi və onlar üçün dində hər şey mübah idi.
📚İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 67

3) Muaviyə firqəsi:
Bunlar Əbu Haşimin imaməti Cəfər ibn Əbu Talibin soyundan gələn Abdullah ibn Muaviyəyə vəsiyyət etdiyini iddia edirdilər.
Onlar Abdullah ibn Muaviyənin hər şeyi bilən bir imam olduğunu, Allahın nurdan ibarət olduğunu və nurun da Abdullahda təcəlli etdiyini iddia etməklə quluva varmışdılar. Bunlar Qulatdan olub, imamı tanıyan üçün hər şey mübahdır deyirdilər. Abdullah ibn Müaviyə Kufədə üsyan etmiş (M.744), insanları özünə dəvət etmiş amma, Kufədə möhkəmlənə bilməyib, İrana gedib, orada İsfəhanı ələ keçirmişdi. Lakin, orada yaxalanmış və Əbu Muslim tərəfindən öldürülmüşdü.
📚H.Atay, eyni mənbə, səh 43; Kummi, 40; Eşari, "Makalat", 1/154

Abdullah ibn Muaviyənin adamlarına Muaviyə firqəsi deyilirdi. Bunlar ruhların bir bədəndən digərinə keçdiyinə inanırlardılar. Onlara görə Allahın ruhu peyğəmbərlərə keçmiş və onlar bir növ ilahdırlar. Onların ruhları birindən o birinə keçə-keçə Hz Məhəmmədə qədər gəlmiş, sonra ondan Hz Əliyə, ondan oğlu Məhəmmədə, ondan oğlu Əbu Haşimə, sonra Abdullah ibn Muaviyəyə keçmişdi. Bu firqə mənsubları zina və livatayı halal görürdülər.
📚H.Atay, eyni mənbə, səh 43; Kummi, 42-43

Şiə tarixçiləri Növbəxti və Əbu Xələf əl Əşari əl Qumminin bildirdiklərinə görə Abdullah ibn Muaviyə Əbu Muslim tərəfindən öldürüldükdən sonra tərəfdarları üç firqəyə bölündülər: Birinci firqə Abdullah ibn əl Harisin ətrafında toplanmışdı. Digər firqə onun ölmədiyini, gözlənilən Mehdi olduğunu, İsfahanda bir dağda gizləndiyini iddia etmişdi. Üçüncü firqə isə onun öldüyünü və yerinə heç kəsi vəsiyyət etmədiyini iddia etmişdi.
📚H.Atay, eyni mənbə, səh 43; Nevbahti, "Fırak eş Şia", 32-33; "Mekalat", 42

4) Ravəndiyyə:
Bunlar Abdullah ibn Muhəmməd Hənəfiyyənin imamlığı Muhəmməd ibn Əli ibn Abdullah ibn Abbasa vəsiyyət etdiyini iddia edirlər və bunlara Ravəndiyyə deyilir. Bunlara görə Hz Əlinin oğlu Muhəmməd imamdır və o bir ilahdır. O, hər şeyi bilir və onu qəbul edən kimsə istədiyini etmədə sərbəstdir.
Əbu Haşim Abdullah ibn Muhəmməd Hənəfiyəyə şiələr tərəfindən böyük ehtiram olunurdu. Şamda Şərat deyilən yerdə vəfat etdiyi zaman (H.98/M.716) oğlu olmadığı üçün adı yuxarıda keçən Muhəmməd ibn Əli ibn Abdullah ibn Abbası (ibn Abbasın nəvəsi) özündən sonra vəsiyyət etdi və tərəfdarlarını ona göndərdi.
Həmin bu Muhəmməd Şamda vəfat etdiyi zaman (H.115/M.742) oğlu İbrahimi özündən sonra imam təyin etdi. Daha sonra İbrahim Mərvan tərəfindən öldürüləcəyini anlayınca (H.132/M.748) imamlığı qardaşı Əbul Abbas Abdullaha (ilk Abbası xəlifəsi) vəsiyyət etdi.
📚İbn Hallekan, "Vefayet el-Ayan" 3/147,278

Qummi və bir çox tarixçilərə görə Ravəndiyyə Xorasan tərəflərində Abbas oğullarının şiələri olmuşlar.
📚H.Atay, eyni mənbə, səh 44; Eşari, "Makalat", 1/94; Kummi, 180

5—Bəyaniyyə:
Bunlar Əbu Haşimin Mehdi olduğunu, geri qayıdıb, dünyaya hakim olacağını deyir və onun haqqında ifrata vardılar. Bunlara Bəyaniyyə firqəsi deyildi və bu firqə Bəyan ibn Səman Təmimiyə nisbət edilir. Bunlar İraqda hicri ikinci əsrin əvvəllərində zühur etmişdilər. Onlar Allahın insan şəklində olduğunu, üzü xaric bütün vücudunun yox olacağını iddia edirdilər. Onlar vəhyin Allahın bir parçası olaraq öncə Əli ibn Əbu Talibə gəldiyini, ondan oğlu Muhəmmədə keçdiyini, ondan oğlu Əbu Haşimə və sonra da Bəyan ibn Səmana keçdiyini və İslam şəriətinin bir qisminin ləğv edildiyini iddia edirdilər.
Çoxları Əbu Haşimin onu imam təyin etdiyinə və bəziləri də onun peyğəmbər olduğuna inanırdılar. Bəyan ibn Səman İraq valisi Xalid ibn Abdullah Kəsri tərəfindən hicri 119-cu ildə öldürülmüşdü.
📚H.Atay, eyni mənbə, səh 45; el-Kummi, 37-38; Nevbahti, 30; Eşari, "Makalat", 1/66-67; et-Tebsir 72; Taberi 51

"Bunlar Kufəli tacir Bəyanın peyğəmbər və ilah olduğunu iddia edirdilər. Bəyan Hz Əlidən sonra Allahın ruhunun ən sonda ona təcəlli etdiyini, bu ruhla düşmənlərini yendiyini, qeyb güclərini çağırdığını iddia edirdi.
O Əlinin yenidən ortaya çıxacağını və buludlar içindən gələcəyinə iddia edirdi. Göy gurultusunun onun səsi, şimşəyin də onun gülüşü olduğunu iddia edirdi. Bəyan Əməvilər ilə mübarizə aparırdı. Tutulduqdan sonra yandırılaraq öldürüldü və cəsədi çarmıxa çəkildi.
Bu firqə Allahın işığa bənzər bir varlıq olduğunu, ruhunun imamlara keçdiyini və onların da buna görə ilah olduqlarını iddia edirdi."
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 67

—Xürrəmiyyə:

Şiə firqələrinə dair ən qədim şiə alimlərinin əsərlərində bu firqənin Keysaniyyə və Hərbiyyə firqələrinin dağılmasından sonra qurulduğu yazılır.
Bunlar quluvda o qədər ifrata varmışdılar ki, imamların ilah, peyğəmbər və mələk olduqlarını söyləyir, kölgələr aləminə (əzilə), ruhların köçünə (tənasüh), rəcata (dünyaya geri qayıtmağa) etiqad edirdilər.
Onlara görə Qiyamət, ruhun bir bədəndən çıxıb, digər bədənə girməsidir. Yaxşı insanların ruhları yaxşı, pis insanların ruhları isə pis bədənlərə girəcək, əzab olsun deyə meymun, donuz, ilan, əqrəb vücudlarında işgəncə görəcəkdir. Onlar buna rəcat demişlər.
📚H.Atay, eyni mənbə, səh 45; el-Kummi, 44, 187; Nevbahti, 34
Əbdulqahir Bağdadi və İsfərayaniyə görə Xürrəmiyyə İslam dövründə ortaya çıxmış batini bir məzhəb olub, Sasani şahı Ənuşirəvan dövründə yaranmış Məzdəkilər kimi mal, mülk və qadınlarda ortaqlığı qəbul edir və haramları halal sayırdılar.
📚H. Atay, eyni mənbə səh 45; Şehristani, 2/11
İbn Həzm Xürrəmiyyənin Qərməti və İsmailiyyənin ən şərliləri olduğunu qeyd edirdi. Bir çox alimlər Xürrəmiyyəni ümumi bir vəsf hesab etmişlər.
İsfahanda olanlara Xürrəmiyyə və Qudiyyə, Reydə olanlara Məzdəkiyyə və Sinbadiyyə, Azərbaycanda olanlara Zəkuliyyə, Məvanəhrdə olanlara isə Mubeyyidə deyilirdi.

📚H. Atay, eyni mənbə, səh 46; "el-Fark", 160-161; et-Tabsir, 79-80; İbn Hazm, "el-Fasl", 1/34

Tarixi qaynaqlarda yazılana görə "Məzdəkin ölümündən sonra xanımı Xürrəm bint Fadə adamları ilə birlikdə Mədaindən (İraq) çıxaraq, Rey (Tehran) kəndlərindən birinə getdi və bu bölgədə Məzdəkin inancını yaymaya başladı. Bir çox Zərdüşt mənsubu kimsə bu yeni inancı qəbul etdi və bunlara zamanla Xürrəmiyyə deyildi.
Lakin, bunlar inanclarını uzun bir müddət gizlətdilər.
İslamiyyət dövründə İraq, İran və daha sonra orta Asiya bölgələrində zaman-zaman fərqli liderlərin öndərliyində mənşəyi Məzdəki inancı üzrə olan Xürrəmilərin müxtəlif qolları tərəfindən İslamı görünüşlü ezoterik (batini) təriqətlər yaradıldı.
Eyni zamanda bu dövrdə İslami tərəfi olmayan Xürrəmi qruplar da fəaliyyət göstərirdi. İslami görünüşlü batini firqələr daha çox şiə təriqətləri kimi özlərini qələmə verirdilər.
Lakin, şiə imamları Xürrəmi mənşəli bu ifrata varmış qulat, rafizi təriqətləri rədd edirdilər.
Hinduizm, Manilik və Məzdəkilik kimi dualist və politeist təlimləri əhatə edən və yunan fəlsəfəsindən də bəzi düşüncələri əxz edən Xürrəmilikdə İslam, Xristian və Musəvilik kimi moneteist dinlərin inancları da yer alırdı.
Bu təriqətlər Əməvilər dövründə bəzi kiçik üsyanlar etdilər, ancaq çox da ön plana çıxmamışdılar və inanclarını daha çox gizli saxlayırdılar.
Əməvilərin devrilməsində və Abbasilərin iqtidara gəlməsində başlıca rol oynamış İranlı Əbu Muslimin Abbasilər tərəfindən 755-ci ildə öldürülməsindən sonra Xürrəmilər daha da aktivləşdi.
Xürrəmilikdə öncə Məzdəkin şəxsiyyəti mərkəzdə yer alırkən, daha sonra onun yerini Əbu Muslim aldı və pərakəndə şəklində olan qruplar daha yaxşı təşkilatlandı və sistemli hərəkət etməyə başladılar.
Bu qruplar xüsusilə miladi 8-9-cu əsrlərdə Abbasilərə qarşı dini və siyasi üsyan hərəkatları təşkil etdilər.
Əslində bu üsyanlar iranlıların ərəblərə qarşı etiraz hərəkatı idi.
İranda və orta Asiyada baş verən bu üsyanlar bir növ Zərdüştlüyün İslamiyyət ilə mücadiləsi idi.
Xürrəmilər paqan inanclı türklər və rafizilər ilə birlikdə hərəkət etdilər. İranlı Xorasan əmiri olan Əbu Muslim Abbasi xəlifəsi Mənsur tərəfindən öldürüldükdən (mil.755) sonra Nişapurda onun yaxın dostu və sərkərdəsi olan Zərdüşt inanclı Sinbad İranda üsyan qaldırdı.
O, Nişapurdan Reyə gəldi və Təbəristandakı zərdüştiləri üsyana qaldırdı. Sonra İraq, Kuhistan və Xorasandakı rafizilər ilə məzdəkiləri üsyana qaldırdı.
Əbu Muslimin elçisi olduğunu iddia edən Sinbad onun ölmədiyini deyirdi. O, belə bir əfsanə uydurmuşdu ki, guya xəlifə Mənsur Əbu Muslimi öldürmək istədikdə o Allahın ən böyük adını söyləyərək, ağ bir göyərçin olmuş, xəlifənin əlindən xilas olmuşdu.
Sinbad Əbu Muslimin Mehdi və Məzdək ilə birlikdə bir qalada yaşadığını, yaxın zamanda üçünün də ortaya çıxacağını və Əbu Muslimin rəhbər, Məzdəkin isə onun vəziri olacağını iddia edirdi.
Sinbad Əbu Muslimdən məktublar aldığını deyirdi. Rafizilər Mehdinin, Məzdəkilər isə Məzdəkin adına görə Reyə toplandı və böyük bir izdiham yaşandı.
O, Zərdüştlilərə ərəb hökmranlığının bitəcəyi, Kəbənin yıxılacağı, qiblənin keçmişdə olduğu kimi günəş olacağı vədləri verdi.
Sinbad Məzdəkin şiə olduğunu və onun əmri ilə məzdəkilərlə şiələrin müttəfiq olmalı olduğunu deyirdi.
Beləliklə, Sinbad zərdüştiləri, xürrəmi və şiələri bir araya gətirdi.

Sinbadla xəlifə Mənsur uzun illər müharibə etdilər və sonda Sinbad Reydə öldürüldü.
Şəhər tutuldu, talan edildi və zərdüştilər öldürüldü.
Sonralar xürrəmi və zərdüşt inancları qaynaşdı və gedərək gücləndi. Nəticədə xürrəmi inancı əsasında bir çox təriqət ortaya çıxdı. Bunlar İslami kimlik altında gizlənirdilər və onların öz dini kitabları var idi. Onların təliminin əsasını işıq və qaranlıq inancı təşkil edirdi.
Bunlar öləndən sonra ruhun bir bədəndən çıxıb, digər bədənə girəcəyinə, həyatın yalnız bu dünyada olacağına, cəza və mükafatın bu dünyada veriləcəyinə inanırdılar.
Cənnət və cəhənnəmin bədəndə olduğuna, bədəndə ruhun ya xoşbəxt yada bədbəxt olacağına inanırdılar.
İslamiyyəti çox fərqli şəkildə təsvir edirdilər. Şəriətin bir zahiri, bir də əksər insanlar üçün sirr olan gizli (batini) tərəfləri olduğuna inanırdılar.
İlahi qanunları, ibadəti, həcci, cihad, dəstəmaz və s.ayinləri rədd edirdilər.
Hər bir haram, şərab mübah (sərbəst) idi, zövcə və malları bərabər bölürdülər. Onlar təhqir, günah və cəmiyyət üçün təhlükə törədə biləcək davranışlardan uzaq dururdular. Təmizliyə önəm verir, insanlara hörmətlə yanaşır və azad cinsi münasibətlərə üstünlük verirdilər.
Onlar Əbu Muslimə və qızı Fatimənin oğlu Mehdi ibn Firuza sitayiş edirdilər."
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 63; Şehristani, səh 280; Maqdisi, 1/133; Nizamülmülk, səh 212-213, 238-239, 244-245; el Nedim, II. 817-822; Bağdadi, II. 87; İbnul Esir, V. 392-393; Nevbahti, 86-87, 97

Mənsuriyyə:

Bunlar çöldə doğulub-böyüyən, Kufədə yaşayan və yazıb-oxumağı bilməyən Əbu Mənsur İcliyə tabe olanlardır.
İmamiyyənin beşinci imamı Əbu Cəfər Muhəmməd Baqir (H.113/M.713) vəfat etdikdə Əbu Mənsur özünün onun tərəfindən imam olaraq vəsiyyət edildiyini iddia etdi.
O, özünün səmaya merac etdiyini, Allahla göydə danışdığını, peyğəmbər və Allah dostu olduğunu iddia edirdi.
O Muhəmmədin (s.a.s) peyğəmbər, özünün isə bəyan edici olduğunu deyir, Əli, Həsən, Hüseyn, Əli ibn Hüseyn, Muhəmməd Baqirin peyğəmbər olduğu kimi özünün və soyundan altı oğlunun da peyğəmbər olacağını iddia edirdi.
Məcusilər kimi kişinin ana və qızı ilə nigah etməsinin caiz olduğunu, cənnət və cəhənnəmin olmadığını, leş, qan, donuz əti, içki və qumar kimi haram şeylərin mübah (icazəli) olduğunu bəyan edirdi.
Şəhristani əvvəllər Əbu Mənsurun Muhəmməd Baqirə itaət etdiyini, Baqirin onu qovduqdan sonra özünün imamlığını, vəfat etdikdən sonra isə imamətin ona keçdiyini iddia etdiyini yazır.
📚H.Atay, eyni mənbə, səh 46; el-Milel, 2/14
Əbu Mənsur İslam dininin fərz qıldığı namaz, oruc, həcc kimi əhkamları vacib görməmiş, bütün yasaq və əmrlərin bir növ insan adları kimi təfsir etmişdi.
O, və ona tabe olanlar özlərinə tabe olmayanları nifaqda ittiham edir, onların öldürülməsi və mallarının qəsb edilməsini təşviq edirdilər.
İraq valisi Xalid ibn Abdullah əl Kəsri bunu yaxalaya bilmədi amma, başqa İraq valisi Yusif ibn Ömər əs Səqəfi Əbu Mənsuru həbs edib, asdırdı.
📚H.Atay, eyni mənbə, səh 46; el-Kummi, 46-47; Nevbahti 34; Eşari, "Makalat", 1/74-75

əl Qummi Əbu Mənsurun ölümündən sonra tərəfdarlarının iki firqəyə ayrıldığını yazır:

a) Birinci firqəyə görə imamlıq Əbu Mənsurdan oğlu Hüseynə keçmiş və bir daha Əli ibn Əbu Talibin soyuna keçməyəcəkdir. Bunlara Hüseyniyyə firqəsi deyilirdi. Bu şəxs atası kimi peyğəmbərlik iddia etmiş və çoxlu tərəfdarlar əldə etmişdi. Lakin, Abbasi xəlifəsi Mehdi tərəfindən yaxalanıb, öldürülmüşdü.

b) Digər firqə Əbu Mənsurun əmanətçi (müvəqqəti) və samit (susan) imam olduğunu, Muhəmməd ibn Əlidən sonra natiq olan imamın Muhəmməd ibn Abdullah ibn Həsən olduğunu iddia edirdi.
📚 H.Atay, eyni mənbə, səh 47; el-Kummi 48, 187,188; Nevbahti 35, Eşari, "Makalat", 76

—Xəttabiyyə:

Bu firqə Əbul Xəttab Muhəmməd ibn Əbu Zeynəb Əcdi əl Əsədi adlı kimsə tərəfindən yaradılmışdı.
Bunlara görə hər əsrdə iki peyğəmbər olmalıdır. Onlardan biri natiq, (danışan) digəri isə samit (susan) olmalıdır. Muhəmməd (s.a.s) natiq, Əli ibn Əbu Talib isə samit idi. Onlar həmçinin, hər biri ayrılıqda ilah idilər.
Bu iddialarına görə Cəfər əs Sadiq onlardan uzaqlaşıb, lənətlədikdə onlar Əbul Həsən Əşariyə görə beş, Növbəxtiyə görə dörd, Makriziyə görə əlli firqəyə ayrıldılar.
📚 H.Atay, eyni mənbə, səh 47; Eşari, 1/75; el-Kummi, 51; Nevbahti 37; Makrizı, "Hitat", 2/352

Onlardan bəziləri aşağıdakılardır:
a) Bu firqəyə görə Cəfər əs Sadiq ilah, Əbul Xəttab da onun peyğəmbəridir.
Onlar zinanı, livatı, oğurluq, içki və bütün haramları mübah görürdülər. Namaz, oruc, zəkat kimi fərzləri isə tərk edirdilər.
Fərzlərin - itaət edilməsi zəruri olan insanların, haramların da qarşı çıxılacaq lənət olunmalı olan insanların adları olduğunu iddia edirdilər.
Onlara görə peyğəmbər olan imamı etiraf edən kimsə istədiyini edə bilər və peyğəmbərlər Əbul Xəttaba itaət etməyi xalqa fərz buyurublar.
İmamların ilah, Hz Hüseynin oğullarının Allahın oğulları olduqlarına etiqad edirdilər.
Cəfər əs Sadiq və Əli ibn Əbu Talibi ilahları qəbul etməklə bərabər, Əbul Xəttabın onlardan daha əzəmətli olduğuna inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 47; Eşari, "Makalat", 1/75
Əbul Xəttab Abbasi xəlifəsi Əbu Cəfər əl Mənsura qarşı üsyan etmiş və Kufə valisi İsa ibn Musa tərəfindən Kufədə (H.143/M.760) öldürülmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 48; Eşari, "Makalat", 76, not 77

b) Muəmmərıyyə:
Bunlar Əbul Xəttabdan sonra Muəmmər adında birinin imam olduğunu iddia etdilər və Əbul Xəttaba pərəstiş etdikləri kimi ona da pərəstiş etdilər. Onlar ruhların köçünə (tənasüh) etiqad edir, içki, zina və digər haramları mübah (icazəli) görür, fərzləri tərk edir, qiyaməti isə inkar edirdilər.
Bunlar Cəfər əs Sadiqin Allah və vasilərin (imam) bədənlərinə girən bir nur olduğunu, bu nurun imam Sadiqdən çıxıb, Əbul Xəttaba girdiyini və ondan da çıxıb, Muəmmərə girdiyini iddia edirdilər.
Onlar Cəfər əs Sadiq və Əbul Xəttabın mələklərə qarışdığını və Muəmmərin də ilah olduğunu iddia edirdilər.

📚 H.Atay, eyni mənbə, səh 49;Nevbahti, 39-41; el-Kummi , 53-54

c) Bəziğiyyə:
Bəziğ ibn Musanın qurduğu bu firqə mənsubları Bəziğin də Əbul Xəttab kimi Cəfər əs Sadiq tərəfindən peyğəmbər göndərildiyini iddia edirdilər.
Lakin, Əbul Xəttab və adamları Bəziği qəbul etmirdilər.
Bunlar ağıllarına gələn hər şeyin vəhy olduğuna inanırdılar. Cəfər əs Sadiqin ilah olduğuna, onun cisminin isə Allahın surəti olduğuna inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 48-49; Nevbahti, 38; el-Kummi 54; Eşari, "Makalat", 77; "el-Fark", 151; et-Tabsir 74

d) Umeyriyyə:
Bunlar Umeyr ibn Bəyan əl İclinin tərəfdarları idilər. Onlar Bəziğiyyənin imamların ölməyəcəyi iddialarını qəbul etmir, hər kəsin öləcəyinə inanırdılar. Öləndən sonra yeni peyğəmbər, imamlar gələcəyini iddia edirdilər.
Yağmurilər Cəfər əs Sadiqə ibadət etdiyi kimi bunlar da ona ibadət edir və onu özlərinə rəbb bilirdilər. Kufənin "Kunəsə" məhəlləsində qurduqları çadırda imam Cəfərə ibadət etmək üçün toplanırdılar.
Kufə valisi Zeyd ibn Ömər ibn Hubeyr Umeyr ibn Bəyanı tutmuş, edam etmiş və bir qisim tərəfdarlarını həbs etmişdi.
📚 H.Atay, eyni mənbə, səh 50; Eşari, "Makalat", 1/78; "el-Fark", 152; İsferayini, "Tabsir", 74

e) Mufəddəliyyə:
Bunlar Mufəddəl adında zərgər olmuş bir nəfərin ardıcıllarıdır. Xəttabiyyənin digər qolları kimi bunlar da Cəfər əs Sadiqin ilahlığına etiqad edirdilər.
Əbul Xəttabdan təbərri edir, peyğəmbərliyi özlərinə nisbət edirdilər.
📚H.Atay, eyni mənbə, səh 50; Eşari, 1/78; "Tabsir", 74; "el-Fark", 152

f) Muhəmmisə:
Bunlar Muhəmmədin (s.a.s) daima Adəm, Nuh, İbrahim, Musa, İsa və s. peyğəmbərlər olmaqla başqa millətlər və ərəblər içərisində müxtəlif surətlərdə, kisra və kralların cismində zühur etdiyinə etiqad edirlər....
📚H.Atay, eyni mənbə, səh 50; el-Kummi 56

g) Əlbaiyyə: (Əlyaviyyə)
Bunlar Dıra ibn Əlbanın (Devsi) tərəfdarları olub, Hz Əlini Peyğəmbərdən (s.a.s) üstün tuturdular. Kimisi Əlini, kimisi də Peyğəmbəri (s.a.s) ilahlıqda önə keçirir.
Muhəmməd (s.a.s) Əli ibn Əbu Talib, Həsən, Hüseyn, Fatiməni ilah bilir və hamısını bir varlıq hesab edirdilər.
Bu firqədən olan Bəşşar Şairi (H.180/M.796) Əli ibn Əbu Talibin ilah olduğunu və qulları olan peyğəmbərləri Muhəmmədin surətində göndərdiyini iddia edirdi.
📚H.Atay, eyni mənbə, səh 51; el-Kummi 59, 191

Bəşiriyyə: (Bişriyyə)
Bunlar Əsəd oğullarının kölələrindən olan Kufəli Bəşir ibn Muhəmmədin adamlarının təşkil etdiyi firqədir.
Hz Muhəmmədin (s.a.s) ilah olduğunu, hər şeyə təcəlli edə biləcəyini, doğmayıb, doğulmadığını ortaya atdılar.

Sehrbaz və gözbağlayıcı olan Bəşir ibn Muhəmməd özünün peyğəmbər olduğunu, imam Musa ibn Cəfərin ölməyib, həbs edilmədiyini, yalnız qeybə çəkilib, gizləndiyini və onun gözlənilən Mehdi olduğunu iddia edirdi. Bu şəxs Albaiyyə məzhəbindən olub, göz bağlayıcılıq etdiyi üçün öldürülmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 52; el-Kummi, 60,62-63

— İmamətin Abbas oğullarına keçməsi:

Hicri 98-ci ildə Əməvi xəlifəsi Süleyman ibn Əbdulməlik Hz Əlinin oğlu Muhəmmədin (Hənəfiyyyə) oğlu Abdullah Əbu Haşimi yanına dəvət etdi. Ona hədiyyələr verib, hörmət göstərdi.
Lakin, xalqı ətrafına toplayar qorxusu ilə onu öldürməyi planlaşdırdı. Onu Şam tərəflərdə Humeymə kəndinə göndərərkən, yolda zəhərlədi.
Peyğəmbər (s.a.s) əmisi Hz Abbasın soyundan gələn Muhəmməd ibn Əli ibn Abdullah bu kənddə sürgündə saxlanılırdı.
Əbu Haşim ölümünün yaxınlaşdığını gördükdə, Hz Abbas soyundan gələn Muhəmmədə imamlığı vəsiyyət edib, Haşim oğullarının propaqanda sirrlərini ona verdi. Bu hadisə Abbas oğullarının imamətdə ortaq və iddialı olmalarına gətirib çıxardı.
Əbu Haşimin imaməti Hz Əli soyundan Hz Abbas soyuna ötürməsinə aşağıdakı səbəblər göstərilir və bu hadisənin nəticələri:

a) İmamətin Hz Əli soyundan gələn üç nəfərin haqqı olduğuna şiələr iman etmişdilər. Onların oğullarının imaməti baradə isə şiələr üç firqəyə bölünmüşdülər. (hər bir firqə bir imamın oğullarını qəbul edirdi)
Hz Həsən, Hz Hüseyn və Hz Muhəmmədin üçüdə Hz Əlinin oğulları idi.
Əbu Haşim ibn Muhəmmədin imamətdən Abbas oğullarının lehinə imtina etməsi Həsən və Hüseynin soyundan gələnlərin yəni, bütün Əli soyundan gələnlərin imamətdən əl çəkməsi mənasına gəlmirdi.

b) Əbu Haşimin Abbas oğullarının lehinə imamətdən vaz keçməsinə qədər olan dövrdə Əli və Abbas oğulları ortaq düşmənləri Əməvilərə qarşı birlik, dostluq və qardaşlıq şəraitində əməkdaşlıq edirdilər.
Əbu Haşimin Muhəmmədə imamlığı vəsiyyət etməsinin səbəbini bir çoxları Hz Əli soyundan heç kəsin o zamanlar ağır imamət yükünü daşımağa hazır olmadığı şəklində izah edirdi. Lakin, bu ayrıca təhqiqat mövzusudur.

c) Abbas oğullarından Muhəmməd uzaqgörən, müdrik şəxs kimi təbliğat və propaqandanın əsaslarını tərtib etmişdi.
Tərəfdarlarına heç bir konkret adamın adını çəkmədən ümumən əhli beytə dəvət edilməsini tapşırmışdı. Çünki, konkret şəxs bilindikdə o Əməvilərin hədəfinə çevrilə bilərdi. Həmçinin, Əli tərəfdarlarını özünə qarşı qaldırmamış olurdu.
İkincisi, o heç bir firqə və məzhəbin maraq göstərmədiyi, uzaq Xorasanı özünün propaqanda mərkəzi seçmişdi.
Muhəmməd Əməvi xəlifəsi Ömər ibn Əbduləziz zamanında xüsusi adamlar seçib, əsas bölgələrə, xüsusən Xorasana propaqanda aparmaq məqsədi ilə göndərmişdi.
Muhəmməd öldüyü zaman (H.125/M.742) imamlığı oğlu İbrahimə vəsiyyət etdi.

İbrahim Abbasi dəvətinin rəisi olaraq Humeymdə yerləşmişdi. O, Əbu Muslim Xorasanini dəvətin rəhbəri olaraq Xorasana göndərdi. İbrahimin planları son Əməvi xəlifəsi Mərvan ibn Muhəmmədə (H.132/M.749) çatdıqda, onu həbs etdirdi və İbrahim həbsdə olarkən öldü. İbrahimin Əbu Muslimə yazdığı bəzi məktublar Mərvanın əlinə keçdiyinə görə o yaxalanmışdı. O, öldürüləcəyini anlayınca qardaşı Əbul Abbas Abdullah ibn Muhəmmədi yerinə vəsiyyət etdi. Bu xəbər Humeymdə yaşayan Əbul Abbasa çatınca o yanında qardaşı Əbu Cəfər əl Mənsurla bərabər Kufəyə hərəkət etdi.
📚 H. Atay, eyni mənbə, səh 53; el-Kummi 196

Əbul Abbas Kufədə (H.132/M.750) ilk Abbasi xəlifəsi olub, gənc yaşında (32 yaş) çiçək xəstəliyindən vəfat edərkən, yerinə qardaşı Əbu Cəfər Abdullah ibn Muhəmmədi (əl Mənsur) vəsiyyət etdi.
İkinci Abbasi xəlifəsi olan Əbu Cəfər əl Mənsur siyasi, şəxsi və s.şübhələrindən dolayı Əbu Muslimi öldürdükdən sonra (H.137/M.754) onun tərəfdarları intiqam almaq üçün üsyanlar təşkil etdilər.
Həmçinin, müsəlmanlara qarşı keçmiş dinlərini bərpa etmək adına mücadilə edən müxtəlif əqidəli firqə və camaatlar Əbu Muslimin öldürülməsindən sonra intiqam almaq və siyasi tələblər irəli sürməklə meydana atılmışdılar.

— Abbasi tərəfdarları (şiəsi) üç firqəyə ayrıldı:

1 - Əbu Muslimiyyə:
Xorasanlı Əbu Muslimin öldürülməsindən (H.137/M.754) sonra onun bəzi tərəfdarları bu firqəni qurmuşdular. Onlar onun imam olduğunu söyləmiş, ölmədiyini, öldürülmədiyini və diri olduğunu iddia etmişdilər.
Haramları mübah sayıb, bütün fərzləri tərk etdilər və imanın sadəcə imamı bilmək olduğunu söylədilər. Onlar Allahın ruhunun Əbu Muslimə girməsiylə tanrı olduğunu və onun mələklərdən üstün olduğuna etiqad edirdilər.
📚H.Atay, eyni mənbə, səh 55; Kummi 64; 195; Nevbahti 41,42; Eşari 1/94
Deyilənə görə Əbu Muslim öncələri Keysaniyyə məzhəbində olub, onların dəvət, propaqanda metodlarını öyrənmişdi. O, imam Cəfəri Sadiqə xəbər göndərmiş, əhli beytə dəvət etdiyini, əgər razı olarsa onun adından bu dəvəti aparacağını bildirmiş və ondan izn istəmişdi.
Cəfəri Sadiq ona "sən mənim adamım deyilsən və zaman da mənim zamanım deyil" deyincə, o imam İbrahimə gedib, onun əmrinə girmişdi.
📚H.Atay, eyni mənbə, səh 55; Hasan, "Tarih el-İslam", 2/15-17

2— Rizamiyyə:
Bunlar Rizam ibn Sabiqin tərəfdarları olub, Mərv şəhərində fəaliyyət göstərirdilər və Əbu Muslimə aşırı dərəcədə bağlı idilər.
İmamətin Əbu Haşimdən vəsiyyət yolu ilə Abbasilərdən Muhəmmədə, ondan oğlu İbrahimə, sonra onun qardaşı Əbul Abbas Abdullaha və ondan da Əbu Muslimə keçdiyinə və onun da öldüyünə inanırdılar.
Bunlar haqqında Xorasanda Əbu Muslimin zamanında ortaya çıxdığı və Əbu Muslimin də bu məzhəbdən olduğu deyilir. Onlar Allahın ruhunun Əbu Muslimə keçdiyini, bu ruhla Əməviləri məğlub etdiyini iddia edir və ruhların köçünə inanırdılar.
📚H.Atay, eyni mənbə, səh 56; Kummi 64, 195, Nevbahti, 42; Eşari, "Makalat", 1/94; "el-Fark", 155; Şehristani, 205, İsferayini 76

Rizamiyyənin əsli Keysaniyyədir və bu firqənin təsiri ilə zaman-zaman ortaya çıxmış üsyançı firqələr aşağıdakılardır:

a) Muğannaiyyə: (Mubayyidilər - ağ paltarlarlılar)
Orta Asiyada siyasi və dini sahədə böyük təsirə malik olmuş Muğanna inancı və təriqəti miladi 8-ci əsrin ikinci yarısında ortaya çıxdı. Muğanna sözü örtülü, bağlı mənasına gəlir və bu təriqətin ardıcıllarına Mubayyidilər (ağ paltarlılar) deyilirdi.
Muğanna xəstə görünüşlü, bir gözü kor, keçəl və qısa boylu bir şəxs idi.
Çox çirkin olduğuna görə başını və üzünü yaşıl ipək bir örtük ilə bağlayardı. Bəzi qaynaqlara görə o üzünü qızıl maska ilə örtürdü. Muğanna tək gözlü filosof və örtülü (peçəli) saxtakar olaraq da tanılırdı. O, əslən Bəlxli və bəzilərinə görə Abbasi xəlifəsi Mənsurun zamanında Xorasan əmirinin yardımçılarından olmuş Hakimin oğlu idi.
Muğanna əvvəllər paltar təmizliyi ilə məşğul idi. Sonralar çoxlu elmi kitablar oxudu və bir çox elmlə maraqlandı. Həmçinin, ruh çağırma, sehr, tilsim, kəhanət məsələləri ilə də çox maraqlanırdı. Muğanna Əbu Muslimə inanan və onun öldürülmədən öncə imam olduğunu qəbul edən Rizamiyyə təriqətinə bağlı idi. Bəzi qaynaqlara görə o Xorasan valisi Əzdi zamanında (758-759) onun vəziri olmuşdu. Bəzi kəhanət və sehr işlərinə görə xəlifə Mənsur onu Bağdadda həbs etmişdi. Azadlığa çıxdıqdan sonra Mərv şəhərinə geri qayıtdı və bir müddətdən sonra özünü ilah elan etdi.
İnancını missionerləri vasitəsilə müxtəlif bölgələrdə yaymağa müvəffəq oldu. Xüsusilə, Kiş bölgəsi xalqının bir çoxu bu təriqətə keçdi və ilk dəfə Subah adlı kənd camaatı bu inancı qəbul etdiyini elan edərək, Amri Subhi liderliyində üsyan hərəkatı başlatdı.
Bölgənin ərəb əmiri öldürüldü, Buxara, Suğd bölgəsinin bir çox məntəqəsi Muğannanın inancını qəbul etdi. İlaq bölgəsi də bu yeni inancı qəbul etdi, qarət məqsədi ilə karvanlara və yaşayış məntəqələrinə basqınlar oldu.
Xorasan valisi Humeyd ibn Qahtabə onu yaxalamaq istədi. Lakin, o bir müddət gizləndikdən sonra adamlarıyla birlikdə Ceyhun çayını keçərək, onun tərəfdarlarının çox olduğu Kişə getdi.
Türk xaqanı ilə yazışdı, ondan yardım istədi. Mubayyidilər (ağ paltarlılar) və paqan türklər onun ətrafında toplandılar.
Abbasilərin simvolu qara idi və onlar qara rəngdə geyinirdilər. Abbasilərə üsyan edən Muğanna tərəfdarları ağ geyindiklərindən onlara Mubayyidilər deyilirdi.
Kişdə Sam vəya Siyam deyilən dağda içində axan suyu, ağacları və münbit ərazisi olan çox güclü bir qala kompleksi var idi.
Eyni bölgədə bu qaladan da güclü digər bir qala vardı. Muğanna bu qalanı daha da möhkəmləndirdi, ətrafinda xəndəklər qazdırdı. Qalada çoxlu mal-dövlət, ona inanan Suğd xalqından və Halaç türklərindən çoxlu insanlar yaşayırdı.
Mubayyidilər getdikcə çoxaldılar və xəlifə əl Mehdi (775-785) zamanında Bağdada qədər irəlilədilər.
Muğanna türklərə müsəlmanların qanını və malını halal etmişdi. Ona görə də qənimət ümidi ilə Türkistandan bir çox ordular ona qoşulmuşdular.
Onlar müxtəlif bölgələri qarət etdikdən sonra qadın və uşaqları əsir götürüb, yerdə qalan insanları öldürürdülər.
Xəlifə Mehdi zamanında xüsusilə Buxara və Səmərqənd bölgələrində miladi 775-778 illəri arasında Mubayyidilər, türklərlə müsəlmanların ağır müharibələri yaşandı. Hər iki tərəf qarşılıqlı qələbə və məğlubiyyətlər yaşadı.

Bu müharibələr arasında müəyyən şərtlər çərçivəsində qısa sülh sazişləri bağlansa da hər dəfə Mubayyidilər sazişi pozub, basqınlar edirdilər. Sonunda Herat əmiri Səid böyük bir ordu ilə Muğannanın qalasının yanına qədər irəlilədi və orada düşərgə qurdu. Qalada onun ən yaxın adamları, qadınları və güclü ordusu var idi. Burada Muğannanın xüsusi iqamətgahı vardı. Orada o qadınları ilə hər gün yeyib, içərdi. Bu mühasirə şəraitində o on dörd il yaşadı. Herat əmiri davamlı şəkildə təzyiq edirdi və sonda Muğannanın adamlarından biri təslim olaraq, qalanın qapısını açdı. Qalada olan əsgərlər dağıldı, Muğanna dayana bilməyəcəyini anlayınca qadınları zəhərləyib öldürdü, köləsinin başını kəsdi və yanan təndirə özünü atıb, intihar etdi.
Muğannanın inancı orta Asiyada 12-ci əsrə qədər davam etdi.
O, özündə Allahın ruhu olduğunu, bu ruhun Adəm, Nuh, İbrahim, İsa, Muhəmməd, Əbu Muslim və ən sonda onun bədənində təcəlli etdiyini və özündən başqa da ilah olmadığını iddia edirdi.
Muğanna insanları ələ almaq və inandırmaq üçün saxta möcüzələr və sehrlər göstərərdi.
Xürrəmilərin ənənəsinə bağlı olan Muğanna təriqətinin özü Məzdək inancının prinsiplərini mənimsəmişdi.
6-cı əsrdə Zərdüştlükdə islahat edən Məzdəkin qurduğu inancın təməl prinsiplərinə görə bütün mallar və qadınlar ortaq bölünməli idi. Muğannaya bağlı Mubayyidilər (ağ paltarlılar) qadınlarının başqaları ilə birlikdə olmalarına izn verirdilər.
Onlar müsəlmanlarla birlikdə yaşayır, onlar kimi görünür və inanclarını gizlədərdilər.
Kəndlərində məscid olsa da orada ibadət etməzdilər.
Onlara görə bütün haramlar mübah idi.
Kəndlərində müəyyən günlərdə gizli məclislər keçirərdilər. İnanclarına görə Allah bir mesaj vermək istədikdə vəya insanları yönəltmək istədikdə bir insan cildinə girərdi. Əbu Muslimin qızı Fatimə soyundan gələcək olan Mehdi ibn Firuz ibn İmranın dünyanın sonunda mehdi olaraq ortaya çıxacaqlarına inanırdılar.
📚H.Atay, eyni mənbə, səh 56; İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdeki kökenli ezoterik tarikatlar", səh 70-72; el-Fark 155; Tarih Taberî, 6/ 367, 674; ibn Hallikan, "Vefayet", 3/263-265, 2/155; Zehebi,
"Şezerat", 1/248; İsferayini, "et-Tabsir", 76; Şehristani 206; el Kummi 195

b) Babəkiyyə:
Bu Babək Xürrəminin qurduğu bir furqədir. Bəzi tarixçilər Babəkin Əbu Muslimin soyundan gəldiyini yazır. Lakin, ibn Nədim "Fihrist" kitabında Babəkin həyatı haqqında başqa və uzun bir hekayə nəql edir.
📚H.Atay, eyni mənbə, səh 57; "ibn Nedim, el-Fihrist", 494-496
Babəkin üsyanı Muğananın üsyanının bir növ davamı idi və məqsədləri Abbasilərdən Əbu Muslimin intiqamını almaqdı.
Xürrəmilərin rəhbərlərindən olan Cavidan öləndə Babək onun xanımı ilə evlənib, onun yerinə keçdi. İnanclarına görə Cavidanın ruhu Babəkin bədəninə girmişdi və ona itaət insanlara fərz qılınmışdı.
Abbasi xəlifəsi Məmun Mərvdə olarkən Babək insanları yoldan çıxartmaqda idi. Xürrəmilər bütün haramları mübah sayır, insanları ilahlaşdırır, qulat şiələrin inancı rəcata (dünyaya təkrar dönüş) və ruhların köçünə (reankarnassiya) inanırdılar...
📚H.Atay, eyni mənbə, səh 57; Hasan İbrahim Hasan, "Tarih", 2 /110

Sultan Məlikin vəziri olmuş, böyük alim Nizamülmülk məşhur "Siyasətnamə" kitabında yazır:

"Bunlar (xürrəmilər) namaz, oruc, həcc və zəkat kimi dini fərzlərin hamısını rədd etmiş, şərabı, haram şeyləri və qadınları ortaq mal kimi istifadə etməyi mübah görürdülər. İnsan bunları Məzdəkin prinsipləri olduğunu zənn edər. Bunların etmək istədikləri tək şey İslamı ortadan qaldırmaq idi. Əhli beyti insanları özlərinə cəlb etmək üçün vasitə etdikləri halda onlara qarşı mərhəmət göstərməmişdilər. Təbliğatları ilə İslamı yıxmağa çalışmışdılar və Xürrəmiyyə ilə Batinilər eynidir.
📚 H.Atay, eyni mənbə, səh 57; H. İbrahim Hasan, 2/110

Xürrəmilərin Azərbaycan, Ermənistan, Təbəristan, Deyləm, Cürcan, Həmədan və Dinavar bölgələrində tərəfdarları qırmızı rəngdə geyindiklərinə görə onlara Muhammira (qırmızı) deyilirdi. Bunlar Babəkiyyə və Məzyariyyə olaraq ikiyə ayrılmışdılar.
Babək daha öncə Xürrəmi inanclarından fərqli olaraq öldürmə, şiddət və savaş kimi təlimləri tərəfdarlarına aşıladı. İnanclarına görə bütün yasaqlara izn verilmişdi. İnsan və heyvan ruhlarının ölümdən sonra başqa bədənlərə keçib, yaşadıqlarına inanırdılar. Onlar ana, bacı və qızları ilə evlənirdilər. Ona görə ərəblər bu inanca "fərc" dini də deyirdilər.

c) Məzyəriyyə:
Muhəmmiranın digər bir qolu isə Məzyarın (öl.839-840) rəhbərliyi altında Məzyərilər idi. Bunlar Babəkin ölümündən (öl.838) sonra Məzyərın başçılığı altında 838-840-cı illərdə Təbəristanda üsyan etmiş, Məzyər yaxalanaraq, Samarrada edam edilmişdi.
Onların ortaya çıxdığı və güclü olduğu yer Babəkin öldürülməsinə qədər Xəzər dənizinin cənubundakı Təbəristan bölgəsi idi. 11-ci əsrin başlarında isə sadəcə Gürcan bölgəsində yaşayırdılar.
Yaşadıqları dağda Babəkiyyələrə həsr edilən bir festival təşkil edərdilər. Qadın və kişilərin toplandığı bu festivalda mahnı oxuyub, şərab içərdilər.
Şamlar, məşəllər söndüyündə isə kişilər qızların bakirəliyini pozardı.
Onlar atası həbəşli, anası İranlı bir şahzadə olan əfsanəvi Şirvini bütün peyğəmbərlər və insanlardan ən üstün insan hesab edirdilər.
Görünüşdə müsəlman kimi görsənsələr də gizlində fərqli rituallar və mərasimlər keçirərdilər..."
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli batini tarikatlar",səh 73; Belazuri, c. 2, 46-48; Nizam al-Mulk, 239-243; Bağdadi, 88-90; İbnü'l Esîr, VI. 284, 388-392; Taberî, səh 135,174

d) Hureyriyyə:
Bunlar Rəvəndli Əbu Hureyrənin adamlarının təşkil etdiyi firqədir. Təbərinin ifadəsinə görə bunlar Əbu Muslimin fikrində olub, ruhların köçünə və Əbu Cəfər Mənsurun ilah olduğuna etiqad edən zümrə idi.
Abbasi xəlifəsi Əbu Cəfər əl Mənsurun sarayına gəlib və "bu Rəbbimizin sarayıdır" deyib onu təvaf edərdilər. Mənsur bunların iki yüz nəfərini həbs etmiş (H.141/M.758) və sonra onların haqqından gəlmişdi.
📚 H. Atay, eyni mənbə, səh 59; Taberi, 6/147, 149

Həsən İbrahim Həsən "İslam tarixi" kitabında (2/105) yazır:
"Bunlar Əbu Cəfərə sitayiş edib, onun inşa etdiyi qübbəyə çıxıb, özlərini oradan atdılar. Bir qismi xalqın arasına çıxıb, Əbu Cəfərə "sən, sən yəni, sən Allahsan" deyə qışqırırdılar.

Əbu Cəfər din və dövlət naminə bunlarla savaşdı və Əbu Muslim kimi onları siyasi düşmənləri sayırdı. Hər nə qədər Mənsur onları öldürmüş və təqib etmişsə də onların kökləri qurumamış, sonrakı üsyanlarda başqa adlarla ortaya çıxmışdılar."
Bağdadiyə görə bunlar insanların deyil, Allahın ruhunun köç etdiyinə (tənasüh) etiqad edirdilər.
📚" H.Atay, eyni mənbə, səh 59; "el-Fark", 163
Növbəxti və Qumminin ifadələrinə görə bunlar sırf Abbasilərin tərəfdarı (şiəsi) olub, imamətin Hz Peyğəmbərin əmisi Abbasın haqqı olduğuna inanırdılar.
Sələflərinin küfrə girdiyini söyləməkdən çəkinir, Əbu Muslimi dost bilib, onu ucaldardılar. Lakin, Abbas və soyu haqqında ifrata varırdılar.
📚 H.Atay, eyni mənbə, səh 60; Kummi 65, 196; Nevbahti 42

Növbəxti və Qummiyə görə xəlifə Mənsurdan sonra xilafətə keçən Muhəmməd Mehdinin (M.158-169) xilafəti zamanında Abbasilər artıq imamətin özlərinə Hz Əli soyundan deyil, ulu babaları peyğəmbər əmisi Abbasdan varis olması səbəbi ilə onlara keçdiyini iddia etməyə başladılar.
Bu nəzəriyyəyə görə imamət aşağıdakı silsilə ilə gəlmişdir:
1-Hz Abbas
2-Abdullah ibn Abbas
3-Əli ibn Abdullah
4-Muhəmməd ibn
5-İbrahim ibn Muhəmməd
6-Abdullah Əbulabbas ibn Muhəmməd (Səffah-İbrahimin qardaşı)
7-Abdullah Əbu Cəfər əl Mənsur (İbrahimin digər qardaşı)
8-Əbu Cəfər əl Mənsurun oğlu Muhəmməd Mehdi.
📚 H.Atay, eyni mənbə, səh 63

Hz Hüseynin oğlu Əli Zeynəlabidin (H. 94/M.712) vəfat etdikdən sonra imamət baradə onun tərəfdarları (şiələr) arasında iki ana firqə ortaya çıxmışdı:
A) Əli Zeynəlabidinin oğlu Muhəmməd Baqirə tabe olanlar - Baqiriyyə.
B) Digər oğlu Zeydə tabe olanlar - Zeydiyyə.

Zeydiyyə:

Zeydiyyə məzhəbinə görə imamlıq silsiləsi Zeydə qədər belə olmuşdur: Əli ibn Əbu Talib xəlifə olduğu zaman imam olmuşdu. Sonra Hz Hüseyn Yezidə beyət etməyib, üsyan edincə ölənə qədər o imam olmuşdur. Ondan sonra onun nəvəsi Zeyd imamlığa keçmişdir. Onlara görə Əli - Fatimə soyundan olub, qılınc çəkib, imamlığını elan edən kəs imam sayılır.
Hz Həsən və Zeynəlabidin qılınc çəkib, imamlıqlarını elan etmədiklərinə görə imam sayıla bilməzlər.
İmam Zeyd Hz Əli və Fatimə soyundan gələn, anası cariyə olan səlist, iti nitqi olan, cəsarətli bir gənc idi.
Əməvi xəlifəsi Hişam ibn Əbdulməlikin dövründə Zeyd ibn Əli nüfuzlu şəxs olduğundan xəlifənin casusları tərifindən izlənilirdi. Bununla belə ona toxunulmurdu. O, Hişamın sarayında olmuş və onunla söhbətlər etmişdi. Hişamın casusları onu getdiyi hər yerdə izləyirdilər. Bu arada şiələrin Zeydin yanına gedib-gəldiyi müşahidə olunurdu və onlar Zeydi üsyana təşviq edirdilər. Şiələr özlərinin Zeydə bağlı olduqlarına dair qətiyyətli sözlər verir,and içirdilər və sayılarının altmış minə yüksəldiyini bildirirdilər.

Buna baxmayaraq, Zeydin qohumları və xüsusən qardaşı Davud Zeydi xəbərdarlıq edir, babasına, əmisinə, Həsənə və Əli ibn Əbu Talibə necə sözlər verilib, sonra qaçdıqları ona xatırladırdı.
Buna cavab olaraq, Zeydi üsyana təşviq edənlər Davudu qısqanclıqda ittiham etdilər. Nəhayət, Zeyd hərəkətə keçməyə qərar verir və Kufəyə gedir.
📚 H.Atay, eyni mənbə, səh 65; Taberi, 5/488

O zaman İraqın valisi məşhur Həccacın əmisi oğlu Yusif ibn Ömər idi. Xəlifədən gələn təlimatlar və öz məlumatları əsasında Zeydi izləməyə başlayır amma, onu yaxalaya bilmir. Zeyd üsyana hazırlaşan ərəfədə İraq valisinin adamları Zeydin adamlarının arasına fitnə salır və üsyandan bir gün öncə tərəfdarlarına belə suallar ünvanlayır.
Şiələrdən bir dəstə ona belə dedilər:
— "Allah səni bağışlasın! Əbu Bəkr və Ömər haqqında fikrin nədir?"
— Zeyd dedi: "Allah hər ikisini bağışlasın və onlara rəhmət etsin. Ailəmdən kimsənin onlardan təbərri etdiyini və onlar haqqında pis söz dediyini eşitməmişəm."
— Şiələri dedilər: "O halda ailənin intiqamı yoxsa əldən çıxan səltənət üçün qiyam edirsən?"
— Zeyd: Dediyinizdən də ağır olanı sizə söyləyəcəm. İnsanlar içərsində Hz Peyğəmbərin (s.a.s) hökmranlıq haqqına biz daha çox layiqik. Onlar bizdən bunu aldılar və bizi tərk etdilər. Amma, onlar Quran və Sünnət ilə insanlar arasında ədalətlə hökm etdiyi müddətcə hökmün onların əlində qalması bizə görə küfr olmaz.
— Şiələr: "Bunlar sənə zülm etmədi və sənə zülm etməyən kimsələrlə savaşmanın mənası nədir?"
Zeyd: "Bunlar mənə, sizə və özlərinə də zülm edən kimsələrdir. Biz sizi Allahın kitabına, peyğəmbərin sünnətinə, sünnətlərin dirildirməsinə, bidətlərin qaldırılmasına çağırırıq. Dəvətimizə icabət etsəz xoşbəxt olarsız, imtina etsəz sizə qarşı öhdəliyim yoxdur."
Bundan sonra onlar Zeyddən ayrıldılar, beyəti pozdular və belə dedilər: "Halbuki, imam vardı, buna niyə gəldik?!
İmamız Zeydin indi həyatda olmayan qardaşı Muhəmməd Baqirin oğlu Cəfərdir. Atasından sonra imamlığa o layiqdir və o bizim imamımızdır, Zeyd isə imam deyil."
Buna görə Zeyd onlara "rafiza" (rədd edənlər) adını verdi...
Zeyd hələ hərəkətə keçməmişdən öncə şiələrdən bir qrup Cəfər ibn Muhəmmədin (imam Sadiq) yanına gedib, "Zeyd bizdən beyət alır, nə deyirsiz" dedikdə Cəfər onlara belə demişdi: "Gedin ona beyət edin. O, bizim ən yaxşımız, ən fəzilətlimiz və böyümüzdür."
Lakin, onlar bunu gizlədilər. Nəhayət, Zeyd yoldaşları ilə birlikdə (H.122/M.740) səfər ayının ilk çərşənbə günü üsyan etdi və üç gün sonra cümə günü öldürüldü. Beləliklə, onun üsyanı yatızdırıldı və o öldüyü zaman 43 yaşında idi.
📚 H.Atay, eyni mənbə, səh 67; Taberî, 5/498-499, 504-505; İbn Hallikan, 5/120, 122; Kummi, 7
Zeyddən sonra oğlu Yəhya ibn Zeyd təqibdən gizlənərək, Xorasana gedir və bir neçə məntəqə dəyişdikdən sonra hicri 115-ci ildə tərəfdarları ilə birgə orada öldürüldü. Təbəri onun qəfil hücum nəticəsində öldürüldüyünü qeyd etsə də digər alimlər onun üsyan nəticəsində öldürüldüyünü yazmışdılar.
📚 H.Atay,eyni mənbə səh 68; Mesudi, "Muruc ez Zeheb", 1/167; İbn Hallikan, "Şezerat", 5/123, 6/111
Qummi və Növbəxti Yəhyadan sonra imamətin qardaşı İsa ibn Zeydə, sonra da Muhəmməd ibn Abdullah ibn Həsən ibn Həsənə keçdiyini nəql edirlər.
📚 H.Atay, eyni mənbə, səh 68; el-Kummi 74; Nevbahti 51

Hicri 145-ci ildə Hz Həsənin soyundan olan Abdullahın oğlu Muhəmməd özünü gizli şəkildə imam elan etdikdən sonra qiyam qaldırdı. Onun qardaşı İbrahim də plana görə eyni zamanda Bəsrədə üsyan qaldırmalı idi. Lakin, işlər istədiyi kimi getməmiş, Muhəmməd Mədinədə iki ay, on yeddi gün müqavimət göstərəndən sonra öldürülmüşdü.
📚 H.Atay,eyni mənbə, səh 70; Taberî, 5/230
Bu Hz Əli soyundan gələnlərin Abbasilərə qarşı ilk üsyanı idi. Bu Muhəmməd çox dindar, hər kəs tərəfindən sevilən, elm, fəzilət sahibi və səxavətli olduğundan "Muhəmməd Nəfsuz-zəkiyyə" yəni, ruhu təmiz ləqəbi ilə tanınmışdır.
📚 H.Atay, eyni mənbə, səh 70; Eşari, "Makalat", 1/145; Hasan İbrahim Hasan 2/124-129
Muhəmməd digər qardaşı İdrisi Afrikaya göndərmişdi və gələcəkdə onun soyundan gələnlər Afrikada İdrisilər dövlətini quracaqdılar. Muhəmməd Nəfsuz-zəkiyyə öldüyündə 52 yaşında idi. İmam Malik Muhəmməd ibn Abdullaha Mədinədə yardım etmişdi.
📚 H.Atay, eyni mənbə, səh 70; "Şezerat", 1/213; Hasan İbrahim Hasan, 2/130

— Zeydiyyə firqələri:

Carudiyyə:
1) Bunlar Əbul Carudun tərəfdarları idilər ki, onlar Hz Peyğəmbərin (s.a.s) Əli ibn Əbu Talibin imamətini vəsfləri, nişanələri ilə işarə etdiyinə inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 77; Şehristani, 1/212; Bağdadı, "Fark", 30
Yəni, Peyğəmbər (s.a.s) Hz Əlinin adını xüsusi olaraq qeyd etməmiş, ona uyğun olan bəzi vəsfləri çatdırmışdır. Bir insana uyğun gələn xüsusiyyətlər başqa insanda da ola bilər.
İmam Muhəmməd Baqir, Əbul Carud Ziyad ibn Munziri dənizdə yaşayan canavar (şeytan) anlamında "Sərhub" adlandırmışdı. Çünki, o Hz.Əliyə beyət etməyən səhabələri kafir sayırdı.
Onlar Hz Əlidən sonra oğlu Həsən və sonra da Hüseynin imam olduğunu qəbul edirdilər.
Əbul Carudun rəvayyət etdiyi hədislər zəif olduğu üçün tərk edilmişdir.
📚 H.Atay, eyni mənbə, səh 78; "Fark"'ın haşiyesi, 30; İsferayani, "et-Tabsir",16

2) Hz Əlinin vəsiyyətlə imam olduğuna inananlar Hz Hüseyndən sonra imamətin bitdiyinə inanırdılar. Onlar Peyğəmbərin (s.a.s) Hz Əli, Həsən və Hüseynin adlarını birbaşa qeyd etməklə imam təyin edildiklərini iddia edirdilər.
Onlardan sonra isə hər hansı bir kimsənin imamlığını iddia etməzdilər.
📚 H.Atay,eyni mənbə, səh 78; "Fıraku'ş-Şia", 54

3) Muhəmməd ibn Abdullah ibn Həsən ibn Həsən ibn Əli ibn Əbu Talibin (Nəfsuz-zəkiyyə) ölmədiyinə, öldürülmədiyinə, geri dönəcəyinə inananlar. Bunlar onun Mehdi olduğunu və dünyanı ədalətlə dolduracağına inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 78; Bağdadi, "Fark", 31

4) Yaqubiyyə:
Yaqub adında birinə tabe olanların firqəsi olub, Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edirdilər. Ancaq onların xəlifəliyini qəbul etməyənlərdən uzaq olduqlarını deməz, rəcatı (ölülərin dünyaya geri dönəcəyini) inkar edər və bu inanca bağlı olanlardan uzaq durardılar.
📚 H.Atay, eyni mənbə səh 79;Eşari, "Makalat", 1/137, "Fark", 34

5) Naimiyyə:
Bu Naim ibn Yəmən adında birinin qurduğu firqədir. İmamətin Hz Əlinin haqqı olub, Peyğəmbərdən (s.a.s) sonra ən fəzilətli insanın o olduğunu iddia edirlər. Onlara görə ümmət

Əbu Bəkr və Ömər ilk xəlifə seçməklə günah deyil, sadəcə ən yaxşısını seçməməklə səhvə yol vermişdir.
Onlar Osman və Əli ibn Əbu Taliblə müharibə aparanlardan uzaq durar və onları küfrdə ittiham edərdilər.
📚 H.Atay, eyni mənbə, səh 79; Eşari, "Makalat", 1/137

6) Süleymaniyyə, Cəririyyə:
Bunlar Süleyman ibn Cəririn adamlarının qurduğu firqədir. İmamətin seçki yolu ilə, iki ən yaxşı, seçilmiş müsəlmanın seçməsi və beyəti ilə həyata keçməli olduğuna inanırdılar. Onlara görə daha fəzilətli kimsə varkən, daha az fəzilətli kimsənin imam seçilməsi caizdir. Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edərlər. Süleyman ibn Cərirdən nəql olunduğuna görə Əbu Bəkr və Ömərə beyət səhv olsa belə bu fasiqlik deyil. Sadəcə, ümmət daha üstün olanı tərk etmişdi. O, Osmanı tənqid edildiyi hadisələrə görə küfrdə ittiham edirdi.
📚 H.Atay, eyni mənbə, səh 79; Eşari, "Makalat",
1/135-136; İsferayini 17; Kummi 7
Süleyman ibn Cərir Harun ər Rəşidin müasiri olub, Zeydiyyənin kəlamçılarından sayılırdı. Bunlar Hz Aişə, Zubeyr və Təlhəni Əliyə qarşı olduqlarına görə təkfir edirdilər. Bunlar "bəda" və təqiyyəni qəbul etmirdilər.
📚 H.Atay, eyni mənbə, səh 79; Kummi 8, 141

7) Bətriyyə: (Zeydiyyə)
Bunlar Həsən ibn Salih ibn Həyyin adamlarının qurduğu firqədir. Şəhristani Bətriyyə və Salehiyyə firqələrinin Həsən ibn Həyyə nisbət olunan eyni firqələr olduğunu qeyd edir. Onlara görə Hz Peyğəmbərdən (s.a.s) sonra insanların ən fəzilətlisi və imamlığa ən layiq olan Hz Əli olmuşdur. Lakin, Əbu Bəkr və Ömərin imaməti də məqbul sayılır. Çünki, Əli ibn Əbu Talib imaməti onlara tərk etmiş və məcburiyyət olmadan onlara beyət etmişdi. Əşariyə görə Bətriyyə Hz Əlinin imamətini yalnız ona beyət edildiyi zaman məqbul hesab etmişdir.
📚 H.Atay, eyni mənbə, səh 82; Makalat 1/137
Bağdadi yazır: "Zeydiyyədən olan Süleymaniyyə və Bətriyyə Əbu Bəkr və Ömərı kafir saydıqlarına görə Carudiyyəni təkfir etdilər. Carudiyyə də Süleymaniyyə və Bətriyyəni ilk xəlifələri təkfir etmədiklərinə görə təkfir etdilər.
📚 H.Atay, eyni mənbə, səh 82;" Fark", 34, "Tabsir", 17
Şəhristaniyə görə Bətriyyə digər Zeydi firqələri kimi Hz Həsən və Hüseynin soyundan qılınc çəkən hər kəsi imam hesab edirdi. Eyni zamanda onlara görə iki imamda eyni şərtlər olarsa kimin daha fəzilətli və zahid olduğuna baxılar. Bunlarda da bərabərlik olarsa kimin daha sağlam fikirli və qətiyyətli olduğuna önəm verilər. Bunda da bərabərlik olarsa hər imam olduğu məkanda müstəqil imam olur və ona itaət fərz olur.
Şəhristani yazır: "Dövrümüzdə (imamlar) bunların çoxu təqlidçidir və ictihad etməzlər. Etiqadda Mötəziləni hərfiyyən təqlid edib, onların imamlarını şiə imamlarından daha üstün tuturlar. Fiqhdə Əbu Hənifə, bəzi məsələlərdə isə Şafii məzhəbinə tabe olurlar.
📚 H.Atay, eyni mənbə, səh 82; Şehristani, "el-Milel", 1/217-218

— Baqiriyyə və qolları:

a) İmamətin Əlidən Həsənə, ondan Hüseynə, sonra oğlu Əli Zeynəlabidinə, ondan da oğlu Muhəmməd Baqirə verildiyinə inananlar imam Baqirin ölümünə qədər ona bağlı qaldılar. Çox az kimsə sağlığında ondan ayrıldı. Bunlar da Ömər ibn Rəyaha tabe olanlar idi.

📚 H.Atay, eyni mənbə, səh 89; Kummi 75; Nevbahti 52; "el-Fark", 38
Muhəmməd Baqirin imamlığını qəbul edənlərin bir qismi onun ölümündən sonra Hz Həsənin soyundan gələn Muhəmməd ibn Abdullahın (Nəfsuz-zəkiyyə) imam olduğunu, onun ölmədiyini, Mehdi olaraq geri gələcəyinə etiqad etdilər. Onun qardaşı İbrahim də onun imamətinə insanları dəvət edirdi. Bəsrədə üsyan edəndə Əbu Cəfər Mənsurun ordusu tərəfindən öldürülmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 90; Kummi 76; Nevbahti 54

b) Muğiriyyə: (Muhəmmədiyyə)
Bunlar imam Zeynəlabidin və oğlu Muhəmməd Baqirin ayrı-ayrılıqda Muğirə ibn Səidi imam olaraq vəsiyyət etdiklərini iddia etdilər.
Muğirə İraq valisi olmuş Xalid ibn Abdullah əl Kəsrinin köləsi idi. İfrata varıb, öz peyğəmbərliyini bəyan edib və bunu da Xalidin yanında etiraf edincə, Xalid onu öldürmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 90; Kummi 77; Nevbahti 55
Muhəmməd Baqirin adamları onu rədd etmişdilər və o da onları "rafizi" (rədd edənlər) adlandırmışdı. Muğiranın adamları onun ölüləri diriltdiyinə inanır və ruhların köçünə etiqad edirdilər. Növbəxtinin ifadəsinə görə onun zamanında yəni, hicri 300-cü illərdə onlar mövcud idilər.
İmam Əşari Muğira haqqında ətraflı məlumat vermişdir. O, Hz Əlinin soyunu istismar edən saxtakar və sehrbaz biri idi....Muğiranın adamları Muhəmməd Nəfsuz-zəkiyyənin ölümündən sonra onun xalq arasında olan yüksək nüfuzu və hörmətini istismar edərək, onun Mehdi olduğunu iddia etdikləri güman edilir. Muğiranın Allahı cisim olaraq qəbul etdiyi söylənilirdi.
İmam Əşari və digər firqə yazarları onun haqqında belə yazırlar:
"Allahın uca adını istifadə etməz, məbudlarını başı taclı nurdan bir adam kimi vəsf edər, insanın cisimləri olduğu kimi onun da üzvləri olduğunu iddia edərdilər."
📚 H.Atay, eyni mənbə, səh 90;Taberi 5/456; Eşari, "Makalat", 1/68; el-Kummi 77; "el-Fark", 37
Muhəmməd Nəfsuz-zəkiyyə Mədinədə üsyan edib, məğlub olub, öldürülüncə Muğriyyə mənsubları ikiyə ayrıldı. Mehdi necə öldürülə bilər, o Mehdi olsaydı ölməzdi deyənlər Muğridən ayrıldılar. Digərləri də şeytan Nəfsuz-zəkiyyənin şəklinə girmiş və o öldürülmüşdür deyərək o firqədə qaldılar.
📚 H.Atay, eyni mənbə, səh 91; Eşari 1/73; "et-Tabsir", 73; "el-Fark" 48

— Cəfəriyyə və qolları:

Əbu Cəfər Muhəmməd Baqirin ölümündən (H.114/M.732) sonra tərəfdarlarının bir qismi oğlu Əbu Abdullah Cəfərin imamətini qəbul edib, az kimsə xaric həyatı boyunca onun imamətinə bağlı qaldılar.
Ancaq imam Cəfər oğlu İsmailin imam olmasını vəsiyyət edib və İsmail də atasının sağlığında vəfat edincə Cəfərin imamətini inkar edənlər peyda oldu.
Onlar dedilər ki, əgər o imam olsaydı yalan deməzdi və olmayacaq şeyləri olacaq kimi xəbər verməzdi. Bunlar Cəfərin "Allah fikrini dəyişdirdi" (bəda) sözünü söylədiyini dedilər və bu səfər də bunu inkar edib, bu şey caiz deyil deyərək, Bətriyyə və Süleymaniyyə məzhəbinə keçdilər.
📚 H.Atay, eyni səh 92; el-Kummi 78; Nevbahti 55
İmam Əbu Abdullah Cəfəri Sadiq vəfat etdikdə (H.148/M.765) tərəfdarları altı firqəyə ayrılmışdılar:

A)Navusiyyə:
Bunlara görə Cəfəri Sadiq diridir, ölməyib və ölə bilməz. O, insanların başına keçəcək olan gözlənilən Mehdidir. Həmçinin, onun belə dediyini deyərlər: "Başımın kəsildiyini görsəniz belə inanmayın. Mən sizin sahibiniz və qılınc sahibiyəm."
Bu fikirlərin başında dayanan Əclan ibn Navus adında biri idi. Səbəiyyədən bəziləri ona qoşulmuşdular. Cəfəri Sadiqin dinin əqli və şəri bütün elmlərini bildiyini iddia edirdilər.
📚 H. Atay, eyni mənbə, səh 92; el-Kummi 79-80; Nevbahti 57; Eşari, "Makalat", 1/97; "el-Fark", 61

B)İsmailiyyə:
Tarixdə önəmli iz qoymuş İsmailiyyə firqəsi ümumi olaraq şiəliyə bağlı bir təriqət olsa da içində şiəlik xaricində başqa dinlərdən alınma bir çox təlimlər də daşıyırdı.
İsmaililər eyni zamanda Batiniyyə (Batini), Mübarəkiyyə (Mübarəki), Qərməti (Qaramita), Meymuniyyə və Məzdəkiyyə kimi adlarla da anılırdı. Bu firqənin adı Cəfəri Sadiqin böyük oğlu İsmail ibn Cəfərlə bağlıdır.
Şiələrdən bir dəstə İsmailin ölmədiyini, onun atasından sonra yeddinci, son imam və Mehdi olduğunu, gəlib dünyanı idarə edəcəyinə inanırdılar.
Onun Bəsrə şəhərində görüldüyü, Hz İsa kimi ifliç və kor insanları sağaltdığı əfsanəsi yayılmışdı.
Bir dəstə də İsmailin atasından öncə öldüyünə, ona görə də yeddinci və son imamətin İsmailin oğlu Muhəmməd ibn İsmailə keçdiyinə inanırdılar.
İsmailiyyənin bu firqəsinə əvvəllər Mubarəkiyyə, sonra da Qarmətilər deyilirdi.
Ön iki imami şiələrə görə yeddinci imamət 765-cı ildə ölən Cəfərdən sonra kiçik oğlu Musa əl Kazıma keçmişdi.
İsmailiyyə şiə kimi görünsə də əslində İslam xaricində gizli inanc və təlimləri olan ezoterik bir təriqət idi. Onlar bu vəsflərinə görə Xürrəmi və Batinilər olaraq da adlandırılırdılar.
İlk öncə batini vəsfləri daşımayan İsmaili təriqəti Cəfər əs Sadiqin vəfatından sonra xüsusilə, atasının sağlığında ölən İsmailin oğlu Muhəmmədin imam olaraq qəbul edilməsi ilə batini vəsflərə büründülər.
İsmailiyyə təriqəti İsmailin, sonra oğlu Muhəmmədin xidmətçisi olmuş xoliqrafi ustası Mübarəkin (Qərmət) və onun yoldaşı olmuş bacarıqlı sehrbaz Abdullah ibn Meymun əl Qəddahın (öl.871) dövründə güclü idilər.
Bu dövrdən başlayaraq İsmailiyyə firqəsi müəmma dolu, gizli, batini bir forma almağa başladı.
İsmailiyyədə batinilik təlimi çox güman ki, Qəddahın zamanında yayılmağa başladı. O, İslami və qeyri dini gizli elmləri peyğəmbərdən aldığını iddia edirdi. Qəddah və atası şərqi xristian qnostik təriqəti olan, üçüncü əsrin əvvəllərində süryani Bar Daysan tərəfindən qurulmuş dualist mahiyyətli Deysaniyyə təriqətinə bağlı idilər.
Daha sonra Qəddah və onun tələbəsi olmuş Mübarək (Qərmət) bu ezoterik, batini təlimləri yaydılar. Ona görə ismaili vəya batinilərə eyni zamanda Mübarəkilər və Meymunilər də deyilirdi.
Kufədə hicri üçüncü əsrin ortalarında ortaya çıxan Həmdan Qərmətin başçılıq etdiyi ismaililərin bir qolu olan Qərmətilər Meymuni və Mübarəkilərin bir növ davamı sayılırdılar.
  Həmdan Qərmət Kufəli bir kəndçi idi və deyilənə görə gözləri çox qırmızı olduğu üçün ona Arami dilində qırmızı göz mənasına gələn "Qərmitah" deyilirdi. Digər bir rəyə görə Qərmət adı Muhəmməd ibn İsmailin xidmətçisi olmuş Mübarəkin ləqəbi Qərmətdən gəlirdi. Onlar yeddi imama və son imamın da Muhəmməd ibn İsmail (Cəfər Sadiqin nəvəsi) olduğuna inanırdılar.

İsmaililərə görə İsmail Abbasi xəlifələrindən qorxduğu üçün gizlənərək, şəhərdən şəhərə dolaşmış və 158-ci ildə öldüyü zaman oğlu Muhəmməd 26 yaşında imam olmuşdu.
Onların inanclarında İslami, yəhudi, xristian təlimlərinin elementləri olsa da inancları özündə əsasən ezoterik, batini, gizli, sirrli elmləri əhatə edirdi.
İsmaililər sonrakı əsrlərdə öz təsirlərini gedərək artırdılar. Misal olaraq, əvvəllər on iki imami şiəsi olmuş, daha sonra batini təlimləri mənimsəmiş Həsən Sabbahın miladi 11-ci əsrin sonlarında İranda qurduğu və mərkəzi Alamut qalası olan İsmaililərin bir qolu sayılan Xaşxaşilər adı ilə tanınan "yeni dəvət" (davəti cədidə) adlı təriqət (1090-1256) həm dini, həm də siyasi mənada tarixdə önəmli iz buraxmışdı.
İsmailiyyə uzun illər siyasi, iqtisadi və dini səbəblərə görə orta Asiyadan tutmuş şimali Afrikaya qədər olan bütün bölgələrdə Abbasilərə qarşı döyüşdülər. Onlar inanclarını "dai" deyilən missionerləri vasitəsilə insanlar arasında gizli və israrlı şəkildə yayırdılar. Qəddah (Meymun) bir peyğəmbər kimi İsmaili təbliğatı aparırdı. Cəsusları və quşları vasitəsilə uzaq yerlərdən xəbərlər alırdı.
Mübarək Kufədə, Qəddah isə Kuhistan (Əfqanıstan) və İraqda, xüsusilə şiələr arasında təbliğat aparırdı. Batini təlimləri Təbəristan, Rey, Nişapur, İsfəhan, Qum, Kəşan, Herat kimi bölgələrdə, daha sonra Mərv, Mavərenəhr, Buxara, Səmərqənddə yayıldı və oralarda təsirli oldu.
Batinilik eyni zamanda Azərbaycan, Bəhreyn, Məkkə, Suriya və şimali Afrika ərazisində də yayılma imkanı əldə etdi.
Batini təlimləri xüsusilə, şiələr və rafizilər arasında daha çox yayılmışdı.
İsmailiyyə-şiə təlimlərinə yəhudi, xristian, zərdüştilik, maniheizm, məzdəkilik və materializm kimi ideologiyaların inancları qarışmışdı. İsmaililər yeddi imama inanır və son imamın da Muhəmməd ibn İsmail olduğuna etiqad edirdilər.
Onlara görə imamlar: Əli ibn Əbu Talib (eyni zamanda peyğəmbər olaraq da qəbul edilirdi), Həsən ibn Əli, Hüseyn ibn Əli, Əli ibn Hüseyn (Zeynəlabidin), Muhəmməd ibn Əli (Baqir), Cəfər ibn Muhəmməd (Cəfəri Sadiq), Muhəmməd ibn İsmail idi. Həmçinin, onlar yeddi əsas peyğəmbər olduğuna etiqad edirdilər. Bunlar: Hz Nuh, Hz İbrahim, Hz Musa, Hz İsa, Hz Muhəmməd, Hz Əli ibn Əbu Talib, Muhəmməd ibn İsmail idi.
Muhəmməd ibn İsmailin ölmədiyinə, onun Rum torpağında yaşadığına və Mehdi olduğuna inanırdılar.
Bu təriqətin Batiniyyə adlandırılmasının səbəbi o idi ki, onlara görə şəriətin bir xarici (zahir), bir də daxili, iç (batini) tərəfi vəya mənası vardır.
Lakin, bunlardan ən önəmli olanı
daxili (batini) tərəfdir. Ona görə də haram və qadağan olan bir çox hökmlər onlara görə əslində haram sayılmırdı.
İmamətin atadan oğula keçəcəyinə və imamətin də əzəldən var olduğuna inanırdılar. Onlara görə Muhəmməd ibn İsmailə qədər imamlar görünürdü və zahirdə idilər. Lakin, İsmaildən sonra imamlar aşkarda olmamağa və görünməməyə başladılar.
İslamiyyətdən öncə də imamlar görünmürdü və Hz Əli ilə birlikdə görünməyə başlamışdılar.
İsmaililər Allahın ancaq imamlar vasitəsilə dərk oluna biləcəyinə və Ona yetişə biləcəklərinə inanırdılar.
Allahın Adəmin cənnətini Muhəmməd ibn İsmailə verdiyinə, cənnətdə toxunulmaması zəruri olan ağacın Muhəmməd ibn İsmail və oğulları mənasına gəldiyinə inanırdılar.
Onlara görə Muhəmməd ibn İsmail peyğəmbərlərin möhürü idi. Dünyanın on iki adadan ibarət olduğuna, hər adada bir şahid və hər bir şahidin də bir təmsilçisi olduğuna, hər bir təmsilçinin də əməli saleh bir adamın yardımçısı olduğuna inanırdılar. Şahidə ata, təmsilçiyə ana, yardımçıya da oğul deyirdilər. Ata - ilah, oğul - İsa, və ana da - Məryəm idi. Onlara görə

ən böyük şahid Allahdır. İsmailiyyədə yeddi rəqəmi çox böyük əhəmiyyət daşıyırdı. Onlar yeddi imama, yeddi göyə, yeddi kainata, yeddi qat yer üzünə və insanın yeddi hissədən ibarət olduğuna inanırdılar. Bunlar onların inanclarının təməlini təşkil edirdi və onlara görə yeddi mərhələ vardır.
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 73-75; Maqdisi, 61; Mesudi,6, 187-188; Nizamulmulk, "Siyasetnâme", 213-238; İbn Nadim, 1, 462-492; Bağdadi, II, 107-157; Şehristani, 163-170; İbnul Esir, VII, 372-375; Tabari, 37, 169-175; Nevbahti, 123-124

C) Şamıtiyyə:
Bunlar Yəhya ibn Şamitin fikirlərini mənimsəyib, onun yolu ilə gedənlərdir.
Onlar imamətin nass ilə Cəfəri Sadiqdən oğlu Muhəmmədə keçdiyinə inanır və imam Cəfərin öldüyünü qəbul edirdilər. İmamətin Muhəmmədin oğullarına məxsus olduğuna etiqad edirdilər.
📚H.Atay, eyni mənbə, səh 95; el-Kummi 86-87; Nevbahti 64; Eşari 54; Şehristani, 2/3

D) Əftahiyyə: (Futhiyyə)
Cəfəri Sadiqin şiələrindən bir qismi imamətin vəfatından sonra böyük oğlu olmuş Abdullaha aid olduğuna inanırdılar.
Bu firqənin başçısı Əmmar ibn Musa Səbati olduğuna görə bunlara Əmmariyyə deyilmişdir. Həmçinin, Abdullahın atası düzdaban olduğu üçün (ərəbcə - Əftah) ona isnad edilən məzhəbə Əftahiyyə adı verilmişdir.
📚H.Atay, eyni mənbə, səh 95; el-Kummi 87; Nevbahti, 65; Eşari, 1/98; "el-Fark", 62

— Musaviyyə və qolları:

Bunlar Cəfəri Sadiqin oğlu Musanın imam olduğunu qəbul edənlərdir. Onlar Abdullahın imamətini inkar edib, onun yanlış davrandığını iddia etdilər. İmam Sadiqin oğlu Abdullah vəfat etdiyi zaman onun imamətini qəbul edənlərin əksəriyyəti Musanın vilayətinə döndülər. Abdullah atasından 70 gün sonra vəfat etmişdi.
📚H.Atay, eyni mənbə, səh 95; Kummi, 88-89

Musa ibn Cəfər (Museyyi Kazım) ikinci
dəfə xəlifə Harun ər Rəşid tərəfindən həbs edildiyi və vəfat etdiyi zaman (H.128/M.765) ona tabe olan şiələr beş firqəyə ayrıldılar:

a) Qatiyyə:
Bunlara görə Museyyi Kazım həbsdə zəhərlənərək ölmüş və yerinə oğlu Əli ər Rza keçmişdi. Bu firqə Musa əl Kazımın öldüyünə qəti olaraq inandığı üçün bunlara Qatiyyə deyilmişdir. Musa ölmədən öncə oğlu Əlini vəsiyyət etmişdi. Bağdadi Qatiyyəni oniki imami şiələrdən hesab etmirdi.
📚H.Atay, eyni mənbə, səh 96; Kummi, 89

b) Musa əl Kazımın ölmədiyinə inananlar:
Bunlara görə Musa əl Kazım ölməmiş, diri olub, şərqə və qərbə hökm edəcək, dünyanı ədalətlə dolduracaq və gözlənilən Mehdi də odur.
Həbsdən öldürülməkdən qorxduğu üçün qaçmışdı. Xəlifə və dövlət adamları insanları aldatmaq üçün onun öldüyünü elan etmişdilər.

Həbsdə ölən bir adamı onun yerinə təqdim etmiş və belə bir görüntü yaratmışdılar.
Bu baradə imam Cəfərdən bəzi hekayələr nəql etmişlər ki, o demişdir:
"Gözlənilən Mehdi budur. Kəsilmiş başının dağdan yuvarlandığını görsəz belə inanmayın."
📚H.Atay, eyni mənbə, səh 96; Kummi 89

c) Musa ibn Cəfərin Mehdi olaraq gələcəyinə inananlar:
Bunlara görə Musa gözlənilən Mehdidir.
O, vəfat etmiş amma, nə oğlu nədə başqası onun yerinə keçə bilməz və o geri qayıdıb, yenidən imam olacaqdır. Öldükdən sonra yenidən dirilib və hal hazırda gizlənməkdədir.
Bəziləri də onun bir yerdə olmayıb, davamlı şəkildə hərəkətdə olduğunu iddia edirdilər.
📚H.Atay, eyni mənbə, səh 96; Kummi 90

d) Vaqifiyyə:
Bunlara görə Musa əl Kazım vəfat etmişdir. Onun haqqında atasının belə dediyini rəvayyət edirlər: "Bu oğlumda Məryəm oğlu İsanın sünnəti vardır."
Axır zamanda qayıdıb, dünyanı ədalətlə dolduracaqdır. Başqalarının dediyi kimi hələki deyil, axır zamanda gələcəkdir.
Bunların bir qismi onun öldürülməmiş olub, ancaq öz əcəli ilə öldüyünə, Allahın onu göyə qaldırdığına, axır zamanda geri dönəcəyinə inanırdılar.
Digər bir qismi də oğlu Əli Rza və soyundan heç bir kimsənin onun yerinə imam deyil, yalnız xəlifə olaraq keçə biləcəyinə inanırdılar.
Vaqifiyyənin meydana gəlişi səbəbi olaraq bu hadisə göstərilir:
Museyyi Kazım vəfat etdiyi zaman Həyyan Sarac ilə bir kimsə Musanın vəkilləri idilər və onların yanında çoxlu mal, para mövcud idi.
Bunlar Musanın varislərinə mirası verməmək üçün onun ölmədiyini iddia etdilər və imam Cəfərdən öz xeyirlərinə dair bəzi rəvayyətlər nəql etdilər. Hər kəsin onlara itaət etməli olduqlarını söylədilər. Bunlara Museyyi Kazımın üzərində dayandıqları üçün "Vaqifiyyə" deyildi.
Həmçinin, bir qrup da Museyyi Kazım haqqında deyilən rəvayyətlərə görə onun ölü yoxsa diri olduğuna hökm edə bilmədikləri üçün şübhə içində qaldıqlarını bildirdilər və bunlar da Vaqifiyyə adlandırıldılar. Qəti hökm verə bilmədikləri üçün də imamlığı başqasına həvalə etmədilər və dedilər ki, əgər Musa imaməti Əli Rzaya həvalə etsəydi ona itaət edərdilər.
📚 H.Atay, eyni mənbə, səh 96; Kummi 90-91

e) Məmturə:
Bunlar Kufəli Əsəd oğullarının köləsi olmuş Muhəmməd ibn Bəşirin adamlarının təşkil etdiyi firqədir. Onlar Museyyi Kazımın həbs edilib, ölmədiyini, qeybə çəkilib, gizləndiyini və gözlənilən Mehdi olduğuna inanırdılar.
Onlara görə Musadan sonra gizləndiyi əsnada Muhəmməd ibn Bəşir imam olmalıdır. O, öləndə oğlu Sanuə-ni vəsiyyət etmişdi. Museyyi Kazım zühur edənə qədər onun və oğlunun vəsiyyət etdiyi imam olmalıdır.
Onlara görə insanların Allaha yaxınlaşmaq üçün etdiklərini Muhəmməd ibn Bəşirin vəsiləri üçün etmələri zəruridir.
Bunlar Museyyi Kazımın soyu və oğlu Əli ər Rzanın soyundan gələnlərin imamlıq iddialarını inkar etdilər. Onların yalançı, batil və hətta, qeyri qanuni doğulduqlarını iddia etdilər. Onları imamlıq iddialarına görə təkfir etdikləri kimi onların imamətini qəbul edənləri də təkfir etdilər, canlarının və mallarının da halal olduğunu söylədilər.

Gündə beş vaxt namazı, Ramazan ayında oruc tutmanın fərz olduğunu qəbul edib, zəkat, həcc və digər fərzləri inkar etdilər.
Onlar məhrəmlərin və kişilərin mübah olduğunu iddia edib, ruhların köçünə inanırdılar. İmamların bir olub, ruhlarının bədəndən bədənə keçdiyini iddia edirdilər. Allah yolunda verilən hər şey Sanuənin haqqıdır.
Bunlar müfrid qulatdan olub, "islanmış" mənasına gələn "Məmturə" adı ilə adlandırılmışlar. Bu sözlə onların iylənmiş leş olduqları qəsd olunurdu. Bugün (H.300) onlar bu adla tanınırlar. Bir kimsəyə islanmış adam (rəcul məmtur) deyiləndə Museyyi Kazıma imamlığı verməyib, onda dayananlar nəzərdə tutulur.
📚H.Atay, eyni mənbə, səh 98; Kummi 91-92

— Əli ibn Musa (ər Rza) vəfat edəndə (H.151-203) tərəfdarları bir neçə firqəyə ayrıldılar:

1- Bu firqəyə görə Əli ər Rzadan sonra imam yalnız onun oğlu Muhəmməddir.
Bu imam xəlifə Məmunun qızı ilə evlənmişdi. İsnaəşəriyyənin (on iki imami) doqquzuncu imamı olub, Mədinədə doğulmuşdu. Daha sonra Bağdada gəldi, atası öləndə xəlifə Məmun onu yanına aldı, böyütdü və qızı Ummul Fədl ilə evləndirdi.
Mədinəyə gedib, təkrar Bağdada gəlmiş və orada vəfat edincə zövcəsi onun əmisi xəlifə Mutəsimin sarayına geri alınmışdı. Muhəmməd hicri 195-ci ildə doğulub, 220-ci ildə Bağdadda vəfat etmişdi.
📚H.Atay, səh 98; Kummi, not.93, 240

2—Museyyi Kazımın oğlu Əhmədin imamətinə inananlar:
Bunlar Əftahiyyə kimi imamətin qardaşdan qardaşa keçəcəyinə inanırdılar.
Əhməd Mədinədən çıxıb, Xorasandakı qardaşı Əli ər Rzanın yanına gedərkən, yolda Şirazda qardaşının ölümünü eşitmiş olan vali onun yoluna davam etməsinə mane olmuş və o orada bu əsnada vəfat etmişdi.
📚H.Atay, eyni mənbə, səh 98; Kummi, not. 94, 241

3—Muəllifə:
Əvvəllər Museyyi Kazımın ölmədiyinə, daha sonra öldüyünə inanmış və oğlu Əli ər Rzaya bağlanmışdılar. Əli vəfat edəndə isə təkrar Museyyi Kazım üzərində dayanmışdılar.
📚H.Atay, eyni mənbə, səh 98; Kummi 94

4—Zeydiyyənin bir qisim mənsubları xəlifə Məmun tərəfindən Əli ər Rza vəliəhd təyin olunduğu zaman dünya malı qarşılığında onun imamətini qəbul etmişdilər. Lakin, o vəfat etdikdən sonra yenidən Zeydiyyə məzhəbinə döndülər.
📚H.Atay, eyni mənbə, səh 98;
Kummi 94

Qummi yazır: "Museyyi Kazımın oğlu Əli ər Rza vəfat etdiyi zaman onun oğlu Muhəmmədin yeddi yaşı var idi. Bəziləri yetkinlik yaşına çatmamış birinin böyüklərə əmr verməsi və yasaqlar qoymasının doğru olmayacağını, onun şəriət əhkamlarının incə və dərin məsələlərini anlamayacağını, bunun alışılmamış və mənasız olduğunu iddia etmişdilər. Digər bir qrup Muhəmmədin kiçik yaşda imam olması ona itaəti o anda vacib etməz. Lakin, böyüdüyü zaman ona itaət etmək vacib olar dedilər. Necə ki, bir zamanlar Hz İsa beşikdə olarkən danışmış, namaz və zəkat verməklə mükəlləf olduğunu demişdi.

Muhəmməd ibn Əlinin imamlığını qəbul edənlər kiçik yaşda uşağın elmi necə, hansı şəkildə əxz etməsi baradə ixtilaf etmişdilər:

a) Bir qisim heç kəsin deyil, yalnız atasının ona elmi öyrətdiyini iddia etdi.
b) Başqa qisim bunu qəbul etmədilər.
Çünki, atası Xorasana gedən zaman Muhəmmədin dörd yaşı vardı. Allah ona yalnız yetkinlik yaşına çatan zaman elm öyrənmə yolları; ilham, qəlbdə yaranan incəlik, qulağa səs, röya, danışan mələk və s. ilə elm öyrətmişdir.

c) Başqa bir qismə görə yetkinlik yaşına çatana qədər ona imam olaraq itaət etmək vacib deyil, zəruri olan sadəcə imamlığını etiraf etməkdir. Böyüyəndən sonra din və dünya işlərində nə lazımdırsa onu öyrənir. Amma, bu sıradan bir insanın öyrənmə yolu ilə ola bilər. Çünkü, Hz Peyğəmbərdən sonra vəhyin bütün çeşidlərinin kəsildiyinə dair ümmətin icması vardır.

d) Digər bir qrupa görə isə imam nə qədər kiçik uşaq olursa olsun o yetkinlik yaşına çatmamış sayıla bilməz. O, uşaq olsa da (b fəslində olduğu kimi) möcüzəvi şəkildə elm öyrənə bilər.
📚H.Atay, eyni mənbə, səh 99,100; Kummi 95-98, 243

Muhəmməd ibn Əli (Muhəmməd Cavad) hicri 195-ci ildə doğulmuşdu. Xəlifə Mutəsim hicri 220-ci ildə onu Bağdada gətirdi və eyni ildə o orada vəfat etdi. Bağdadda Museyyi Kazımın yanında dəfn olundu və vəfat etdiyi zaman 25 yaşı vardı, (şiələrə görə) imamlığı 17 il davam etmişdi.
O, vəfat etdikdən sonra aşağıdakı firqələr ortaya çıxdı:

a) Əksəriyyət Əli ibn Muhəmmədin, bir qismi isə qardaşı Musanın imamlığını qəbul etdi. Musa onları yalanlayıb, onlardan uzaqlaşınca, onlar yenidən Əli ibn Muhəmmədin imamlığına döndülər.
Xəlifə Mutəvəkkil onu Mədinədən hicri 233-cu ildə Samarra şəhərinə gətirmiş və 40 yaşında hicri 254-cü ildə orada vəfat etmişdi. İmamlığı 33 il davam etmişdi.
📚H.Atay, eyni mənbə, səh 100;Kummi 99-100

b) Əli ibn Muhəmmədin imamətini qəbul edənlərdən bir qrup Numeyri - Muhəmməd ibn Nuseyr adında birinin peyğəmbərliyini iddia etdilər. O, Əli ibn Muhəmməd əl Əskəri'nin onu peyğəmbər olaraq göndərdiyini iddia edir, ruhların köç etməsinə və Hz Əlinin ilah olmasını söyləyirdi.
Məhrəmlərin mübah olduğunu, kişilərin bir-biri ilə yaxınlıq etməsini halal görər və bunun bir təvazökarlıq əlaməti olduğunu iddia edərdi. O, Muhəmməd əl Əskəri'nin tərəfdarı (şiəsi) olub, quluva sapmışdı.
📚H. Atay, səh 101; el-Kummi, 100, 248
Bunlara Nuseyri də deyilir. Onlar Allahın bəzən Əlinin görkəminə girdiyini iddia edir, Hz Əlidə ilahi bir hissə, rəbbani bir qüvvət olduğunu söyləyir, onun göylərin və yerin yaradılmasından öncə mövcud olduğuna inanırdılar.
📚H.Atay, eyni mənbə, səh 101; Kummi 101

—Əli ibn Muhəmməd (213-254) vəfat edəndə tərəfdarları bu firqələrə ayrıldılar:

a) Bu firqə Muhəmməd ibn Əlinin imamətini qəbul etdi. Halbuki, Muhəmməd atasının sağlığında vəfat etmişdi. Amma, bunlar onun ölmədiyini, qeybə çəkildiyini və gözlənilən Mehdi olduğunu iddia etdilər.
b) Digər firqə Həsən ibn Əlinin imamətini qəbul etdi. Az bir qisim də Cəfər ibn Əlini imam elan etdilər.
📚H.Atay, eyni mənbə, səh 101; Kummi 101

—Həsən əl Əskəri'nin vəfatından sonra şiə firqələri:

Həsən ibn Əli hicri 232-ci ildə doğulub, 260-cı ildə Samarrada 28 yaşında vəfat etmişdi. Beş il imamlıq etdi, bir oğlunun olduğu bilinmirdi. Mirasını anası (Əsfan) və qardaşı Cəfər bölüşdürdü.
📚H.Atay, eyni mənbə, səh 102; Kummi 102
Həsən ibn Əlinin tərəfdarları Qummiyə görə 15, Növbəxtiyə görə 14 firqəyə ayrıldılar:

1 - İmamiyyə:
Bunlara görə Həsən ibn Əli Əskəri'nin vəfatından sonra Allahın yer üzündə qullarına qarşı bir hüccəti, xəlifəsi və onun işlərini yerinə yetirən Həsən əl Əskəri'nin soyundan gələcək birinin imam olması zəruridir. Bu şəxs insanların dünya və dini sahədə möhtac olduğu şeyləri bilir. O, atasının xələfi, vəsisi və onun yerinə keçən Mehdidir.
Qiyamət gününə qədər imamın olması zəruridir. İmamət Hz Həsən və Hz Hüseyndən başqa qardaşdan qardaşa keçməz. Kainatın dağılmasına, Allahın əmri və yasağının qalxmasına qədər imamlar Həsən əl Əskəri'nin soyundan gələcəkdir.
Atasının sağlığında ölən kimsə imam ola bilməz və imamət onun soyuna keçə bilməz. Bu doğru olsaydı İsmaili məzhəbi haqq olar və İsmailin oğlu Muhəmməd imam olurdu. Beləcə İsmaili olan Mubarəkiyyə və Qaramita məzhəbləri haqq olardı.
Yer üzü imamsız qala bilməz. Əks təqdirdə yer üzü və üzərində olanlar pərişan olar və çamura batardı. Biz (müəllif) Həsən əl Əskəri'nin imamətinə bağlıyıq, onun öldüyünə və soyundan bir xələfin olduğuna inanır və buna din olaraq qəti iman gətiririk.
Onun xələfi olan imam (H.300-cu il) hal hazırda qorxu səbəbi ilə gizlənmiş, ortalıqda görsənməyib, bu şəkildə qalmaqla əmr olunmuşdur. Uca Allah ona zühur əmri verənə qədər o belə qalacaqdır....İmamları və hüccətləri ancaq Allah seçir, təyin edir və O gizlədər.
📚H.Atay, eyni mənbə, səh 103; Kummi 102-104

İmamilərə görə Həsən əl Əskəri'nin hicri 255-ci ildə Muhəmməd adında bir oğlu olmuşdu. Atası vəfat edəndə onun beş yaşı vardı.
Bu şəxs imamiyyə (isnaəşəriyyə) məzhəbinin son imamı qəbul edildi. Muhəmməd Samarra şəhərində anasının gözü önündə mağaraya girmiş
və bir daha geri qayıtmamışdı.
Ondan sonra tərəfdarları onun izinə rast gələ bilmədilər...
İmamiyyə bu Muhəmmədi Mehdi olaraq qəbul edir və hal-hazırda onun zühurunu gözləyir.
📚H.Atay, eyni mənbə, səh 103

2—Həsən əl Əskəri'nin ölmədiyinə inananlar:
Bunlar Həsən əl Əskəri'nin ölmədiyinə, qeybə çəkilib, zamanını gözlədiyinə inanırlar. Yerinə varis olmadan bir imamın ölməsi caiz deyil. Çünki, yer üzü imamsız ola bilməz.
📚H.Atay, eyni mənbə, səh 104; Kummi 106

3—Həsən əl Əskəri'nin Qaim olduğuna inananlar:
Bu firqə Həsən əl Əskəri'nin öldüyünə amma, sonra dirilib yaşadığına və onun gözlənilən Mehdi olduğuna inanır.

4—Həsən əl Əskəri'nin öldüyünə inananlar:
Bu firqəyə görə Həsən əl Əskəri'nin ölməsi doğrudur, bunda şübhə yoxdur. Necəki, onun bütün atalarının ölməsinə şübhə edən olmamışdı. Onun yerinə keçəcək imam olmadığına görə imamət onunla bitmişdir.
Necəki, Hz Muhəmməddən sonra onunla peyğəmbərlik bitmişdi. Bu firqə gözlənilən Mehdinin gəlməsini zəruri hesab etmirdi.
📚H.Atay, səh 104; Kummi 107-108

5—Həsən əl Əskəri'nin soyundan birinin gələcəyinə inananlar:
Bunlara görə Həsən əl Əskər'inin ölümündən sonra Allah peyğəmbər soyundan birini imam göndərənə qədər imamət kəsilmişdir.
Son imam Həsən əl Əskəri vəya keçmişdə olanlardan biri ola bilər. Həsən əl Əskəri öldüyünə, yerinə keçəcək varisi olmağına və xələfi də ancaq soyundan olacağına görə Qaim imam axır zamanda ortaya çıxacaqdır.
📚H.Atay, eyni mənbə, səh 104; Kummi 108

6—Muhəmməd ibn Əlinin imamətinə inananlar:
Bunlara görə Həsən əl Əskəri və qardaşı Cəfər əslində imam deyildilər. Əsl imam atasının sağlığında ölən Muhəmməd idi. Həsən əl Əskəri öləndə oğlu yox idi. Cəfər isə fasiq, günahkar və haram işlərlə məşğul olduğu üçün imam ola bilməzdi.
Ona görə Muhəmməd ibn Əlidən başqası imam ola bilməz. Bunlar Muhəmməd ibn Əlinin oğlu olduğunu iddia etdilər.
📚H.Atay, səh 104; el-Kummi 109

7—Həsən əl Əskəri'nin vəsiyyəti ilə Cəfərin imam olduğuna inananlar:
Bu firqəyə görə Həsən əl Əskəri öləndə oğlu olmadığı üçün qardaşı Cəfərə vəsiyyət etmişdi. Bunların başçısı Kufəli kəlamçı olan Əli ibn Taht Həzzaz idi. O, Fəthiyyə firqəsində nüfuz qazanmış, sonra Cəfərə üz tutmuş və insanları ona dəvət etmişdi.
📚H.Atay, səh 105; Nevbahti 99

8—Cəfər ibn Əlinin imam olduğuna inananlar:
Bunlara görə atasından sonra imam olan Cəfər ibn Əlidir. Həsən əl Əskəri'nin imamlığı doğru deyildi. İmamət böyük oğula keçməlidir. Həsən əl Əskəri oğlu olmadan ölüncə bunlar səhv etdiklərini anladılar.
Övladı olmayanın imaməti ola bilməz. Çünki, bunlara görə imam varis təyin etmədən ölə bilməz. Ona görə də imam Cəfər ibn Əlidir.
📚H.Atay, eyni mənbə, səh 105; Kummi, 110-111

9—Həsənin oğlu olmadığı üçün imamətin Cəfərə keçdiyinə inananlar:
Bunlar Fəthiyyə kimi inanırlar. Fəqih və kəlamçılarına görə imam Həsən əl Əskəridir amma, o ölmüşdür. Çünki, imamət ən böyük oğula keçməlidir. İmam oğluna vəsiyyət edə bilməz. Həsən əl Əskəri'nin oğlu olmadığı üçün ondan sonra imam qardaşı Cəfər olmalıdır.
Hz Həsən və Hz Hüseyndən sonra qardaşdan qardaşa imamət keçməz qaydası doğrudur, ancaq bu ölən imamın yerinə keçəcək oğlu olduğu zaman keçərlidir.

📚H.Atay, eyni mənbə, səh 105; Kummi 111

10— Nəfsiyyə:
Muhəmməd ibn Əli imam olmalı idi. O, özündən sonra qardaşı Cəfərə vəsiyyət etmişdir deyənlər:
Bunlara görə imam Muhəmməd ibn Əli olmalı idi,atası imaməti ona vəsiyyət etmişdi. İmamın başqa birinə vəsiyyət etməsi caiz deyil. Muhəmməd imaməti qardaşı Cəfərə atasının əmri ilə vəsiyyət etmişdi. Vəsiyyəti elmləri və silahı özündə əks etdirən olan Əbul Həsənin "Nəfis" adındakı köləsi ilə göndərdi. Bu etibarlı biri idi. Əbul Həsən öləndə imamət qardaşı Cəfərə Nəfisin əli ilə keçməli idi. Ona görə bunlara "Nəfsiyyə" firqəsi deyilirdi.
📚H.Atay, eyni mənbə, səh 105; Kummi, 112

11— Əli ibn Muhəmməd Mehdidir deyənlər:
Bunlara görə Həsən əl Əskəri vəfat etmiş və Muhəmməd adında bir uşaq yaşda oğlu ondan sonra imam olmuşdur. Atası sağlığında ona gizlənməyi əmr etmiş və o da əmisi Cəfərdən çəkinərək, gizlənmişdi.
Ona görə də Həsən əl Əskəri'nin oğlu olmadığı zənn edilmişdir. Mehdi Qaim olan imam budur.
📚H.Atay, eyni mənbə, səh 106;Kummi 14

12—Həsən əl Əskəri'nin oğlu Əlinin imamətinə inananlar:
Bunlara görə Həsən əl Əskəri'nin oğlu var. Amma, bunun adı Muhəmməd deyil, Əlidir və ondan başqa da oğlu yoxdur. Bu baradə Həsən əl Əskərinin xüsusi elçiləri vardı. Kufənin ətrafında kiçik bir qrup bu məzhəbdəndir.
📚H.Atay,eyni mənbə, səh 106; Kummi 14

13—Həsən əl Əskərinin adsız oğlunun imamlığı:
Həsən əl Əskərinin vəfatından səkkiz ay sonra bir oğlu oldu amma, adı və yeri bilinməməkdədir.
📚H.Atay,eyni mənbə, səh 106; Kummi 14

14—Həsən əl Əskərinin oğlunun olmadığını deyənlər:
Həsən əl Əskərinin əsla oğlu yoxdur. Çünki, bütün araşdırmalara baxmayaraq onun bir oğlunu tapa bilmədik...."
📚 H.Atay, eyni mənbə, səh 106; Kummi 115

15—Vaqifi-Mustənkiflər:
Nə deyəcəyimizi bilmirik. Həsən əl Əskərinin oğlu olub, olmadığı, imamətin Cəfərə vəya Muhəmmədə aid olduğunu bilmirik. Yalnız bunu deyə bilərik:
"Həsən əl Əskəri imamdır və ona itaət fərzdir. Vəfat etdi, bunda şübhə yoxdur amma, yer üzü də hüccətsiz qalmayacağına görə qəti bir hökm verə bilmirik və ondan sonra da bir imam qəbul etmirik. Çünki, bir imamdan sonra kimin imam olduğu bilinməzsə yeni bir imam bəlli olana qədər əvvəlki imamın imamlığı davam etməlidir. Həsən əl Əskəridən başqasına və soyuna da imamlıq keçə bilməz. O, öldüyünə görə geri dönə bilməz, Allah istədiyi zaman bizə birisini açıqlayar."
📚 H.Atay, eyni mənbə, səh 107; Kummi 115-116

"Şiə hərəkatları, firqələri və yarandıqları tarixi dövr."

Mündəricat:

—Şiəlik, şiə anlayışı və qısa tarixçəsi
—İslamda ixtilaf və firqələrə bölünmənin səbəbləri
—İlk ixtilaf və xilafət məsələsi
—Hz Osmanın şəhadəti və Hz Əlinin xilafəti
—Əsas şiə firqələri və qolları. (tarixi ardıcıllığa əsasən)
—Hz Əli haqqında şiə firqələrinin görüşü
—Səbəiyyə
—Hz.Hüseynin ölümündən sonra (H.61/M.680) yaranmış şiə firqələri:

1. Əli ibn Hüseyni (Zeynəlabidin) imam qəbul edənlər.
2. Hz Əli, Həsən, Hüseyni imam qəbul edənlər.
3. Carudiyyə və qolları.
4. Muhəmməd ibn Hənəfiyyəni imam qəbul edənlər.
A) Muxtariyyə
B) Keysaniyyə
a) Kərbiyyə
b) Haşimiyyə və qolları:
1) Xalis Muxtariyyə
2) Hərbiyyə
3) Müaviyə firqəsi
4) Rəvandiyyə
5) Bəyaniyyə

C) Xürrəmiyyə
D) Mənsuriyyə
E) Xəttabiyyə və qolları:
a) Muamməriyyə
b) Bəziğiyyə
c) Umeyriyyə
d) Mufəddəliyyə
e) Muhammisə
f) Əlyəviyyə
g) Bişriyyə

— Əli ibn Hüseynin vəfatından sonra yaranmış şiə firqələri:
1) Zeydiyyə və qolları:
a) Carudiyyə
b) Yaqubiyyə
c) Naimiyyə
d) Süleymaniyyə
e) Bətriyyə
2) Baqiriyyə və qolları:
a) İmam Baqiri imam hesab edənlər
b) Muğiriyyə

— İmamətin Abbas oğullarına keçidi:
1.Əbu Muslimiyyə
2.Rizamiyyə
a) Muğanniyyə
b) Babəkiyyə
c) Məzyəriyyə
d) Hureyriyyə

Cəfəriyyə və qolları:
a) Navusiyyə
b) İsmailiyyə
c) Mubarəkiyyə
d) Şamitiyyə
e) Əftahiyyə

— Musaviyyə və qolları:
a) Qatiyyə
b) İmam Musa Kazımın ölmədiyinə inananlar
c) Musa Kazımın Mehdi olduğuna inananlar
d) Vaqifiyyə
e) Məmturə

— 11-ci imam Həsən əl Əskəri'nin vəfatından sonra şiə firqələri:
1) İmamiyyə
2) Həsən Əskəri'nin ölmədiyinə inananlar
3) Həsən Əskəri'nin Mehdi olduğuna inananlar
4) Həsən Əskəri'nin öldüyünə inananlar
5) Həsən Əskəri'nin soyundan bir nəfərin gələcəyinə inananlar
6) İmam Muhəmməd ibn Əlidir deyənlər
7) Həsən Əskəri'nin vəsiyyəti ilə qardaşı Cəfərin imamlığına inananlar
8) Həsən Əskəri'nin deyil, Cəfərin imam olduğuna inananlar
9) Həsən Əskəri'nin oğlu olmadığı üçün qardaşı Cəfərin imam olduğuna inananlar
10) Nəfisiyyə
11) Əli ibn Muhəmməd Mehdidir deyənlər
12) Həsən əl Əskəri'nin oğlu Əlinin imamətinə inananlar
13) Həsən əl Əskəri'nin adsız oğlunun imamlığına inananlar
14) Həsən əl Əskəri'nin oğlunun olmadığını deyənlər

15) Vaqifiyyə

Şiəlik hərəkatı,qısa tarixçəsi və şiə firqələri

Giriş

Tarixdə şiə firqələri çox olduğu üçün mənbələrdə şiə kəlməsi müxtəlif şiə firqələrin müştərək adı olaraq nəzərdə tutulurdu. Misal olaraq, müəyyən bölgələrdə şiə dedikdə o bölgələrdəki ismailiyyə, nusayri, zeydi, qulat və s. şiələr nəzərdə tutulurdu.
Şiəlikdə beş əsas cərəyan nəzərə çarpır, bunlar: Keysaniyyə, Zeydiyyə, İmamiyyə, İsmailiyyə və Qulat (ifrat, aşırı) firqələridir. Digər şiə firqələri əsasən bu cərəyanların qolları hesab olunurlar.
Oxuculara təqdim olunan bu kitabda şiəlik, onun yaranma tarixi və şiə firqələri haqqında qısa, elmi, obyektiv məlumat veriləcəkdir. Çalışmada bir çox akademik, mötəbər kitablardan mənbəyi göstərilməklə sitatlar gətirilmişdir. Kitabı oxuyan şiə firqələri, tarixi, etiqadları haqqında qısa elmi, obyektiv məlumat əldə edəcəkdir.

Şiəlik, şiə anlayışı və qısa tarixçəsi.

"Şiə" ərəb dilində qonağı qarşılamaq, izindən getmək, tərəfdar olmaq, ayrılmaq, qruplaşmaq və s.mənalarında istifadə olunan bir sözdür.
📚 Hasan Onat, "Emeviler devri şii haraketleri, səh 13; İbn Manzur, "Lisanul arab", c. 8,səh 188
"Şiə" kəlməsinin ilk dövrlərdə lüğəti mənasına uyğun olaraq "tərəfdar" mənasında istifadə olunduğu məlumdur.
Misal olaraq, Sasani sərkərdəsi Hürmüzan və rütbəli on iki nəfər İranlı Mədinəyə gətirildikdə Hz Ömər belə demişdi: "Bu adamı və şiəsini İslama boyun əydirən Allaha həmd olsun."
📚 Hasan Onat, eyni mənbə, səh 16; İbn Sad, V, 89
Hz Əli Cəməl hadisələri zamanı müxaliflərini niyə öldürdün sualına belə cavab vermişdi: "Onlar da mənim şiələrimi öldürmüşdülər."
📚 Hasan Onat, eyni mənbə, səh 16; Nasr b. Müzâhim, səh 5

Bu söz "şiatu Osman" və "şiatu Əli"
şəklində istifadə olunduqda Hz Osman və Hz Əliyə tabe olanları, "əş şiatul Ələviyyə" və "əş şiatul Abbasiyyə" şəklində istifadə olunduqda isə Əli və Abbas övladlarının tərəfdarları nəzərdə tutulurdu.
Qurani Kərimdə "şiə" sözü firqə, tərəfdar, qrup mənalarında işlənmiş və əsasən tənqid olunmuşdur.
"O kəslərdən ki, öz dinini parçalayıb, firqə-firqə (şiyəən) oldular. Hər bir firqə öz dininə (öz dininin haqq olduğuna) sevinər." (Rum 32)
"(Ya Rəsulum!) Şübhəsiz ki, sənin firqə-firqə (şiyəən) olub, dinini parçalayanlarla heç bir əlaqən yoxdur. Onların işi Allaha qalmışdır. (Allah) sonra (qiyamətdə) onlara nə etdiklərini bildirəcəkdir!" (Ənam 159)
"Şiə" kəlməsi sözlük olaraq öz-özlüyündə neytral məna daşıdığı halda bu ayələrdə eyni dinin daxilində təfriqə salma mənası daşıdığı üçün tənqid olunmuşdur.

Əlimizdə əsərləri mövcud olan hicri 3-cü əsrdə yaşamış şiə alimlərindən olan Növbəxti (öl.310/922) "Firəq əş şia" — "Şiə firqələri" və Əbu Xələf əl Əşari əl Qummi (öl.301/913) "Məqalət" adlı əsərlərində şiə firqələri, onların yaranma şəraiti, baniləri haqqında məlumatlar vermiş, əqidə, inanc və iddialarını təsvir etmişdilər.
Günümüzə qədər gəlib çatmış bu kitablarla yanaşı məşhur alimlərdən Xətib əl Bağdadinin (öl.429/1037) "əl Fərq beynəl firaq", Əbul Həsən əl Əşarinin (öl.324/935) "əl Məqalət", Şəhristaninin (öl.537/1142) "əl Miləl vən Nihəl" kitabları firqələr haqqında məlumat verən ən qədim və mötəbər mənbələr hesab olunurlar.

Əhli sünnətin böyük alimlərindən olan Əbul Həsən əl Əşari "əl Məqalət" adlı əsərində "Şiə"nin üç sinifə ayrıldığını, birinci sinfin "Ğaliyyə" olub, on beş firqəyə ayrıldığını, ikinci sinfin "İmamiyyə" (rafizi) olub, iyirmi dörd firqəyə ayrıldığını, üçüncü sinfin də "Zeydiyyə" olub, altı firqəyə ayrılıqlarını qeyd edir.
📚 H. Atay, "Ehli Sünnet ve Şia", səh 14;
Ebul Hasan el Eşari, "Makalat",səh 56,66,87,89,129, 132

Əbdulkərim Şəhristaninin "şiəlik" tərifi Növbəxti və əl Qumminin izahları ilə üst-üstə düşür. O yazır:
"Şiəlik dedikdə Əli ibn Əbu Talibə tərəfdar olanlar nəzərdə tutulur. Onlar Hz Əlinin xilafətinin gizli vəya açıq nassa (dəlil) sabit olduğunu iddia edirlər. Onlara görə imamət Hz Əlinin övladlarından başqasına keçə bilməz, olsa belə ya zülmlə ya da təqiyyə ilə olmuş ola bilər..."
📚 H.Onat, "Emeviler devri şii haraketleri", səh 15; Şehrestani, "el-Milel ve'n-Nihal", c. 1, səh 146-147

Mənbələrdə qeyd olunan məlumatlara əsasən şiəliyin istilahi mənasını belə izah etmək olar:
"Şiəlik Əli ibn Əbu Talibin Hz Peyğəmbərdən (s.a.s) sonra nass və təyinatla xəlifə olduğuna inanan, imamətin Qiyamətə qədər onun Hz Fatimədən olan soyundan gələcəyinə iddia edən bütün firqələrin müştərək adıdır.
📚 H.Onat,"eyni mənbə", səh 15

Qəbul olunan ümumi rəyə əsasən Hz Hüseynin Kərbəlada faciəvi şəkildə şəhid edilməsindən sonra
Əməvi iqtidarına qarşı başda Hz Hüseynin intiqamını və Hz Əli övladlarının haqqlarını almaq üçün mübarizə aparmış tərəfdarları üçün şiə termini aktiv olaraq istifadə olunmağa başladı. Kərbəla hadisəsi eyni zamanda ilk şiə firqələrinin dini və siyasi baxımdan təşəkkül tapmasında başlanğıc tarix olmuşdur.
📚 Fığlalı, "İslâm Mezhepleri", səh 265

İlk dövrlərdə şiəlik Hz Əlinin xilafətə daha layiqli namizəd olduğunu hesab edən siyasi bir qrup idi. Daha sonralar onun xəlifə olması ilə bərabər imam və vəsi olduğunu iddia etməyə başladılar.
📚 S. M. Leysî, "Cihaduş-şia", səh 26

Şiəliyin yaranması haqqında fikir bildirən tədqiqatçıların böyük bir qismi onun Hz Osmanın dövründəki fitnə hərəkatları ilə bərabər ortaya çıxdığını bildirirlər.
Məşhur Qərb şərqşünası Wilhausen də bu fikirdədir. Bu alimlərə görə fitnə hadisələrində ön planda olan Abdullah ibn Səbaya tabe olanlar şiəliyin nüvəsini təşkil edirdilər.

İbn Səba "hər bir peyğəmbərin vəsisi vardır, Əli də Muhəmmədin vəsisidir" şəklindəki iddiası ilə şiə fikirlərinin məğzini ortaya atmışdı.
Daha sonra bu ana xətt üzərində şiə imamət nəzəriyyəsi təşəkkül etmiş və mövcud şiəlik vücuda gəlmişdir.
📚 H.Onat, eyni mənbə, səh 148; Wellhausen, "el-Havaric ve'ş-Şîa"

Digər tərəfdən şiəliyin mənşəyi haqqında danışarkən, qeyd etmək lazımdır ki, bəzi tədqiqatçılara görə şiəlik İran kimliyi ilə sıx əlaqədardır. Məşhur Avropalı şərqşünas Dozy şiəliyin İran əsilli olduğunu iddia edənlərin başında gəlirdi.
Bəziləri də ibn Səba və Səbaiyyə firqəsi səbəbi ilə şiəliyin yəhudi əsilli bir hərəkat olduğunu iddia etmişlər.
📚 H. Onat, eyni mənbə, səh 20

Əli tərəfdarlığının siyasi bir zümrə olaraq nə zaman ortaya çıxdığı ixtilaflıdır. Bəzi şiə müəllifləri bütün peyğəmbərlərin səhifələrində Əlinin vilayətinə dair qeydlər olduğunu iddia etmişlər. (Kuleyni 1/437)
Əksəriyyət şiələrə görə isə bu tərəfdarlıq Peyğəmbərin (s.a.s) zamanında ortaya çıxmış, onun vəfatından sonra Hz Əlinin imam olacağı düşüncəsini mənimsəmiş, başda Salman Farsi, Əbu Zərr Qifari, Miqdad ibn Əsvəd, Əmmar ibn Yasir kimi səhabələrin "şiatu Əli" adı ilə anıldığını qeyd etmişlər.
📚 Qummi, səh 15; Növbəxti, səh 15-16
Alimlərin bir qismi (şiələr xaricində) Əli tərəfdarlığının Rasulullahın (s.a.s) vəfatından sonra iqtidara əhli beytdən birinin, xüsusilə Hz Əlinin gətirilməsini daha müvafiq hesab edən, əsasən Haşimilərdən olan bir camaat olduğunu qeyd edirlər.
📚 İbn Haldun, "el İbar", III, 170-171
Bir qisim alim şiəliyin Hz Osmanın ölümündən sonra ortaya çıxdığını və nifaq toxumlarının bu dövrdə Abdullah ibn Səba tərəfindən atıldığını irəli sürmüşlər.
📚 İbn Hazm, II, 216
Digər bir rəyə görə Əli tərəfdarlığı və "şiəlik" Siffin müharibəsi ilə zühur etmiş, (bax. Watt, Islam and the Integration, səh 104) başqa bir rəyə görə isə Hz Hüseynin şəhadəti şiəliyin yaranmasında təməl ünsür olmuşdur.
📚 R. Strothman, “Şia”, İA, İstanbul, 1979, XI, 503
Bunların içərisində ən doğru rəy sonuncu olub, digərləri şiəliyin firqə və məzhəb halına gəlmədiyi dövrləri əhatə edir. (T.D.V İslam ansiklopedisi)

Əməvilər zamanında ilk şiə hərəkatı Hz Əliyə minbərdən edilən töhmət və lənətə etiraz əlaməti olaraq Hucr ibn Adiy tərəfindən başladılmışdı.
Təşkilatlanmamış, konkret siyasi hədəfi olmayan və sırf etiraz hərəkatı olaraq qəbul edilən Hucr-un hərəkatı bütünlüklə şiə motivləri də daşımırdı.
Əməvilər dövründə "şiə" termini bəlli bir zümrəni vəsf etmək üçün ilk dəfə Hucr ibn Adiy hərəkatı üçün istifadə olunmuşdur. Qərb şərqşünaslarından Watt, Lammens, Tucker, Tritton; Həsən b.Həsən, Təyyib Nəccar və s.tədqiqatçılar bu hadisəyə ilk şiə hərəkatı nəzəri ilə baxmışlar.
Hucr ibn Adiy hərəkatı Kufə küçələrində toqquşmalarla müşahidə olunan, sonra Hucr və bəzi yoldaşlarının ölümü ilə nəticələnən, Əməvi iqtidarına qarşı baş vermiş sadə etiraz, üsyan hərəkatı idi. Hucr ibn Adiy və yoldaşları Hz Əlinin səfində yer almış, sonra digər müsəlmanlar kimi könüllü vəya könülsüz Muaviyəyə beyət edənlərdəndi. Hərəkat planlı şəkildə təşkil olunmamışdı və konkret siyasi hədəf daşımırdı. Hadisələr zamanı bu insanların "şiətul Əli" -

Əli tərəfdarları adlandırılmasının səbəbi o idi ki, onlar əvvəllər Əli safında yer almışdılar. Bunların şiəliyi Əlinin Muaviyədən daha çox xilafətə layiq olduğunu demələrində idi.
📚 Hasan Onat, "Emeviler Devri Şiî Hareketleri ve Günümüz Şiîliği", səh 43,59, 61

Qəbul olunan ümumi rəyə görə Hz Peyğəmbərin (s.a.s) vəfatından sonra iqtidara kimin gələcəyi məsələsinə dair qəti dəlil olmadığına görə mühacirlərlə ənsarlar bu barədə fikir ayrılığına düşmüşdülər. Haşimilərdən bir qisim və digər Əli tərəfdarları imaməti bir miras kimi qəbul edərək, Rəsulullahdan sonra xəlifəlik etmənin onların haqqı olduğu fikrini irəli sürmüşdülər.
Bu nöqteyi-nəzərdən Əlinin imamətinə (xəlifəliyinə) dəvət etmə düşüncəsinin normal siyasi bir tərcih şəklində başladığını söyləmək mümkündür.
Peyğəmbərin (s.a.s) vəfatı zamanı Hz Əli və əhli beyt mənsubları cənazə işləri ilə məşğul ikən, Səqifədə toplanan ənsar xəlifənin özlərindən seçilməli olduğunu düşünürdü.
Vəziyyətdən xəbərdar olan Hz Əbu Bəkr və Hz Ömər zaman itirmədən toplantı yerinə getdilər. Onlar orada olan səhabələri öz çıxışları ilə razı saldılar və ani bir qərarla Əbu Bəkrə beyət edildi. Daha sonra bunu öyrənən Hz Əli və yaxınları olanlardan məmnun qalmamış və hətta, bir rəyə görə Hz Əli beyəti bir müddət gecikdirmişdi.
Əslində, Hz Əli özünün xilafətə digər səhabələrdən daha əhil olduğuna inanmaqla bərabər Hz Əbu Bəkr, sonra Hz Ömərə beyət etmiş və onlar tərəfindən etibar görərək, önəmli məsələlərdə onunla istişarə edilmişdir.
Hz Əlinin bu davranışı sonralar təşəkkül etmiş şiə düşüncəsinin əksinə olaraq özünün xəlifəliyi məsələsində səhih bir nass (dəlil) olmadığına dəlalət edir.
Hz Əbu Bəkr və Hz Ömərin xilafəti dövründə dövlət işlərinin ləyaqətli şəxslərə verilməsi, fəthlərin uğurla davam etdirilməsi və cəmiyyətdə ədalət ölçülərinin qorunması bir başqa rəhbərin iş başına gətirilməsi zərurətini doğurmamışdı.
Ona görə Əli tərəfdarlığı varlığını yalnız kiçik ölçüdə mühafizə etmişdi.
Lakin, Hz Osmanın xilafəti dövründə vəziyyət dəyişmiş, xəlifənin yaşlılığı, idarəetmədə boşluqlar, vali və məmurların əvvəlki kimi işləməmələri əhali arasında narazılıqlara səbəb olmuşdu. Bu vəziyyət eyni zamanda şiəliyin siyasi mənada inkişafına da zəmin hazırlamışdı.
Məmurlardan doğan şikayət və narazılıqlar gün keçdikcə artmış, nəhayət Misir valisi Abdullah ibn Sad ibn Əbu Sərhdən şikayətçi olaraq Mədinəyə gələn (H.35/M.656) üsyançıların xəlifə ilə apardıqları danışıqları nəticəsiz qalınca, onlar xəlifənin evini mühasirə etmiş və onu şəhid etmişdilər.
Yaranmış qarışıqlıq Hz Əlinin xilafəti qəbul etməsi ilə qismən sakitləşsədə, siyasi və sosial təlatüm davam etmiş, onunla Hz Aişə, Hz Təlhə, Hz Zübeyr arasında öncə Cəməl, Şam valisi Müaviyyə ibn Əbu Süfyan arasında isə Siffin müharibələri baş vermişdi.
Daha sonra Hz Əli ordusundan ayrılan xəvaric adlı qrupla Nəhrəvanda döyüşməli olmuşdu.
Hz Əlinin 40/661-ci ildə bir xəvaric tərəfindən sui qəsd nəticəsində şəhid edilməsindən sonra onun yerinə Kufədə xəlifə təyin edilən oğlu Həsənin altı ay sonra Müaviyyə ilə imzaladığı sülh müqaviləsi bir qisim Əli tərəfdarlarını narazı salmışdı.
Muaviyənin ölümündən sonra oğlu Yezidin xilafəti dövründə Kufədə yaşayan Əli tərəfdarları Hz Hüseynə çoxlu məktublar yazaraq, onu xəlifə görmək istədiklərini bildirdilər və beyət etmək üçün Kufəyə dəvət etdilər.
Hz Hüseyn verilən vədlər qarşılığında Kufəyə hərəkət etmiş, ancaq Kərbəla çölündə Əməvi ordusu tərəfindən mühasirəyə alınmış, baş verən döyüşdə şəhid edilmişdi.
Bu hadisə şiəliyin yeni formada təşəkkül tapmasında qırılma nöqtəsi olmuşdur.
📚 Mustafa Öz; T.D.V, İslam ansiklopedisi

Hz Hüseynin şəhid edilməsindən sonra şiələr arasında ortodoks (ənənəvi) İslamdan ilk sapma cəhdləri baş göstərdi. Doğrudur, Səbailik kimi ilk qulat şiə firqəsi daha öncə özünü biruzə vermişdi. Sonralar tədricən şəhidlik kultu, imamların mifik ali məqamı, gözlənilən xilaskar Mehdi haqqında təsəvvürlər formalaşmağa başladı.
Hicri ikinci əsrdən etibarən mövcud şiə firqələri daha çox qollara və cərəyanlara bölünməyə başladılar. Onların hər biri Əməvilərə qarşı öz üsul və metodları ilə mübarizə aparırdılar. Şiə firqələri arasında olan ən böyük ixtilaf hər dəfə ölən imamdan sonra növbəti imamın kimliyi məsələsi idi.
Zaman keçdikcə bu ixtilaf və ziddiyyətlər daha da artırdı. Eyni zamanda xilafətə qarşı xəvaric qrupları da amansız mübarizə aparırdılar. Şiə və xəvaric təbliğatçıları elə təəssürat yaratmağa çalışırdılar ki, sanki yer üzündə bütün bəlaların səbəbkarı xilafəti haqqsız olaraq ələ keçirmiş Əməvilərdir və əgər onlar devrilərsə və əhli beyt mənsubları iqtidara gələrsə Allahın bərəkəti müsəlmanların üzərinə yağacaqdır. Ancaq, sonrakı tarix göstərdi ki, böyük ümidlərlə üsyan nəticəsində iqtidara gəlmiş hər yeni qüvvə növbəti zalıma çevrilirdi.
Muxtar əs Səqəfinin üsyanından sonra şiəlik hərəkatlarında bir fasilə yaranmışdı. Bu səssizlik Əməvi xilafətinin son dönəminə qədər davam etdi. Bunun əsas səbəbi o idi ki, Əli oğulları və tərəfdarları Abbas oğullarından Muhəmməd ibn Əli öndərliyindəki Abbasi hərəkatına dəstək olmuşdular.
📚 Nahide Bozkurt, “Muhammed en-Nefsüzzekiyye’nin İsyanı”, səh 2; Cem Zorlu, "Abbasi devletine karşı ilk silahlı haraketler", səh 121

İslamda ixtilaf və firqələrə bölünmənin əsasən aşağıdakı səbəbləri mövcuddur:

1) Ölkə və mədəniyyətlərinin fəth edilməsini həzm edə bilməyənlər
fiziki müqavimət göstərə bilmədikləri üçün bu fəthin yeganə amili və səbəbkarı olan İslam dini haqqında məkrli planlar tərtib edib, onu daxildən yox etməyə cəhd göstərdilər. Zahirən müsəlman görünərək keçmiş din, düşüncə və mədəniyyətlərinin təsiri ilə İslam dini haqqında daban-dabana zidd fikirlər və izahlar gətirməklə dinin mahiyyətini və qayələrini təhrif etməyə çalışdılar.
2) Məqsədlərinə çatmaq, fiziki və maddi qüvvət əldə etmək üçün gizli təşkilat və cəmiyyətlər qurmuş, insanları ətraflarına toplamaqdan ötrü bəzi özlərinə zahirən sərf edən ayələri yanlış şəkildə təbliğ etmişdilər.
3) İnsanlarda olan hökmdarlıq, məqam və sərvət toplama ehtirası bir çox hallarda üstün mövqe və məqam əldə etmək naminə onları azğınlığa və həddi aşmağa sövq edir.
a) Bu ehtiras insanları müəyyən etiqad və düşüncəyə qarşı müxalif olacaq bir etiqad icad etməyə belə sövq edir. Məkkəli müşriklərin Hz. Peyğəmbərə qarşı çıxmaları maddi mənfəətləri və mövqelərinin əldən gedəcəyi qorxusu ilə idi. Eləcədə, peyğəmbərlik məqamını və nüfuzunu qısqanan, arzu edən bəzi qəbilə başçıları da özlərini peyğəmbər elan etmişdilər.
b) İslam gəldikdən sonra keçmiş ərazi, vilayət, ölkə böyükləri və məmurları
öz vəzifələrini itirmişdilər. Onlar əvvəlki məqam və dərəcələrini yenidən əldə edə bilmək üçün planlar cızır, sadə xalqdan olanlar isə yeni məqamlar əldə etməyə çalışırdılar.
c) Eyni əqidə və məfkurə sahibləri belə idarə etmə və liderlik məsələsində bir-biri ilə amansız rəqabətə girişə bilirdilər.
4) Fəth edilmiş ölkələrin din adamları İslam dininə qarşı müqavimət göstərmək və öz dinlərinin varlığını qorumaqdan ötrü ideoloji və mədəni mübarizə aparırdılar. Onlar İslamı qəbul edənlərə mane olmağa çalışır, elmi zəif sadə müsəlmanları isə İslamdan uzaqlaşdırmağa və dində şübhəyə salmağa çalışırdılar. Belə fəaliyyətlər insanlar arasında çaşqınlığa və böyük fikir ayrılıqlarına gətirib çıxarırdı.

5) İslamda insanların kütlələr halında qruplaşması vəya bir araya gəlməsi ilk öncə siyasi səbəblər nəticəsində baş vermişdi. Daha sonra hər bir qrup öz haqqlılığını isbat etmək üçün müxtəlif dəlillər gətirməyə başlamış və beləcə də ədavət artmışdı.
6) İslamda ilk siyasi bölünmə Hz Əli ilə Müaviyyə arasında beyət etmə üstündə baş vermişdi.
7) Mühüm məsələlərdən də biri bəzi insanların daima böyük kütlələrdən ayrılıb, müstəqil icma olma istəyi idi. Onlar böyük icmadan qopub, yeni adla icmalar təsis edir, liderlik fərasəti və şəxsi xarizmaları nəticəsində ətrafına insanlar toplayırdılar.
📚 H.Atay, "Ehli Sünnet ve Şia", səh 7-8

İlk ixtilaf və xilafət məsələsi.

Hz Muhəmməd (s.a.s) 10/631-cu ildə 23 il peyğəmbərlik etdikdən sonra 63 yaşında vəfat etdikdə müsəlmanlar xilafət məsələsində şiə alimlərinə görə üç, sünni alimlərə görə isə iki qrupa ayrılmışdılar:
1- Ənsar yəni, Mədinəli müsəlmanlar ilk başda Sad ibn Ubadənin xəlifə olmağını istəyirdi. Bu mövzuda bir xeyli müzakirə və fikir ayrılıqları olmuşdu. Lakin, bu firqə fikrini qəbul etdirə bilmədi və Sad ibn Ubadə xəlifə seçilə bilmədi. Bununla belə, onların fikir ayrılığı və etirazları davam etmədi.
2- Əbu Bəkrin xəlifə olmasını istəyənlər (mühacir) istəklərinə nail oldular və onun xəlifə seçilməsi ilə ixtilaf sona yetdi.
Bütün müsəlmanlar vəhdət halında tək bir xəlifənin ətrafında birləşərək, Hz Osmanın ölümünə qədər böyük inkişaf yolu keçmiş və fəthlərə nail olmuşdular.
3- Şiələrə gəlincə, onlar bu iki qrupdan əlavə Peyğəmbərin (s.a.s) vəfatından sonra üçüncü qrup olaraq Hz Əlinin xəlifə olmasını istəyən bir camaat olduğunu və onların ilk şiə olduqlarını söyləyirlər.
📚 H. Atay, "Ehli Sünnet ve Şia", səh 20-21; Eşari, "Makalat, səh 39-40; Nevbahti, "Fırak eş şia", səh 3 və s.

Müsəlmanlar arasında fərdi olaraq fikir ayrılıqları və ixtilafların olması labüddür və bu normal haldır. Lakin, səhabələr arasında yaşanan bu fikir ayrılıqları zamanı qütbləşmə olmamışdı. Bununla belə istənilən cəmiyyətdə öndə gələn kimsələrin tərəfdarları, sevənləri olduğu kimi sevməyənləri də ola bilər və bu adi haldır.
Müsəlmanlar Allahın buyurduğu kimi bir-birini müsəlman olduqlarına görə sevməlidirlər. Lakin, bu sevgidən əlavə insanlar öz aralarında olan yaxınlıqları, dostluqları, qarşılıqlı yardımları səbəbi ilə bir-birini daha çox sevirlər və bu insani, təbii bir xüsusiyyətdir. Bu baxımdan, Hz Əlinin də sevənlərinin, tərəfdarlarının olması təbii idi.
Bununla belə, şiələrin bu iddialarını isbat etmələri imkansız görünür. Çünki, Sad ibn Ubadənin xəlifəlik iddiası tarixən sabitdir. Lakin, Hz Əli və tərəfdarlarının xəlifəlik iddiası ilə ortaya çıxıb, qrup təşkil etdiklərini iddia etmək çox çətindir.
Əslində müsəlmanlar arasında o zaman bir firqə vəya qrupun olmadığı bilinməkdədir. Hamısı vəhdət halında, tək vücud kimi davranmış və hərəkət etmişdilər.
📚 H.Atay, eyni mənbə, səh 21

Burada mühüm bir məqamı nəzərdən qaçırmamaq lazımdır. Hz Əbu Bəkr və Ömər özlərindən sonra gələnlərin seçilməsini təsbit edərkən, bunu hər kəsə elan etmişdilər. Peyğəmbər (s.a.s) Hz Əlini əgər yerinə təyin vəya elan etmiş olsaydı bunu bütün səhabələr bilməli idi. Hz Əbu Bəkr, Sad ibn Ubadə, Ömər və Osman xəlifə olmaq üçün Hz

Peyğəmbərin (s.a.s) sözlərinə zidd davranmazdılar, istəsəydilər belə edə bilməzdilər. Çünki, bütün səhabələr onlara qarşı çıxardı və belə bir şey olmamışdır.
📚 H.Atay, eyni mənbə, səh 18

Hz Osmanın şəhadəti və Hz Əlinin xilafəti:
Hz Osmanın xilafətinin son illərində bəzi vali və məmurların yanlış addımları üzündən bəzi vilayətlərdə narazılıqlar başlamışdı. Bu nöqsanları istismar edən və cəmiyyətdə sabitliyi pozmaq istəyən qüvvələr təşəkkül etmişdi.
Əslində, yaranmış qüsurları səmimi şəkildə düzəltmək istəyənlərlə problemli kimsələr bilərək vəya bilməyərək fitnəkar, pis niyyətli adamlarla birləşmişdilər. Nəticədə cəmiyyət böyük bir tələtümə sürükləndi və Hz Osman 35/656-cı ildə şəhid edildi.
📚 H.Atay ,eyni mənbə, səh 22; Hasan İbrahim Hasan, "Tarih ve'l-Islam", 1/ 359-363

Hz Osmanın şəhid edilməsi ilə ortaya çıxan problemlər:

1 —Hz Əli 35/656-cı ildə xəlifə seçildi. Hz Əlinin xəlifə seçilməsi də Hz Əbu Bəkrin xəlifə seçilməsi kimi ixtilaflı oldu. Lakin, Hz Əbu Bəkrin xəlifə seçilməsi ilə ixtilaflar aradan qalxmış, müsəlmanlar firqələrə ayrılmamış və vəhdət halında varlıqlarını davam etdirmişdilər.
Hz Əli çox böyük bir hadisə olan Hz Osmanın şəhid edilməsindən sonra xəlifə seçilmişdi. Əksəriyyət Hz Əlinin xəlifə məqamına layiqli namizəd olduğuna inanırdı və bunu doğru qərar hesab edirdi. İlk anlarda ona beyət etmədə tərəddüd edənlər (Sad ibn Əbu Vəqqas, ibn Ömər) vəya heç beyət etməyənlər (məs: Həssan ibn Sabit, Kab ibn Malik, Məsləmə, Əbu Səid əl Xudri, Muhəmməd ibn Məsləmə, Numan ibn Bişr, Zeyd ibn Sabit və s.)
Hz Əlinin ləyaqətinə olan şübhələrinə görə deyil, o zamankı vəziyyətə uyğun şəxsi qənaətlərinə görə etməmişdilər.
📚 H.Atay, eyni mənbə, səh 22

2 —Hz Əlinin xəlifə olmasına qarşı olanların əsasən şəxsi mənfəətləri var idi. Onun xəlifəliyini qəbul etməyənlərin cəm olduğu bir camaat formalaşmışdı. Hər birinin maraqları fərqli olsa da iffifaq etdikləri məsələ Hz Əlinin xəlifəliyi idi.
Şiə alimləri Qummi və Növbəxti Hz Təlha, Zubeyr və Aişəni Hz Əliyə qarşı gəlib, onun xəlifəliyini tanımayanlar arasında qeyd edirlər. Onlar Hz Osmanın ölümündən sonra müsəlmanları üç firqəyə ayırırlar. Birincilər Hz Əlini xəlifə tanıyanlar, ikincilər beyət etdikdən sonra onun müharibələrinə qatılmayanlar, üçüncülər isə ona müxalif olanlar idi. Bunlar Cəməldə məğlub olduqdan sonra Şamda Müaviyyəyə qoşulmuşdular.
📚 H.Atay, eyni mənbə, səh 22; "Tabari Tarihi", 3/452

3—Hz Əlinin xilafəti dövründə üçüncü bir grup ortaya çıxmışdı. Bunlar xilafət və siyasət mövzularında tərəfsiz olub, bəzi praktiki məsələlərdə fərqli düşünürdülər. Onlar Hz Əliyə beyət etsələr də müharibələrində iştirak etmədilər. Eyni zamanda əleyhinə çıxıb, qarşı tərəfə də dəstək olmadılar.
Döyüşdən itizal etdilər, savaşa qoşulmaqdan çəkindilər. Buna görə onlara "Mutəzilə" yəni, çəkinənlər deyildi. İlk mutəzilə termini bu şəkildə yarandı. Onların qayəsi heç bir döyüşən tərəfə qoşulmamaq idi. Çünki, hər iki tərəf müsəlman idi və töküləcək müsəlman qanı olacaqdı.
Bitərəf qalanların içərsində böyük səhabələr və tərəfdarları mövcud idi.
Sad ibn Əbu Vəqqas, Abdullah ibn Ömər, Muhəmməd ibn Məsləmə, Usamə ibn Zeyd kimi səhabələr onların arasında ən öndə gələnlərdən idi.

📚 H.Atay, eyni mənbə, səh 24

— Əsas şiə firqələri və qolları - tarixi ardıcıllığa əsasən:

Şiə firqələrinin yaranmasını əlimizdə mövcud olan sünni, şiə və digər mənbələrdən istifadə etməklə açıqlayaq:
Hz Əli haqqında fikir bəyan edən "şiatu Əli" (Əli tərəfdarları) üç firqəyə ayrılmışdı:
1 — Birincilərə görə Hz Əli xəlifə olaraq Hz Peyğəmbərin (s.a.s) yerinə keçməli idi və hər kəsin ona itaət etməsi fərzdir.
Ona düşmən olan kafir, ondan başqasını özünə dost, vəli hesab edən bütpərəst və zəlalət əhlidir. Bunlar Hz Əlinin ölümünə qədər bu vəziyyətdə qaldılar.
2— İkinci firqəyə görə Əli Hz Peyğəmbərdən (s.a.s) sonra hər nə qədər ən fəzilətli və ondan sonra xəlifə olmağa layiq şəxs olsa da Əbu Bəkr və Ömərin xilafətinə Əli də razı olduğu üçün onların xilafəti caizdir.
Bu firqənin digər bir qoluna görə Əli Peyğəmbərə (s.a.s) olan yaxınlığına görə əshabın ən fəzilətlisi olsa belə insanlar istədiklərini özlərinə rəhbər seçə bilərlər. İnsanların əmir seçdiyi kimsəyə isə istər Qüreyşdən, istərsə də Haşimilərdən olsun, heç kəsin qarşı çıxması caiz deyil. İstəsə də, istəməsə də seçilən xəlifəyə qarşı çıxmaq küfür və zəlalətdir.
3— Carudiyyə adlı firqə Hz Əlidən başqasının önə keçməsinin küfr və azğınlıq olduğuna, ümmətin Hz Əliyə beyət etməməklə küfrə düşdüyünə inanırdı. Əlidən sonra oğlu Həsənin, sonra Hüseynin imam olduqlarına, sonra isə onların oğulları arasından şura ilə imam seçilməsinin vacib olduğuna etiqad edirdilər.
📚 H. Atay, eyni mənbə, səh 25-26

Hz Əlinin vəfatından sonra şiə firqələri:

Hz Əli şəhid edildiyi zaman onun imam (xəlifə) olmasında israrlı olanlar üç firqəyə ayrıldılar:
1 — Hz Əli öləndə onun tərəfdarları ilə Hz Təlha, Zubeyr və Aişənin tərəfdarları Müaviyənin tərəfinə keçdilər və vahid İslam camiəsini təşkil etdilər. Hz Həsən xəlifəliyi Müaviyəyə tərk etdiyi zaman bu proses daha da sürətlənmişdi.
📚 Kummi 19; Nevbahti, səh 22
Ancaq Hz Əliyə üsyan edən xaricilər (xəvaric) ayrı üsyankar bir qrup olaraq davam etdilər. Onlar xəlifəliyin Hz Əliyə Uca Allahın əmri və Peyğəmbərin (s.a.s) vəsiyyəti ilə keçdiyinə inanmırdılar.
📚 H. Atay, eyni mənbə, səh 22
2— Hz Əlinin soyuna bağlı olanlar az idi. Bunlar xəlifəliyin Əliyə Allah tərəfindən verildiyinə inanırdılar və öz aralarında üç firqəyə bölünürdülər.
📚 Kummi, "Makalat",səh 19
3— Səbəiyyə: Bu firqə ilk dəfə Hz Peyğəmbərdən (s.a.s) sonra ifrata varan (quluv) Abdullah ibn Səbanın qurduğu Səbəiyyə firqəsidir.
Abdullah ibn Səba, onun etiqadı, fikirləri, atdığı addımlar haqqında şiə alimi Növbəxti çox dəyərli məlumatlar verir. O yazır:
“Abdulla ibn Səba Əbu Bəkri, Öməri, Osmanı və əshabələri söymüş, onlara öz etirazını bildirmiş və onlardan ayrılmış adamlardan biridir. O, demişdir ki, bunu ona Əli əmr etmişdir. Əli onu danlamış, ondan bunu deyib-demədiyini soruşmuşdur. O, öz dediklərini boynuna almış, Əli onu öldürməyi əmr etmişdir."
Bunu görən adamlar çığırıb ona demişlər ki, ey Əmirəlmöminin, insanlar arasında sizə əhli beytə məhəbbət və sizin vilayətinizi, sizin düşmənlərinizdən uzaqlaşmağı təbliğ edən bir

adamı necə öldürək? Belə olduqda Əli onu öldürməyib Mədainə (İranın o zamankı paytaxtı) sürgün edir. Əli əshabələrindən olan elm əhlindən bir qrupu hekayət etmişlər ki, Abdullah ibn Səba Islamı qəbul etmiş yəhudi olmuşdur. O, Əlinin tərəfdarı idi. Yəhudi ikən Musadan (ə) sonra Yuşə ibn Nunun vəliəhd olduğunu dediyi kimi, müsəlman ikən də Peyğəmbərin (s.a.s) vəfatından sonra Əli haqqında da eyni sözləri demişdi. O, Əlinin imamlığının fərz olması sözünü açıq deyən birinci adam olmuş, onun düşmənlərindən aralanmış, müxaliflərini rüsvay etmişdir. Buna görə də şiəliyə müxalif olanlar demişlər: "Rafiziliyin əsası yəhudilikdən götürülmüşdür".
📚 "Fırak eş-şia", səh 31

Muhəmməd Əbdulkərim Şəhristani yazır: “İbn Səba Əlinin ilahi imaməti haqqında iddia edən ilk şəxs olub.
Abdulla ibn Səbanın ətrafında bir dəstə insanlar toplandı.Bu ilk firqə idi ki, zühuru, qeybdə olmağı və imamların geri qayıdacağına iman edirdilər.”
📚 “Dinlər və firqələr”, səh 137, Moskva 1999

Qummi yazır: “Səbailiər Abdullah ibn Səbanın davamçılarıdır.Ona yardım edənlər Abdullah ibn Hursi və ibn Əsvəd idi. Bunlar onun ən böyük səhabələri idilər. O,Əbu Bəkri, Öməri, Osmanı və digər səhabələri aşkarca tənqid, təhqir edən ilk insan idi.”
📚 “Mekalat vel firak”, səh 10-21

Bu firqə Əliyə ilah deyir, onun ölmədiyinə, bir gün gəlib, dünyanı ədalətlə dolduracağına inanırlar. Əliyə öncə peyğəmbər, sonra ilah dedikləri rəvayyət olunur.
📚 H.Atay, "Ehli Sünnet ve Şia", səh 26-30; Bağdadi, "el-Fark", 143; İsferayini, "el Tahsir", 71

Hz Həsənin imamlığına tabe olanlar:

Hz Əli öldükdə ona tabe olanlar böyük oğlu Həsənə tabe olmağa davam etdilər. Ancaq kiçik bir dəstə ondan ayrılmışdı.
📚 H.Atay, eyni mənbə, səh 30; Kummi,səh 23; Nevbahti, səh 24

Hz Həsən xəlifə olduqdan altı ay sonra 41/661-cı ildə xəlifəlikdən Müaviyənin xeyrinə ondan sonra şura ilə xəlifə seçiləcəyi şərti ilə vaz keçdi.
Həsənin tərəfdarları az bir qisim istisna olmaqla ona qəzəbləndilər və ondan ayrılaraq Müaviyənin tərəfinə keçdilər. Hz Həsən vəfat edənə qədər çox az bir qisim insan ona bağlı qaldı.
Hicri 47/667-ci ildə o vəfat etdiyi zaman 45 vəya 48 yaşında idi.
O, xəlifəliyi Müaviyyəyə verdikdən sonra Əhli Sünnəyə görə imamlığı bitmişdi.
Şiələrin çox az bir qismi onun imamlığının ölümünə qədər davam etdiyinə inanırdı. O, vəfat etdikdə yerinə qardaşı Hz Hüseyn keçdi. Həsənə bağlı olanlar Hüseynə bağlılıqlarını davam etdirmişdilər. Həsənin imamlığı altı il, beş ay davam etdi.
📚 H.Atay, eyni mənbə, səh 31; Kummi, səh 24

Hz.Hüseynin ölümündən sonra (H.61/M.680) yaranmış şiə firqələri:

Hz Hüseynin Kərbəlada öldürülməsi şiə fikirlərinin yaranmasına və dini-siyasi bir firqənin yaranmasına səbəbiyyət verdi. Həmçinin, Kərbəla faciəsi şiəlik ruhunun inkişafına, dərinləşməsinə, tərəfdarlarının isə artmasına böyük təsir göstərmişdi.

Hətta, şiə hərəkatının məhərrəm ayının 10-da ortaya çıxdığı da söylənilə bilər. Hz Hüseynin Kərbəlada qətli İslam ümmətində dərin bir hüznə səbəb oldu və Əməvi iqtidarına qarşı böyük bir nifrət hissi yaratdı.
İlk təşkilatlanmış, siyasi-dini fikirləri və hədəfləri olan şiə hərəkatı adlandıra biləcəyimiz "Təvvabun" hərəkatı bu hadisələr ərəfəsində ortaya çıxmışdı.
Hz Hüseynin qisasını almaq, bir sıra şəxsi ehtiras və mənfəətlərini əldə etmək üçün üsyan qaldıran Muxtar əs Səqəfi və onun hərəkatı şiəliyin dini görüşlərində önəmli qırılmalar meydana gətirmişdi. "Muxtariyyə", "Keysaniyyə" və bir sıra batil firqələr öz fikirlərini bu hərəkatdan almışdılar.
📚 Cem Zorlu, "Abbasi devletine karşı ilk silahlı haraketler", səh 121

İmamətin Əlidən oğlu Həsənə, ondan da qardaşı Hüseynə keçdiyinə inananlar Hz Hüseynin ölümündən sonra aşağıdakı firqələrə ayrılmışdılar:

1) Əli ibn Hüseyni (Zeynəlabidin) imam qəbul edənlər:
İmamlıq Əli ibn Hüseynə keçmişdir. Əbu Muhəmməd və Əbu Bəkr künyələri varsa da ən çox onun haqqında Əbu Bəkr künyəsi istifadə olunurdu. Mədinədə 94/712-ci ildə 55 yaşında vəfat etmişdi. Kərbəla hadisəsi zamanı xəstə idi və o zaman 22 yaşında idi.
Anası Sasani şahı Yezdəgirdin qızı "Suləfa" olub, İranın fəthi zamanı əsirlər arasında idi. Əli ibn Əbu Talib tərəfindən diyəti verilərək oğlu Hüseynlə evləndirilmişdi. Əli Zeynəlabidin ləqəbi ilə məşhurdur. 33 il imamlıq etmişdir.
📚 H.Atay, eyni mənbə səh 31; Kummi, səh 70; Nevbahti, səh 77; ibn Hallikan, 3/267; Zehebi, 1/105

2- Hz Əli, Həsən və Hüseynin imamətinə tabe olanlar:
Onlara görə imamət üç imama məxsus idi və bunların adları Peyğəmbər (s.a.s) tərəfindən bildirilmişdi.Bu üç imam Hz Əli,Həsən və Hüseyn idi.Onlardan sonra heç kəsi imam olaraq tanımamışlardı.
📚 H.Atay,eyni mənbə,səh 32; Nevbahti, səh 54;Kummi,səh 71

Hz Hüseyn qətlə yetiriləndə onun əshabələrindən bir dəstə adamlar gəldi və dedilər:
“Həsənin hərəkəti ilə Hüseynin hərəkəti bir-birinin əksi oldu. Çünki, Həsənin tərəfdarlarının sayca çox və qüvvətli olmasına baxmayaraq, Müaviyə ilə barışması və ona təslim olması haqqlı və düzgün iş idisə, Hüseynin tərəfdarlarının sayca az və zəif olduğu halda Yezid ibn Müaviyə ilə döyüşə girib özünün və bütün əshabələrinin də qətlə yetirilməsinə səbəb olması vacib olmayan səhv bir iş idi...Ona görə də onlar hər ikisinin imamlığına şəkk etdilər və imamlardan uzaqlaşdılar və avam adamların dillərinə düşdülər. Beləcə şiəlikdən ayrılaraq Müaviyənin tərəfinə keçdilər.
📚 H.Atay, eyni mənbə, səh 32; Nevbahti, səh 25-26, Kummi, səh 25

3—Carudiyyə:
Bir qisim insanlar Hüseynin ölümündən sonra Həsən və Hüseynin soyundan hər hansı bir kimsə qalxıb, özünün imam olduğunu iddia edərsə, imamlıq onun haqqıdır dedilər. Hər kəs o imama itaət etməlidir və ona inanmaq Əli ibn Əbu Talibin imamlığına inanmaq kimi fərzdir. Hər hansı bir kimsə də itaət etməzsə, o kafir və müşrikdir. Amma, hər hansı biri öz imamlığını elan edib, pərdələri endirib, evində oturarsa, o da kafir və müşrik bir imam olar və ona tabe olanlar da azmış sayılarlar. Bu firqəyə Sərhubiyyə və Carudiyyə adı verilmiş olub,Zeydiyyə firqələrindən sayılırdı.

Bu firqəni quran Əbul Carud Ziyad ibn Əbu Ziyad vəya Munzir adlı şəxs idi və Muhəmməd Baqir (5-ci imam) ona "Sərhub"(kor ilan) adını vermişdi.
📚 H.Atay, eyni mənbə, səh 32; Nevbahti,səh 54;Kummi, səh 71
Əbul Carud Zeydiyyə alimlərindən sayılırdı. Cəfəri Sadiq onu fikirlərinə görə lənətlənmiş və ona qəlbi, gözü kordur demişdi. Bunlar Zeydiyyənin Ğaliyyə firqəsi olub, Əbu Bəkr və Öməri lənətləyirdilər. İnsanları Peyğəmbərdən (s.a.s) sonra Hz Əlini seçmədiklərinə görə küfrə düşdüklərini və azdıqlarını iddia edirdilər.
📚 H.Atay, səh 33; Kummi, səh 18,71,200,201;Nevbahti, səh 9, 48; Eşari,"Mekalat",1/133; ibn Nedim, Fihrist, səh 267

Carudiyyə firqəsi aşağıdakı qollara ayrıldı:
a) Bunlara görə Peyğəmbər (s.a.s) Hz Əlinin imamlığını adı ilə deyil,vəsfi ilə bildirmişdir.Yəni, bildirilən vəsflər kimdə varsa, imam o olmalıdır. Hz Əli, Həsən, Hüseyndən sonra növbəti imam Həsən və Hüseynin soyundan şura ilə seçilməlidir. Onların içindən qılınc çəkib, dinə dəvət edən, elmli və müttəqi olan kəs imam ola bilər.
📚 H.Atay,eyni mənbə,səh 33; İsferayini, "Tebsir",səh 16; Eşari,1/134

b) Bunlar Hz Əlinin imamətinin Hz Peyğəmbərin (s.a.s) vəsiyyəti ilə Əlidən sonra Həsənə və sonra da Hüseynə keçdiyini iddia edirlər. Hz Hüseyndən sonra imamət Hz Həsən və Hz Hüseynin soyundan şura ilə olmalıdır. Onların soyundan biri üzərində ittifaq edilərsə və o da qılınc çəkərsə,imam o olmalıdır.
📚 H.Atay, eyni mənbə, səh 33; Kummi,səh 19,21; Nevbahti, səh 21
Carudiyyənin bu qolu gözlənilən imam olmayıb, qılınc ələ alan və dinə dəvət edən Həsən və Hüseynin soyundan gələn hər hansı bir kimsənin imam ola biləcəyini iddia edirdi.
📚 H.Atay, eyni mənbə, səh 33; "el Fark",səh 31

c) Muhəmməd Nəfsus Zəkiyyəni gözləyənlər:
Hz Həsənin soyundan gələn Abdullah ibn Muhəmməd Nəfsuz-zəkiyyəni gözləyənlər (öl.151/768) onun ölümünü təsdiq etmir, gözlənilən Mehdi olduğunu iddia edirdilər.
📚 H.Atay, eyni mənbə, səh 34; "el Fark", 31, Eşari,1/134; İsferayini,səh 16

d) Muhəmməd ibn Qasımı gözləyənlər:
Hz Hüseynin soyundan gələn Əli ibn Ömər ibn Qasım ibn Muhəmməd alim, zahid, dindar bir kimsə idi. Xəlifə Mutəsimin zamanında Təlaqanda üsyan etmiş və Samarrada 219/834-ci ildə həbsdən qaçmışdı. Onun ölmədiyinə, diri olduğuna, gəlib dünyanı ədalətlə dolduracağına inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 34; "el-Fark",səh 31; Eşari,1/ 134; İsferayini, səh 17

e) Yəhya ibn Öməri gözləyənlər:
İmam Zeydin nəvələrindən olan Yəhya ibn Ömər Əbul Həsən 250/864-cı ildə Kufədə üsyan etməsindən sonra öldürülmüşdür. Ölmədiyinə və təkrar ortaya çıxacağına inanırdılar.
Carudiyyənin ortaq etiqadı ondadır ki, onlar səhabələri Hz Əlini imam seçməmələrinə görə küfrdə ittiham edir və quluva varırlar.
📚 H.Atay, eyni mənbə, səh 34; Eşari, 1/135; el-Fark 32; İsferayini 17

— Muhəmməd ibn Hənəfiyyəni imam qəbul edənlər:
Muhəmməd ibn Hənəfiyyəni həyatda imam olaraq qəbul edənləri iki qrupa ayırmaq olar.

A) Muxtariyyə:
Bunlar Muxtar ibn Əbu Ubeyd Səqəfiyə tabe olanlardır.
Muxtar 66/685-ci ildə siyasətə qoşulmuş çox inatcıl biri idi. Bir çox qruplar arasında özünə yer tapmağa çalışdı. Abdullah ibn Zubeyrin naibi olmağa çalışdı. Amma, ona etibar edilmədi. Çünki, o əvvəllər Əməvi tərəfdarı idi. Sonra o xəvariclərdən oldu. Daha sonra Muxtar Kufəyə gəlib, orada şiələrə qoşuldu. Şiələrin Hz Hüseynə etdikləri xəyanətdən dolayı peşman olduqlarını istismar edərək, onların başına keçdi və Abdullah ibn Zubeyr və Əməvilərə qarşı Hz Hüseynin intiqamını almağa çalışdı.
📚 H.Atay, eyni mənbə, səh 35; H.I.H. Tarihul islâm,1/402; Ebu Zehra, "İslam mezhepleri", səh 67
O, Kufəyə Muhəmməd ibn əl Hənəfiyyə tərəfindən göndərildiyini iddia edirdi.
İddia edirdi ki, Mehdi məni sizə vəzir olaraq göndərib, dinsizləri öldürməyi və ailəsinin intiqamını almamı əmr edib.
📚 H.Atay, eyni mənbə, səh 35; M.Zehra,səh 68; Kummi, 21; Nevbahti, 23
Muxtariyyə imamətin Muhəmməd ibn əl Hənəfiyyəyə atası Hz Əlidən keçdiyini, onun imam və Mehdi olduğunu iddia edirdi. Onlar əhli beytdən heç kəsin ona qarşı çıxmaq və izni olmadan qılınc çəkmək ixtiyarınının olmadığını deyirdilər. Həsənin Müaviyə ilə bağladığı sülh və Hüseynin də Yezid ilə etdiyi müharibənin onun izni ilə olduğunu iddia edirdilər.
📚 H.Atay, eyni mənbə, səh 35; Nevbahti, 26, Kummi, 26

Muxtar (öl.67/686) Taifli olub, atası ilə Mədinəyə köçmüş, daha sonra atası İraqda Cisir müharibəsində vəfat etmişdi. Muxtar Mədinədə bəni Haşimə bağlı qalaraq böyüdü. Hz Əlinin ölümündən sonra Bəsra şəhərində yaşamış, Kərbəla hadisəsindən sonra Ubeydullah ibn Ziyad tərəfindən həbs edilmişdi. Lakin, bacısının əri Abdullah ibn Ömərin xahişi ilə azad edildi və Taifə sürgün edildi.
Yezid öldükdə İraqa gəlib, xalqı Muhəmməd ibn əl Hənəfiyyənin imamlığına dəvət etmiş, Hz Hüseynin intiqamını almışdır.
📚 H.Atay, eyni mənbə, səh 36

Muxtar haqqında iki fərqli qənaət mövcuddur:
a) Muxtar yalançı, özünə vəhyin gəldiyinə inanan, Allaha "bəda" sifəti nisbət edən bir kimsədir. Bu xəbərlər ibn əl Hənəfiyyəyə çatdıqda o Muxtardan təbərri etmişdi. Bağdadi bütün bunları Muxtara Səbəiyyənin tələqin etdiyini yazır.
📚 H.Atay, eyni mənbə, səh 36; "Fark", 46,47
Bağdadi "bəda" sifətini Allaha isnad etməsini belə təsvir edir:
"Muxtarın vəhy iddiası sərkərdəsi İbrahim ibn Əştərə çatdıqda, o Muxtardan uzaqlaşdı. Bunu fürsət hesab edən Abdullah ibn Zubeyr qardaşı Musabı ordu ilə Muxtarın üzərinə göndərdi. Muxtar sərkərdəsi Əhməd ibn Şumaytı Musab ilə döyüşə göndərərkən, ona vəhyə görə qalib gələcəyini söz verdi. Şumayt döyüşdə məğlub oldu və öldürüldü. Geri dönən əsgərlərə bunu izah edərkən, Muxtar dedi: Allah mənə söz vermişdi amma, sonra fikrini dəyişdi.
📚 H.Atay, səh 36; Fark, 50-2
İsfərəyani, Şəhristani də Muxtar əs Səqəfini bu şəkildə vəsf edirlər.
📚 el-Tebsir, 18,19,20; "Milel" , 2/198
Əbul Həsən əl Əşari isə Muxtarı sadəcə Hüseyn ibn Əlinin intiqamını almaqla insanları Muhəmməd ibn Hənəfiyyənin imamətinə dəvət edən biri olaraq təsvir edir. 📚 "Mekalat",1/89

b) Dr.M.Cabir Muxtarın adamlarının ərəb və qeyri ərəblərdən ibarət olmaqla iki dəstə olduğunu, görünüşdə bir olsalar da əslində bir-birinə düşmən olduqlarını yazır. Bəcilə qəbiləsinin azadlı köləsi olmuş Əbu Əmra Keysan qeyri ərəblərə sərkərdəlik edirdi və bunlar Keysaniyyə firqəsini qurmuşdular.
📚 H.Atay, eyni mənbə, səh 38
Müasir dövrdə bir çox şiə alimləri Muxtarın yaxşı bir müsəlman olduğunu iddia edir, ona isnad edilən inanc və fikirlərin iftira olduğunu iddia edirlər.
📚 H.Atay, eyni mənbə, səh 37

B) Keysaniyyə məzhəbi:

Keysan adı haqqında üç növ izah mövcuddur. Ərəbcə "keyyis" - zəki mənasına gəlir və "Keysan" çox zəki mənasına gəldiyindən, bu ad Muxtara verilmişdir. Bunun bəzən də Muxrarın ləqəbi olduğu qeyd olunur.
📚 H.Atay, eyni mənbə, səh 38; Kummi 21, 26; el-Fark 38, Nevbahti, 23,27; Eşari, Makalat 1/90
Muxtariyyənin Keysaniyyə ilə eyni məzhəb olduğunu deyənlər bunu belə qəbul edirlər. İkinci bir iddiaya görə Keysan Hz Əlinin azadlı köləsi (mövlası) olmuşdur. Muxtara Keysan adının verilməsi Keysanın təşviqi ilə Hz Hüseynin intiqamını almağa başlayanda ona verilmişdi.
📚 H.Atay, eyni mənbə, səh 39; Eşari 1/90; Kummi 22, "əl-Fark", 38, Nevbahti 23
Üçüncü iddiaya görə Keysan Bəcilə qəbiləsinin mövlası və Muxtarın sərkərdəsi olmuşdu. Göründüyü kimi Keysaniyyə firqəsinin qurucusunun kim və necə bir şəxsiyyət olduğu məsələsi müəmmalıdır.
Hz Əli vəya Bəcilə qəbiləsinin mövlası olması və onun "Keysan" olaraq adlandırılması, ləqəbindən də görüldüyü kimi onun zəkalı olduğuna dəlalət edir.
📚 H.Atay, eyni mənbə, səh 39

Mənbələr Keysanın Muxtarın, Məhəmməd ibn Hənəfiyyənin nümayəndəsi və sərkərdəsi olduğunu bildirir. O, Hz Əlidən öncə xəlifə olanları və Cəməldə, Siffində iştirak edənləri küfrdə ittiham edirdi. Halbuki, Muxtar Hz Əlidən öncə xəlifə olanları deyil,
Cəməl və Siffində iştirak edənləri təkfir edirdi. Keysan Cəbrayılın Muxtara vəhy gətirdiyini iddia edirdi.
📚 H.Atay, eyni mənbə, səh 39; Kummi, 22; Nevbahti 23

Xətib Bağdadiyə görə Keysaniyyə firqəsini digər firqələrdən ayıran iki təməl ünsür olmuşdur: Onlar Muhəmməd ibn Hənəfiyyənin imamlığına inanır və "bəda"nı yəni, Allahın fikrini vəya iradəsini dəyişdirə biləcəyinə etiqad edirdilər. "Bəda" ya etiqad edənlərin isə kafir olduğuna hökm oxunub.
📚 H.Atay, səh 40; "Fark" səh 38-39

Səbəiyyə firqəsi necə məchulluğa bürünmüşdüsə Keysaniyyə firqəsinin də əvvəli müəmmalı olmuşdur. Hər iki firqə batil və qulat firqələrin qaynağı olmuşdur. Şünni və şiə alimləri ittifaq ediblər ki, bunlar İslam firqələrindən deyillər.
📚 H.Atay, eyni mənbə, səh 40

Məhəmməd ibn Hənəfiyyənin (öl. 81/700) 65 yaşda vəfatından sonra meydana çıxan firqələr aşağıdakılardır:

a) Kərbiyyə:
Bunlar Əbu Kərb əl Darka tabe olanlardır. Onlara görə Məhəmməd b. Hənəfiyyə ölə bilməz və ölməmişdir. O, gizlənmişdir, (qeyb olmuş) harada olduğu bilinmir və gəlib yer üzünə hakim olacaqdır. O, geri qayıdana qədər başqa imam olmayacaqdır.
📚H.Atay, eyni mənbə, səh 40; Nevbahti 27; Kummi, 27
Əbul Həsən əl Əşari Kərbiyyə firqəsinin ibn Hənəfiyyənin Mədinə yaxınlığındakı Radva dağında gizləndiyinə, sağında aslan, solunda qaplanın onu qoruduğuna inandıqlarını qeyd edir.
📚H.Atay, eyni mənbə, səh 40; "Makalat",1/90
Qummiyə görə Kərbiyyənin bir qisim Məhəmməd ibn Hənəfiyyənin oğlu Abdullaha atasının ruhunun girdiyinə etiqad etmiş, onun ölməyib, Radva dağında gizləndiyini etiqad etmişdilər.
📚H.Atay, eyni mənbə, səh 41; Kummi, 27

Görünən odur ki, Mehdi nəzəriyyəsi Keysaniyyə və bundan qaynaqlanan firqələrdən meydana gəlmişdir. Qaib imam nəzəriyyəsini ilk dəfə ortaya atan və zehinlərə yerləşdirin Keysaniyyə firqəsi olmuşdur.
📚H.Atay, eyni mənbə, səh 41;Dr. A. Feyyaz, "Tarihul İmamiyye", 114
Bu firqədən olan Həmzə ibn Əmmar adında biri özünün peyğəmbər, Muhəmməd b. Hənəfiyyənin isə ilah olduğunu iddia etmişdi. Mədinə və Kufə əhlindən ona tabe olanlar oldu. İmam Baqir onu lənətləmiş və şiələr də ondan ayrılmışdı.
Bu Həmzə ibn Əmmar öz qızı ilə evlənmiş və bütün haramları halal görürdü. O, imamı qəbul edən istədiyini edə bilər deyirdi.İraq valisi Xalid ibn Abdullah Kəsri onu həbs edib, on beş adamı ilə birlikdə Kufə məscidində yandırmışdı.
📚H.Atay, eyni mənbə, səh 41; Nevbahtı, 28

b) Haşimiyyə:
Bunlara görə Muhəmməd ibn Hənəfiyyə vəfat edib və özündən sonra oğlu Abdullah imamdır. Onun kunyəsi Əbu Haşim olduğuna görə onu imam olaraq tanıyanlara Haşimiyyə deyilmişdi. Əbu Haşim (H.98/M.716) ilində vəfat etmişdi və o Vasil ibn Atanın şeyxlərindən olub, bitərəf (itizaldə) biri idi. Altı hədis kitabında ondan hədis rəvayyət edilmişdir.
📚H.Atay, eyni mənbə, səh 42; "el-Fark" 27; Nevbahti, 30
Əbu Haşim Abdullah ibn Muhəmməd ibn Hənəfiyyə vəfat etdikdə, tərəfdarları beş firqəyə ayrıldılar:

1) Xalis Muxtariyyə:
Onlara görə Abdullah qardaşı Əli ibn Muhəmmədə imamlığı vəsiyyət etdi. Əli oğlu Həsənə, Həsən də oğlu Əliyə vəsiyyət etmişdi.... Onlara görə imamət Muhəmməd ibn Hənəfiyyənin soyundan gəlir və bunlar xalis Keysaniyyə və Muxtariyyə adlanırlar.
Bunlardan bir dəstə Həsən ibn Əlinin imamlığı kimsəyə vəsiyyət etmədiyini iddia edərək, Muhəmməd ibn Hənəfiyyənin Mehdi olaraq dönməsini gözləyirdilər.
📚H.Atay, eyni mənbə, səh 42; Nevbahti, 27,31,32; Kummi, 26-27, 39

2) Hərbiyyə:
Bunlar Abdullah ibn Amr ibn Hərbə tabe olanlardır. Onlar ruhların köç etməsinə inanırdılar. Bu firqəyə görə ilk imam Hz Əli idi, imamət Həsənə, ardınca Hüseynə, daha sonra isə Muhəmməd ibn Hənəfiyyəyə keçmişdi. O, gələnə qədər isə imam Abdullah ibn Hərbdir.
📚H.Atay, eyni mənbə, səh 42

Xorasan mənşəli Hərbiyyə təriqəti insan və heyvan ruhlarının başqa bədənlərə mükafat və cəza olaraq köç etməsinə etiqad edirdi. Abdullah Allahın ruhunun onun bədəninə keçdiyini, özünün həm ilah, həm də peyğəmbər olduğunu iddia edirdi.
Ruh köçünə (reankarnasiya) inandıqlarına görə Qiyaməti də qəbul etmirdilər. Onlara görə mükafat və cəza bu dünyada verilirdi. Hər şeyi yeyib, içmək isə sərbəstdir. Abdullah Xorasanda öldükdən sonra bəziləri onun ölmədiyinə və geri dönəcəyini iddia etdilər. Bəziləri də öldüyünə və ruhunun İshaq ibn Zeyd ibn Haris əl Ənsariyə keçdiyini qəbul etdilər. İshaqın başçılıq etdiyi qrupa Harisiyyə deyilirdi və onlar üçün dində hər şey mübah idi.
📚İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 67

3) Muaviyə firqəsi:
Bunlar Əbu Haşimin imaməti Cəfər ibn Əbu Talibin soyundan gələn Abdullah ibn Muaviyəyə vəsiyyət etdiyini iddia edirdilər.
Onlar Abdullah ibn Muaviyənin hər şeyi bilən bir imam olduğunu, Allahın nurdan ibarət olduğunu və nurun da Abdullahda təcəlli etdiyini iddia etməklə quluva varmışdılar. Bunlar Qulatdan olub, imamı tanıyan üçün hər şey mübahdır deyirdilər. Abdullah ibn Müaviyə Kufədə üsyan etmiş (M.744), insanları özünə dəvət etmiş amma, Kufədə möhkəmlənə bilməyib, İrana gedib, orada İsfəhanı ələ keçirmişdi. Lakin, orada yaxalanmış və Əbu Muslim tərəfindən öldürülmüşdü.
📚H.Atay, eyni mənbə, səh 43; Kummi, 40; Eşari, "Makalat", 1/154

Abdullah ibn Muaviyənin adamlarına Muaviyə firqəsi deyilirdi. Bunlar ruhların bir bədəndən digərinə keçdiyinə inanırlardılar. Onlara görə Allahın ruhu peyğəmbərlərə keçmiş və onlar bir növ ilahdırlar. Onların ruhları birindən o birinə keçə-keçə Hz Məhəmmədə qədər gəlmiş, sonra ondan Hz Əliyə, ondan oğlu Məhəmmədə, ondan oğlu Əbu Haşimə, sonra Abdullah ibn Muaviyəyə keçmişdi. Bu firqə mənsubları zina və livatayı halal görürdülər.
📚H.Atay, eyni mənbə, səh 43; Kummi, 42-43

Şiə tarixçiləri Növbəxti və Əbu Xələf əl Əşari əl Qumminin bildirdiklərinə görə Abdullah ibn Muaviyə Əbu Muslim tərəfindən öldürüldükdən sonra tərəfdarları üç firqəyə bölündülər: Birinci firqə Abdullah ibn əl Harisin ətrafında toplanmışdı. Digər firqə onun ölmədiyini, gözlənilən Mehdi olduğunu, İsfahanda bir dağda gizləndiyini iddia etmişdi. Üçüncü firqə isə onun öldüyünü və yerinə heç kəsi vəsiyyət etmədiyini iddia etmişdi.
📚H.Atay, eyni mənbə, səh 43; Nevbahti, "Fırak eş Şia", 32-33; "Mekalat", 42

4) Ravəndiyyə:
Bunlar Abdullah ibn Muhəmməd Hənəfiyyənin imamlığı Muhəmməd ibn Əli ibn Abdullah ibn Abbasa vəsiyyət etdiyini iddia edirlər və bunlara Ravəndiyyə deyilir. Bunlara görə Hz Əlinin oğlu Muhəmməd imamdır və o bir ilahdır. O, hər şeyi bilir və onu qəbul edən kimsə istədiyini etmədə sərbəstdir.
Əbu Haşim Abdullah ibn Muhəmməd Hənəfiyəyə şiələr tərəfindən böyük ehtiram olunurdu. Şamda Şərat deyilən yerdə vəfat etdiyi zaman (H.98/M.716) oğlu olmadığı üçün adı yuxarıda keçən Muhəmməd ibn Əli ibn Abdullah ibn Abbası (ibn Abbasın nəvəsi) özündən sonra vəsiyyət etdi və tərəfdarlarını ona göndərdi.
Həmin bu Muhəmməd Şamda vəfat etdiyi zaman (H.115/M.742) oğlu İbrahimi özündən sonra imam təyin etdi. Daha sonra İbrahim Mərvan tərəfindən öldürüləcəyini anlayınca (H.132/M.748) imamlığı qardaşı Əbul Abbas Abdullaha (ilk Abbası xəlifəsi) vəsiyyət etdi.
📚İbn Hallekan, "Vefayet el-Ayan" 3/147,278

Qummi və bir çox tarixçilərə görə Ravəndiyyə Xorasan tərəflərində Abbas oğullarının şiələri olmuşlar.
📚H.Atay, eyni mənbə, səh 44; Eşari, "Makalat", 1/94; Kummi, 180

5—Bəyaniyyə:
Bunlar Əbu Haşimin Mehdi olduğunu, geri qayıdıb, dünyaya hakim olacağını deyir və onun haqqında ifrata vardılar. Bunlara Bəyaniyyə firqəsi deyildi və bu firqə Bəyan ibn Səman Təmimiyə nisbət edilir. Bunlar İraqda hicri ikinci əsrin əvvəllərində zühur etmişdilər. Onlar Allahın insan şəklində olduğunu, üzü xaric bütün vücudunun yox olacağını iddia edirdilər. Onlar vəhyin Allahın bir parçası olaraq öncə Əli ibn Əbu Talibə gəldiyini, ondan oğlu Muhəmmədə keçdiyini, ondan oğlu Əbu Haşimə və sonra da Bəyan ibn Səmana keçdiyini və İslam şəriətinin bir qisminin ləğv edildiyini iddia edirdilər.
Çoxları Əbu Haşimin onu imam təyin etdiyinə və bəziləri də onun peyğəmbər olduğuna inanırdılar. Bəyan ibn Səman İraq valisi Xalid ibn Abdullah Kəsri tərəfindən hicri 119-cu ildə öldürülmüşdü.
📚H.Atay, eyni mənbə, səh 45; el-Kummi, 37-38; Nevbahti, 30; Eşari, "Makalat", 1/66-67; et-Tebsir 72; Taberi 51

"Bunlar Kufəli tacir Bəyanın peyğəmbər və ilah olduğunu iddia edirdilər. Bəyan Hz Əlidən sonra Allahın ruhunun ən sonda ona təcəlli etdiyini, bu ruhla düşmənlərini yendiyini, qeyb güclərini çağırdığını iddia edirdi.
O Əlinin yenidən ortaya çıxacağını və buludlar içindən gələcəyinə iddia edirdi. Göy gurultusunun onun səsi, şimşəyin də onun gülüşü olduğunu iddia edirdi. Bəyan Əməvilər ilə mübarizə aparırdı. Tutulduqdan sonra yandırılaraq öldürüldü və cəsədi çarmıxa çəkildi.
Bu firqə Allahın işığa bənzər bir varlıq olduğunu, ruhunun imamlara keçdiyini və onların da buna görə ilah olduqlarını iddia edirdi."
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 67

—Xürrəmiyyə:

Şiə firqələrinə dair ən qədim şiə alimlərinin əsərlərində bu firqənin Keysaniyyə və Hərbiyyə firqələrinin dağılmasından sonra qurulduğu yazılır.
Bunlar quluvda o qədər ifrata varmışdılar ki, imamların ilah, peyğəmbər və mələk olduqlarını söyləyir, kölgələr aləminə (əzilə), ruhların köçünə (tənasüh), rəcata (dünyaya geri qayıtmağa) etiqad edirdilər.
Onlara görə Qiyamət, ruhun bir bədəndən çıxıb, digər bədənə girməsidir. Yaxşı insanların ruhları yaxşı, pis insanların ruhları isə pis bədənlərə girəcək, əzab olsun deyə meymun, donuz, ilan, əqrəb vücudlarında işgəncə görəcəkdir. Onlar buna rəcat demişlər.
📚H.Atay, eyni mənbə, səh 45; el-Kummi, 44, 187; Nevbahti, 34
Əbdulqahir Bağdadi və İsfərayaniyə görə Xürrəmiyyə İslam dövründə ortaya çıxmış batini bir məzhəb olub, Sasani şahı Ənuşirəvan dövründə yaranmış Məzdəkilər kimi mal, mülk və qadınlarda ortaqlığı qəbul edir və haramları halal sayırdılar.
📚H. Atay, eyni mənbə səh 45; Şehristani, 2/11
İbn Həzm Xürrəmiyyənin Qərməti və İsmailiyyənin ən şərliləri olduğunu qeyd edirdi. Bir çox alimlər Xürrəmiyyəni ümumi bir vəsf hesab etmişlər.
İsfahanda olanlara Xürrəmiyyə və Qudiyyə, Reydə olanlara Məzdəkiyyə və Sinbadiyyə, Azərbaycanda olanlara Zəkuliyyə, Məvanəhrdə olanlara isə Mubeyyidə deyilirdi.

📚H. Atay, eyni mənbə, səh 46; "el-Fark", 160-161; et-Tabsir, 79-80; İbn Hazm, "el-Fasl", 1/34

Tarixi qaynaqlarda yazılana görə "Məzdəkin ölümündən sonra xanımı Xürrəm bint Fadə adamları ilə birlikdə Mədaindən (İraq) çıxaraq, Rey (Tehran) kəndlərindən birinə getdi və bu bölgədə Məzdəkin inancını yaymaya başladı. Bir çox Zərdüşt mənsubu kimsə bu yeni inancı qəbul etdi və bunlara zamanla Xürrəmiyyə deyildi.
Lakin, bunlar inanclarını uzun bir müddət gizlətdilər.
İslamiyyət dövründə İraq, İran və daha sonra orta Asiya bölgələrində zaman-zaman fərqli liderlərin öndərliyində mənşəyi Məzdəki inancı üzrə olan Xürrəmilərin müxtəlif qolları tərəfindən İslamı görünüşlü ezoterik (batini) təriqətlər yaradıldı.
Eyni zamanda bu dövrdə İslami tərəfi olmayan Xürrəmi qruplar da fəaliyyət göstərirdi. İslami görünüşlü batini firqələr daha çox şiə təriqətləri kimi özlərini qələmə verirdilər.
Lakin, şiə imamları Xürrəmi mənşəli bu ifrata varmış qulat, rafizi təriqətləri rədd edirdilər.
Hinduizm, Manilik və Məzdəkilik kimi dualist və politeist təlimləri əhatə edən və yunan fəlsəfəsindən də bəzi düşüncələri əxz edən Xürrəmilikdə İslam, Xristian və Musəvilik kimi moneteist dinlərin inancları da yer alırdı.
Bu təriqətlər Əməvilər dövründə bəzi kiçik üsyanlar etdilər, ancaq çox da ön plana çıxmamışdılar və inanclarını daha çox gizli saxlayırdılar.
Əməvilərin devrilməsində və Abbasilərin iqtidara gəlməsində başlıca rol oynamış İranlı Əbu Muslimin Abbasilər tərəfindən 755-ci ildə öldürülməsindən sonra Xürrəmilər daha da aktivləşdi.
Xürrəmilikdə öncə Məzdəkin şəxsiyyəti mərkəzdə yer alırkən, daha sonra onun yerini Əbu Muslim aldı və pərakəndə şəklində olan qruplar daha yaxşı təşkilatlandı və sistemli hərəkət etməyə başladılar.
Bu qruplar xüsusilə miladi 8-9-cu əsrlərdə Abbasilərə qarşı dini və siyasi üsyan hərəkatları təşkil etdilər.
Əslində bu üsyanlar iranlıların ərəblərə qarşı etiraz hərəkatı idi.
İranda və orta Asiyada baş verən bu üsyanlar bir növ Zərdüştlüyün İslamiyyət ilə mücadiləsi idi.
Xürrəmilər paqan inanclı türklər və rafizilər ilə birlikdə hərəkət etdilər. İranlı Xorasan əmiri olan Əbu Muslim Abbasi xəlifəsi Mənsur tərəfindən öldürüldükdən (mil.755) sonra Nişapurda onun yaxın dostu və sərkərdəsi olan Zərdüşt inanclı Sinbad İranda üsyan qaldırdı.
O, Nişapurdan Reyə gəldi və Təbəristandakı zərdüştiləri üsyana qaldırdı. Sonra İraq, Kuhistan və Xorasandakı rafizilər ilə məzdəkiləri üsyana qaldırdı.
Əbu Muslimin elçisi olduğunu iddia edən Sinbad onun ölmədiyini deyirdi. O, belə bir əfsanə uydurmuşdu ki, guya xəlifə Mənsur Əbu Muslimi öldürmək istədikdə o Allahın ən böyük adını söyləyərək, ağ bir göyərçin olmuş, xəlifənin əlindən xilas olmuşdu.
Sinbad Əbu Muslimin Mehdi və Məzdək ilə birlikdə bir qalada yaşadığını, yaxın zamanda üçünün də ortaya çıxacağını və Əbu Muslimin rəhbər, Məzdəkin isə onun vəziri olacağını iddia edirdi.
Sinbad Əbu Muslimdən məktublar aldığını deyirdi. Rafizilər Mehdinin, Məzdəkilər isə Məzdəkin adına görə Reyə toplandı və böyük bir izdiham yaşandı.
O, Zərdüştlilərə ərəb hökmranlığının bitəcəyi, Kəbənin yıxılacağı, qiblənin keçmişdə olduğu kimi günəş olacağı vədləri verdi.
Sinbad Məzdəkin şiə olduğunu və onun əmri ilə məzdəkilərlə şiələrin müttəfiq olmalı olduğunu deyirdi.
Beləliklə, Sinbad zərdüştiləri, xürrəmi və şiələri bir araya gətirdi.

Sinbadla xəlifə Mənsur uzun illər müharibə etdilər və sonda Sinbad Reydə öldürüldü.
Şəhər tutuldu, talan edildi və zərdüştilər öldürüldü.
Sonralar xürrəmi və zərdüşt inancları qaynaşdı və gedərək gücləndi. Nəticədə xürrəmi inancı əsasında bir çox təriqət ortaya çıxdı. Bunlar İslami kimlik altında gizlənirdilər və onların öz dini kitabları var idi. Onların təliminin əsasını işıq və qaranlıq inancı təşkil edirdi.
Bunlar öləndən sonra ruhun bir bədəndən çıxıb, digər bədənə girəcəyinə, həyatın yalnız bu dünyada olacağına, cəza və mükafatın bu dünyada veriləcəyinə inanırdılar.
Cənnət və cəhənnəmin bədəndə olduğuna, bədəndə ruhun ya xoşbəxt yada bədbəxt olacağına inanırdılar.
İslamiyyəti çox fərqli şəkildə təsvir edirdilər. Şəriətin bir zahiri, bir də əksər insanlar üçün sirr olan gizli (batini) tərəfləri olduğuna inanırdılar.
İlahi qanunları, ibadəti, həcci, cihad, dəstəmaz və s.ayinləri rədd edirdilər.
Hər bir haram, şərab mübah (sərbəst) idi, zövcə və malları bərabər bölürdülər. Onlar təhqir, günah və cəmiyyət üçün təhlükə törədə biləcək davranışlardan uzaq dururdular. Təmizliyə önəm verir, insanlara hörmətlə yanaşır və azad cinsi münasibətlərə üstünlük verirdilər.
Onlar Əbu Muslimə və qızı Fatimənin oğlu Mehdi ibn Firuza sitayiş edirdilər."
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 63; Şehristani, səh 280; Maqdisi, 1/133; Nizamülmülk, səh 212-213, 238-239, 244-245; el Nedim, II. 817-822; Bağdadi, II. 87; İbnul Esir, V. 392-393; Nevbahti, 86-87, 97

Mənsuriyyə:

Bunlar çöldə doğulub-böyüyən, Kufədə yaşayan və yazıb-oxumağı bilməyən Əbu Mənsur İcliyə tabe olanlardır.
İmamiyyənin beşinci imamı Əbu Cəfər Muhəmməd Baqir (H.113/M.713) vəfat etdikdə Əbu Mənsur özünün onun tərəfindən imam olaraq vəsiyyət edildiyini iddia etdi.
O, özünün səmaya merac etdiyini, Allahla göydə danışdığını, peyğəmbər və Allah dostu olduğunu iddia edirdi.
O Muhəmmədin (s.a.s) peyğəmbər, özünün isə bəyan edici olduğunu deyir, Əli, Həsən, Hüseyn, Əli ibn Hüseyn, Muhəmməd Baqirin peyğəmbər olduğu kimi özünün və soyundan altı oğlunun da peyğəmbər olacağını iddia edirdi.
Məcusilər kimi kişinin ana və qızı ilə nigah etməsinin caiz olduğunu, cənnət və cəhənnəmin olmadığını, leş, qan, donuz əti, içki və qumar kimi haram şeylərin mübah (icazəli) olduğunu bəyan edirdi.
Şəhristani əvvəllər Əbu Mənsurun Muhəmməd Baqirə itaət etdiyini, Baqirin onu qovduqdan sonra özünün imamlığını, vəfat etdikdən sonra isə imamətin ona keçdiyini iddia etdiyini yazır.
📚H.Atay, eyni mənbə, səh 46; el-Milel, 2/14
Əbu Mənsur İslam dininin fərz qıldığı namaz, oruc, həcc kimi əhkamları vacib görməmiş, bütün yasaq və əmrlərin bir növ insan adları kimi təfsir etmişdi.
O, və ona tabe olanlar özlərinə tabe olmayanları nifaqda ittiham edir, onların öldürülməsi və mallarının qəsb edilməsini təşviq edirdilər.
İraq valisi Xalid ibn Abdullah əl Kəsri bunu yaxalaya bilmədi amma, başqa İraq valisi Yusif ibn Ömər əs Səqəfi Əbu Mənsuru həbs edib, asdırdı.
📚H.Atay, eyni mənbə, səh 46; el-Kummi, 46-47; Nevbahti 34; Eşari, "Makalat", 1/74-75

əl Qummi Əbu Mənsurun ölümündən sonra tərəfdarlarının iki firqəyə ayrıldığını yazır:

a) Birinci firqəyə görə imamlıq Əbu Mənsurdan oğlu Hüseynə keçmiş və bir daha Əli ibn Əbu Talibin soyuna keçməyəcəkdir. Bunlara Hüseyniyyə firqəsi deyilirdi. Bu şəxs atası kimi peyğəmbərlik iddia etmiş və çoxlu tərəfdarlar əldə etmişdi. Lakin, Abbasi xəlifəsi Mehdi tərəfindən yaxalanıb, öldürülmüşdü.

b) Digər firqə Əbu Mənsurun əmanətçi (müvəqqəti) və samit (susan) imam olduğunu, Muhəmməd ibn Əlidən sonra natiq olan imamın Muhəmməd ibn Abdullah ibn Həsən olduğunu iddia edirdi.
📚 H.Atay, eyni mənbə, səh 47; el-Kummi 48, 187,188; Nevbahti 35, Eşari, "Makalat", 76

—Xəttabiyyə:

Bu firqə Əbul Xəttab Muhəmməd ibn Əbu Zeynəb Əcdi əl Əsədi adlı kimsə tərəfindən yaradılmışdı.
Bunlara görə hər əsrdə iki peyğəmbər olmalıdır. Onlardan biri natiq, (danışan) digəri isə samit (susan) olmalıdır. Muhəmməd (s.a.s) natiq, Əli ibn Əbu Talib isə samit idi. Onlar həmçinin, hər biri ayrılıqda ilah idilər.
Bu iddialarına görə Cəfər əs Sadiq onlardan uzaqlaşıb, lənətlədikdə onlar Əbul Həsən Əşariyə görə beş, Növbəxtiyə görə dörd, Makriziyə görə əlli firqəyə ayrıldılar.
📚 H.Atay, eyni mənbə, səh 47; Eşari, 1/75; el-Kummi, 51; Nevbahti 37; Makrizı, "Hitat", 2/352

Onlardan bəziləri aşağıdakılardır:
a) Bu firqəyə görə Cəfər əs Sadiq ilah, Əbul Xəttab da onun peyğəmbəridir.
Onlar zinanı, livatı, oğurluq, içki və bütün haramları mübah görürdülər. Namaz, oruc, zəkat kimi fərzləri isə tərk edirdilər.
Fərzlərin - itaət edilməsi zəruri olan insanların, haramların da qarşı çıxılacaq lənət olunmalı olan insanların adları olduğunu iddia edirdilər.
Onlara görə peyğəmbər olan imamı etiraf edən kimsə istədiyini edə bilər və peyğəmbərlər Əbul Xəttaba itaət etməyi xalqa fərz buyurublar.
İmamların ilah, Hz Hüseynin oğullarının Allahın oğulları olduqlarına etiqad edirdilər.
Cəfər əs Sadiq və Əli ibn Əbu Talibi ilahları qəbul etməklə bərabər, Əbul Xəttabın onlardan daha əzəmətli olduğuna inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 47; Eşari, "Makalat", 1/75
Əbul Xəttab Abbasi xəlifəsi Əbu Cəfər əl Mənsura qarşı üsyan etmiş və Kufə valisi İsa ibn Musa tərəfindən Kufədə (H.143/M.760) öldürülmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 48; Eşari, "Makalat", 76, not 77

b) Muəmmərıyyə:
Bunlar Əbul Xəttabdan sonra Muəmmər adında birinin imam olduğunu iddia etdilər və Əbul Xəttaba pərəstiş etdikləri kimi ona da pərəstiş etdilər. Onlar ruhların köçünə (tənasüh) etiqad edir, içki, zina və digər haramları mübah (icazəli) görür, fərzləri tərk edir, qiyaməti isə inkar edirdilər.
Bunlar Cəfər əs Sadiqin Allah və vasilərin (imam) bədənlərinə girən bir nur olduğunu, bu nurun imam Sadiqdən çıxıb, Əbul Xəttaba girdiyini və ondan da çıxıb, Muəmmərə girdiyini iddia edirdilər.
Onlar Cəfər əs Sadiq və Əbul Xəttabın mələklərə qarışdığını və Muəmmərin də ilah olduğunu iddia edirdilər.

📚 H.Atay, eyni mənbə, səh 49;Nevbahti, 39-41; el-Kummi , 53-54

c) Bəziğiyyə:
Bəziğ ibn Musanın qurduğu bu firqə mənsubları Bəziğin də Əbul Xəttab kimi Cəfər əs Sadiq tərəfindən peyğəmbər göndərildiyini iddia edirdilər.
Lakin, Əbul Xəttab və adamları Bəziği qəbul etmirdilər.
Bunlar ağıllarına gələn hər şeyin vəhy olduğuna inanırdılar. Cəfər əs Sadiqin ilah olduğuna, onun cisminin isə Allahın surəti olduğuna inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 48-49; Nevbahti, 38; el-Kummi 54; Eşari, "Makalat", 77; "el-Fark", 151; et-Tabsir 74

d) Umeyriyyə:
Bunlar Umeyr ibn Bəyan əl İclinin tərəfdarları idilər. Onlar Bəziğiyyənin imamların ölməyəcəyi iddialarını qəbul etmir, hər kəsin öləcəyinə inanırdılar. Öləndən sonra yeni peyğəmbər, imamlar gələcəyini iddia edirdilər.
Yağmurilər Cəfər əs Sadiqə ibadət etdiyi kimi bunlar da ona ibadət edir və onu özlərinə rəbb bilirdilər. Kufənin "Kunəsə" məhəlləsində qurduqları çadırda imam Cəfərə ibadət etmək üçün toplanırdılar.
Kufə valisi Zeyd ibn Ömər ibn Hubeyr Umeyr ibn Bəyanı tutmuş, edam etmiş və bir qisim tərəfdarlarını həbs etmişdi.
📚 H.Atay, eyni mənbə, səh 50; Eşari, "Makalat", 1/78; "el-Fark", 152; İsferayini, "Tabsir", 74

e) Mufəddəliyyə:
Bunlar Mufəddəl adında zərgər olmuş bir nəfərin ardıcıllarıdır. Xəttabiyyənin digər qolları kimi bunlar da Cəfər əs Sadiqin ilahlığına etiqad edirdilər.
Əbul Xəttabdan təbərri edir, peyğəmbərliyi özlərinə nisbət edirdilər.
📚H.Atay, eyni mənbə, səh 50; Eşari, 1/78; "Tabsir", 74; "el-Fark", 152

f) Muhəmmisə:
Bunlar Muhəmmədin (s.a.s) daima Adəm, Nuh, İbrahim, Musa, İsa və s. peyğəmbərlər olmaqla başqa millətlər və ərəblər içərisində müxtəlif surətlərdə, kisra və kralların cismində zühur etdiyinə etiqad edirlər....
📚H.Atay, eyni mənbə, səh 50; el-Kummi 56

g) Əlbaiyyə: (Əlyaviyyə)
Bunlar Dıra ibn Əlbanın (Devsi) tərəfdarları olub, Hz Əlini Peyğəmbərdən (s.a.s) üstün tuturdular. Kimisi Əlini, kimisi də Peyğəmbəri (s.a.s) ilahlıqda önə keçirir.
Muhəmməd (s.a.s) Əli ibn Əbu Talib, Həsən, Hüseyn, Fatiməni ilah bilir və hamısını bir varlıq hesab edirdilər.
Bu firqədən olan Bəşşar Şairi (H.180/M.796) Əli ibn Əbu Talibin ilah olduğunu və qulları olan peyğəmbərləri Muhəmmədin surətində göndərdiyini iddia edirdi.
📚H.Atay, eyni mənbə, səh 51; el-Kummi 59, 191

Bəşiriyyə: (Bişriyyə)
Bunlar Əsəd oğullarının kölələrindən olan Kufəli Bəşir ibn Muhəmmədin adamlarının təşkil etdiyi firqədir.
Hz Muhəmmədin (s.a.s) ilah olduğunu, hər şeyə təcəlli edə biləcəyini, doğmayıb, doğulmadığını ortaya atdılar.

Sehrbaz və gözbağlayıcı olan Bəşir ibn Muhəmməd özünün peyğəmbər olduğunu, imam Musa ibn Cəfərin ölməyib, həbs edilmədiyini, yalnız qeybə çəkilib, gizləndiyini və onun gözlənilən Mehdi olduğunu iddia edirdi. Bu şəxs Albaiyyə məzhəbindən olub, göz bağlayıcılıq etdiyi üçün öldürülmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 52; el-Kummi, 60,62-63

— İmamətin Abbas oğullarına keçməsi:

Hicri 98-ci ildə Əməvi xəlifəsi Süleyman ibn Əbdulməlik Hz Əlinin oğlu Muhəmmədin (Hənəfiyyyə) oğlu Abdullah Əbu Haşimi yanına dəvət etdi. Ona hədiyyələr verib, hörmət göstərdi.
Lakin, xalqı ətrafına toplayar qorxusu ilə onu öldürməyi planlaşdırdı. Onu Şam tərəflərdə Humeymə kəndinə göndərərkən, yolda zəhərlədi.
Peyğəmbər (s.a.s) əmisi Hz Abbasın soyundan gələn Muhəmməd ibn Əli ibn Abdullah bu kənddə sürgündə saxlanılırdı.
Əbu Haşim ölümünün yaxınlaşdığını gördükdə, Hz Abbas soyundan gələn Muhəmmədə imamlığı vəsiyyət edib, Haşim oğullarının propaqanda sirrlərini ona verdi. Bu hadisə Abbas oğullarının imamətdə ortaq və iddialı olmalarına gətirib çıxardı.
Əbu Haşimin imaməti Hz Əli soyundan Hz Abbas soyuna ötürməsinə aşağıdakı səbəblər göstərilir və bu hadisənin nəticələri:

a) İmamətin Hz Əli soyundan gələn üç nəfərin haqqı olduğuna şiələr iman etmişdilər. Onların oğullarının imaməti baradə isə şiələr üç firqəyə bölünmüşdülər. (hər bir firqə bir imamın oğullarını qəbul edirdi)
Hz Həsən, Hz Hüseyn və Hz Muhəmmədin üçüdə Hz Əlinin oğulları idi.
Əbu Haşim ibn Muhəmmədin imamətdən Abbas oğullarının lehinə imtina etməsi Həsən və Hüseynin soyundan gələnlərin yəni, bütün Əli soyundan gələnlərin imamətdən əl çəkməsi mənasına gəlmirdi.

b) Əbu Haşimin Abbas oğullarının lehinə imamətdən vaz keçməsinə qədər olan dövrdə Əli və Abbas oğulları ortaq düşmənləri Əməvilərə qarşı birlik, dostluq və qardaşlıq şəraitində əməkdaşlıq edirdilər.
Əbu Haşimin Muhəmmədə imamlığı vəsiyyət etməsinin səbəbini bir çoxları Hz Əli soyundan heç kəsin o zamanlar ağır imamət yükünü daşımağa hazır olmadığı şəklində izah edirdi. Lakin, bu ayrıca təhqiqat mövzusudur.

c) Abbas oğullarından Muhəmməd uzaqgörən, müdrik şəxs kimi təbliğat və propaqandanın əsaslarını tərtib etmişdi.
Tərəfdarlarına heç bir konkret adamın adını çəkmədən ümumən əhli beytə dəvət edilməsini tapşırmışdı. Çünki, konkret şəxs bilindikdə o Əməvilərin hədəfinə çevrilə bilərdi. Həmçinin, Əli tərəfdarlarını özünə qarşı qaldırmamış olurdu.
İkincisi, o heç bir firqə və məzhəbin maraq göstərmədiyi, uzaq Xorasanı özünün propaqanda mərkəzi seçmişdi.
Muhəmməd Əməvi xəlifəsi Ömər ibn Əbduləziz zamanında xüsusi adamlar seçib, əsas bölgələrə, xüsusən Xorasana propaqanda aparmaq məqsədi ilə göndərmişdi.
Muhəmməd öldüyü zaman (H.125/M.742) imamlığı oğlu İbrahimə vəsiyyət etdi.

İbrahim Abbasi dəvətinin rəisi olaraq Humeymdə yerləşmişdi. O, Əbu Muslim Xorasanini dəvətin rəhbəri olaraq Xorasana göndərdi. İbrahimin planları son Əməvi xəlifəsi Mərvan ibn Muhəmmədə (H.132/M.749) çatdıqda, onu həbs etdirdi və İbrahim həbsdə olarkən öldü. İbrahimin Əbu Muslimə yazdığı bəzi məktublar Mərvanın əlinə keçdiyinə görə o yaxalanmışdı. O, öldürüləcəyini anlayınca qardaşı Əbul Abbas Abdullah ibn Muhəmmədi yerinə vəsiyyət etdi. Bu xəbər Humeymdə yaşayan Əbul Abbasa çatınca o yanında qardaşı Əbu Cəfər əl Mənsurla bərabər Kufəyə hərəkət etdi.
📚 H. Atay, eyni mənbə, səh 53; el-Kummi 196

Əbul Abbas Kufədə (H.132/M.750) ilk Abbasi xəlifəsi olub, gənc yaşında (32 yaş) çiçək xəstəliyindən vəfat edərkən, yerinə qardaşı Əbu Cəfər Abdullah ibn Muhəmmədi (əl Mənsur) vəsiyyət etdi.
İkinci Abbasi xəlifəsi olan Əbu Cəfər əl Mənsur siyasi, şəxsi və s.şübhələrindən dolayı Əbu Muslimi öldürdükdən sonra (H.137/M.754) onun tərəfdarları intiqam almaq üçün üsyanlar təşkil etdilər.
Həmçinin, müsəlmanlara qarşı keçmiş dinlərini bərpa etmək adına mücadilə edən müxtəlif əqidəli firqə və camaatlar Əbu Muslimin öldürülməsindən sonra intiqam almaq və siyasi tələblər irəli sürməklə meydana atılmışdılar.

— Abbasi tərəfdarları (şiəsi) üç firqəyə ayrıldı:

1 - Əbu Muslimiyyə:
Xorasanlı Əbu Muslimin öldürülməsindən (H.137/M.754) sonra onun bəzi tərəfdarları bu firqəni qurmuşdular. Onlar onun imam olduğunu söyləmiş, ölmədiyini, öldürülmədiyini və diri olduğunu iddia etmişdilər.
Haramları mübah sayıb, bütün fərzləri tərk etdilər və imanın sadəcə imamı bilmək olduğunu söylədilər. Onlar Allahın ruhunun Əbu Muslimə girməsiylə tanrı olduğunu və onun mələklərdən üstün olduğuna etiqad edirdilər.
📚H.Atay, eyni mənbə, səh 55; Kummi 64; 195; Nevbahti 41,42; Eşari 1/94
Deyilənə görə Əbu Muslim öncələri Keysaniyyə məzhəbində olub, onların dəvət, propaqanda metodlarını öyrənmişdi. O, imam Cəfəri Sadiqə xəbər göndərmiş, əhli beytə dəvət etdiyini, əgər razı olarsa onun adından bu dəvəti aparacağını bildirmiş və ondan izn istəmişdi.
Cəfəri Sadiq ona "sən mənim adamım deyilsən və zaman da mənim zamanım deyil" deyincə, o imam İbrahimə gedib, onun əmrinə girmişdi.
📚H.Atay, eyni mənbə, səh 55; Hasan, "Tarih el-İslam", 2/15-17

2— Rizamiyyə:
Bunlar Rizam ibn Sabiqin tərəfdarları olub, Mərv şəhərində fəaliyyət göstərirdilər və Əbu Muslimə aşırı dərəcədə bağlı idilər.
İmamətin Əbu Haşimdən vəsiyyət yolu ilə Abbasilərdən Muhəmmədə, ondan oğlu İbrahimə, sonra onun qardaşı Əbul Abbas Abdullaha və ondan da Əbu Muslimə keçdiyinə və onun da öldüyünə inanırdılar.
Bunlar haqqında Xorasanda Əbu Muslimin zamanında ortaya çıxdığı və Əbu Muslimin də bu məzhəbdən olduğu deyilir. Onlar Allahın ruhunun Əbu Muslimə keçdiyini, bu ruhla Əməviləri məğlub etdiyini iddia edir və ruhların köçünə inanırdılar.
📚H.Atay, eyni mənbə, səh 56; Kummi 64, 195, Nevbahti, 42; Eşari, "Makalat", 1/94; "el-Fark", 155; Şehristani, 205, İsferayini 76

Rizamiyyənin əsli Keysaniyyədir və bu firqənin təsiri ilə zaman-zaman ortaya çıxmış üsyançı firqələr aşağıdakılardır:

a) Muğannaiyyə: (Mubayyidilər - ağ paltarlarlılar)
Orta Asiyada siyasi və dini sahədə böyük təsirə malik olmuş Muğanna inancı və təriqəti miladi 8-ci əsrin ikinci yarısında ortaya çıxdı. Muğanna sözü örtülü, bağlı mənasına gəlir və bu təriqətin ardıcıllarına Mubayyidilər (ağ paltarlılar) deyilirdi.
Muğanna xəstə görünüşlü, bir gözü kor, keçəl və qısa boylu bir şəxs idi.
Çox çirkin olduğuna görə başını və üzünü yaşıl ipək bir örtük ilə bağlayardı. Bəzi qaynaqlara görə o üzünü qızıl maska ilə örtürdü. Muğanna tək gözlü filosof və örtülü (peçəli) saxtakar olaraq da tanılırdı. O, əslən Bəlxli və bəzilərinə görə Abbasi xəlifəsi Mənsurun zamanında Xorasan əmirinin yardımçılarından olmuş Hakimin oğlu idi.
Muğanna əvvəllər paltar təmizliyi ilə məşğul idi. Sonralar çoxlu elmi kitablar oxudu və bir çox elmlə maraqlandı. Həmçinin, ruh çağırma, sehr, tilsim, kəhanət məsələləri ilə də çox maraqlanırdı. Muğanna Əbu Muslimə inanan və onun öldürülmədən öncə imam olduğunu qəbul edən Rizamiyyə təriqətinə bağlı idi. Bəzi qaynaqlara görə o Xorasan valisi Əzdi zamanında (758-759) onun vəziri olmuşdu. Bəzi kəhanət və sehr işlərinə görə xəlifə Mənsur onu Bağdadda həbs etmişdi. Azadlığa çıxdıqdan sonra Mərv şəhərinə geri qayıtdı və bir müddətdən sonra özünü ilah elan etdi.
İnancını missionerləri vasitəsilə müxtəlif bölgələrdə yaymağa müvəffəq oldu. Xüsusilə, Kiş bölgəsi xalqının bir çoxu bu təriqətə keçdi və ilk dəfə Subah adlı kənd camaatı bu inancı qəbul etdiyini elan edərək, Amri Subhi liderliyində üsyan hərəkatı başlatdı.
Bölgənin ərəb əmiri öldürüldü, Buxara, Suğd bölgəsinin bir çox məntəqəsi Muğannanın inancını qəbul etdi. İlaq bölgəsi də bu yeni inancı qəbul etdi, qarət məqsədi ilə karvanlara və yaşayış məntəqələrinə basqınlar oldu.
Xorasan valisi Humeyd ibn Qahtabə onu yaxalamaq istədi. Lakin, o bir müddət gizləndikdən sonra adamlarıyla birlikdə Ceyhun çayını keçərək, onun tərəfdarlarının çox olduğu Kişə getdi.
Türk xaqanı ilə yazışdı, ondan yardım istədi. Mubayyidilər (ağ paltarlılar) və paqan türklər onun ətrafında toplandılar.
Abbasilərin simvolu qara idi və onlar qara rəngdə geyinirdilər. Abbasilərə üsyan edən Muğanna tərəfdarları ağ geyindiklərindən onlara Mubayyidilər deyilirdi.
Kişdə Sam vəya Siyam deyilən dağda içində axan suyu, ağacları və münbit ərazisi olan çox güclü bir qala kompleksi var idi.
Eyni bölgədə bu qaladan da güclü digər bir qala vardı. Muğanna bu qalanı daha da möhkəmləndirdi, ətrafinda xəndəklər qazdırdı. Qalada çoxlu mal-dövlət, ona inanan Suğd xalqından və Halaç türklərindən çoxlu insanlar yaşayırdı.
Mubayyidilər getdikcə çoxaldılar və xəlifə əl Mehdi (775-785) zamanında Bağdada qədər irəlilədilər.
Muğanna türklərə müsəlmanların qanını və malını halal etmişdi. Ona görə də qənimət ümidi ilə Türkistandan bir çox ordular ona qoşulmuşdular.
Onlar müxtəlif bölgələri qarət etdikdən sonra qadın və uşaqları əsir götürüb, yerdə qalan insanları öldürürdülər.
Xəlifə Mehdi zamanında xüsusilə Buxara və Səmərqənd bölgələrində miladi 775-778 illəri arasında Mubayyidilər, türklərlə müsəlmanların ağır müharibələri yaşandı. Hər iki tərəf qarşılıqlı qələbə və məğlubiyyətlər yaşadı.

Bu müharibələr arasında müəyyən şərtlər çərçivəsində qısa sülh sazişləri bağlansa da hər dəfə Mubayyidilər sazişi pozub, basqınlar edirdilər. Sonunda Herat əmiri Səid böyük bir ordu ilə Muğannanın qalasının yanına qədər irəlilədi və orada düşərgə qurdu. Qalada onun ən yaxın adamları, qadınları və güclü ordusu var idi. Burada Muğannanın xüsusi iqamətgahı vardı. Orada o qadınları ilə hər gün yeyib, içərdi. Bu mühasirə şəraitində o on dörd il yaşadı. Herat əmiri davamlı şəkildə təzyiq edirdi və sonda Muğannanın adamlarından biri təslim olaraq, qalanın qapısını açdı. Qalada olan əsgərlər dağıldı, Muğanna dayana bilməyəcəyini anlayınca qadınları zəhərləyib öldürdü, köləsinin başını kəsdi və yanan təndirə özünü atıb, intihar etdi.
Muğannanın inancı orta Asiyada 12-ci əsrə qədər davam etdi.
O, özündə Allahın ruhu olduğunu, bu ruhun Adəm, Nuh, İbrahim, İsa, Muhəmməd, Əbu Muslim və ən sonda onun bədənində təcəlli etdiyini və özündən başqa da ilah olmadığını iddia edirdi.
Muğanna insanları ələ almaq və inandırmaq üçün saxta möcüzələr və sehrlər göstərərdi.
Xürrəmilərin ənənəsinə bağlı olan Muğanna təriqətinin özü Məzdək inancının prinsiplərini mənimsəmişdi.
6-cı əsrdə Zərdüştlükdə islahat edən Məzdəkin qurduğu inancın təməl prinsiplərinə görə bütün mallar və qadınlar ortaq bölünməli idi. Muğannaya bağlı Mubayyidilər (ağ paltarlılar) qadınlarının başqaları ilə birlikdə olmalarına izn verirdilər.
Onlar müsəlmanlarla birlikdə yaşayır, onlar kimi görünür və inanclarını gizlədərdilər.
Kəndlərində məscid olsa da orada ibadət etməzdilər.
Onlara görə bütün haramlar mübah idi.
Kəndlərində müəyyən günlərdə gizli məclislər keçirərdilər. İnanclarına görə Allah bir mesaj vermək istədikdə vəya insanları yönəltmək istədikdə bir insan cildinə girərdi. Əbu Muslimin qızı Fatimə soyundan gələcək olan Mehdi ibn Firuz ibn İmranın dünyanın sonunda mehdi olaraq ortaya çıxacaqlarına inanırdılar.
📚H.Atay, eyni mənbə, səh 56; İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdeki kökenli ezoterik tarikatlar", səh 70-72; el-Fark 155; Tarih Taberî, 6/ 367, 674; ibn Hallikan, "Vefayet", 3/263-265, 2/155; Zehebi,
"Şezerat", 1/248; İsferayini, "et-Tabsir", 76; Şehristani 206; el Kummi 195

b) Babəkiyyə:
Bu Babək Xürrəminin qurduğu bir furqədir. Bəzi tarixçilər Babəkin Əbu Muslimin soyundan gəldiyini yazır. Lakin, ibn Nədim "Fihrist" kitabında Babəkin həyatı haqqında başqa və uzun bir hekayə nəql edir.
📚H.Atay, eyni mənbə, səh 57; "ibn Nedim, el-Fihrist", 494-496
Babəkin üsyanı Muğananın üsyanının bir növ davamı idi və məqsədləri Abbasilərdən Əbu Muslimin intiqamını almaqdı.
Xürrəmilərin rəhbərlərindən olan Cavidan öləndə Babək onun xanımı ilə evlənib, onun yerinə keçdi. İnanclarına görə Cavidanın ruhu Babəkin bədəninə girmişdi və ona itaət insanlara fərz qılınmışdı.
Abbasi xəlifəsi Məmun Mərvdə olarkən Babək insanları yoldan çıxartmaqda idi. Xürrəmilər bütün haramları mübah sayır, insanları ilahlaşdırır, qulat şiələrin inancı rəcata (dünyaya təkrar dönüş) və ruhların köçünə (reankarnassiya) inanırdılar...
📚H.Atay, eyni mənbə, səh 57; Hasan İbrahim Hasan, "Tarih", 2 /110

Sultan Məlikin vəziri olmuş, böyük alim Nizamülmülk məşhur "Siyasətnamə" kitabında yazır:

"Bunlar (xürrəmilər) namaz, oruc, həcc və zəkat kimi dini fərzlərin hamısını rədd etmiş, şərabı, haram şeyləri və qadınları ortaq mal kimi istifadə etməyi mübah görürdülər. İnsan bunları Məzdəkin prinsipləri olduğunu zənn edər. Bunların etmək istədikləri tək şey İslamı ortadan qaldırmaq idi. Əhli beyti insanları özlərinə cəlb etmək üçün vasitə etdikləri halda onlara qarşı mərhəmət göstərməmişdilər. Təbliğatları ilə İslamı yıxmağa çalışmışdılar və Xürrəmiyyə ilə Batinilər eynidir.
📚 H.Atay, eyni mənbə, səh 57; H. İbrahim Hasan, 2/110

Xürrəmilərin Azərbaycan, Ermənistan, Təbəristan, Deyləm, Cürcan, Həmədan və Dinavar bölgələrində tərəfdarları qırmızı rəngdə geyindiklərinə görə onlara Muhammira (qırmızı) deyilirdi. Bunlar Babəkiyyə və Məzyariyyə olaraq ikiyə ayrılmışdılar.
Babək daha öncə Xürrəmi inanclarından fərqli olaraq öldürmə, şiddət və savaş kimi təlimləri tərəfdarlarına aşıladı. İnanclarına görə bütün yasaqlara izn verilmişdi. İnsan və heyvan ruhlarının ölümdən sonra başqa bədənlərə keçib, yaşadıqlarına inanırdılar. Onlar ana, bacı və qızları ilə evlənirdilər. Ona görə ərəblər bu inanca "fərc" dini də deyirdilər.

c) Məzyəriyyə:
Muhəmmiranın digər bir qolu isə Məzyarın (öl.839-840) rəhbərliyi altında Məzyərilər idi. Bunlar Babəkin ölümündən (öl.838) sonra Məzyərın başçılığı altında 838-840-cı illərdə Təbəristanda üsyan etmiş, Məzyər yaxalanaraq, Samarrada edam edilmişdi.
Onların ortaya çıxdığı və güclü olduğu yer Babəkin öldürülməsinə qədər Xəzər dənizinin cənubundakı Təbəristan bölgəsi idi. 11-ci əsrin başlarında isə sadəcə Gürcan bölgəsində yaşayırdılar.
Yaşadıqları dağda Babəkiyyələrə həsr edilən bir festival təşkil edərdilər. Qadın və kişilərin toplandığı bu festivalda mahnı oxuyub, şərab içərdilər.
Şamlar, məşəllər söndüyündə isə kişilər qızların bakirəliyini pozardı.
Onlar atası həbəşli, anası İranlı bir şahzadə olan əfsanəvi Şirvini bütün peyğəmbərlər və insanlardan ən üstün insan hesab edirdilər.
Görünüşdə müsəlman kimi görsənsələr də gizlində fərqli rituallar və mərasimlər keçirərdilər..."
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli batini tarikatlar",səh 73; Belazuri, c. 2, 46-48; Nizam al-Mulk, 239-243; Bağdadi, 88-90; İbnü'l Esîr, VI. 284, 388-392; Taberî, səh 135,174

d) Hureyriyyə:
Bunlar Rəvəndli Əbu Hureyrənin adamlarının təşkil etdiyi firqədir. Təbərinin ifadəsinə görə bunlar Əbu Muslimin fikrində olub, ruhların köçünə və Əbu Cəfər Mənsurun ilah olduğuna etiqad edən zümrə idi.
Abbasi xəlifəsi Əbu Cəfər əl Mənsurun sarayına gəlib və "bu Rəbbimizin sarayıdır" deyib onu təvaf edərdilər. Mənsur bunların iki yüz nəfərini həbs etmiş (H.141/M.758) və sonra onların haqqından gəlmişdi.
📚 H. Atay, eyni mənbə, səh 59; Taberi, 6/147, 149

Həsən İbrahim Həsən "İslam tarixi" kitabında (2/105) yazır:
"Bunlar Əbu Cəfərə sitayiş edib, onun inşa etdiyi qübbəyə çıxıb, özlərini oradan atdılar. Bir qismi xalqın arasına çıxıb, Əbu Cəfərə "sən, sən yəni, sən Allahsan" deyə qışqırırdılar.

Əbu Cəfər din və dövlət naminə bunlarla savaşdı və Əbu Muslim kimi onları siyasi düşmənləri sayırdı. Hər nə qədər Mənsur onları öldürmüş və təqib etmişsə də onların kökləri qurumamış, sonrakı üsyanlarda başqa adlarla ortaya çıxmışdılar."
Bağdadiyə görə bunlar insanların deyil, Allahın ruhunun köç etdiyinə (tənasüh) etiqad edirdilər.
📚" H.Atay, eyni mənbə, səh 59; "el-Fark", 163
Növbəxti və Qumminin ifadələrinə görə bunlar sırf Abbasilərin tərəfdarı (şiəsi) olub, imamətin Hz Peyğəmbərin əmisi Abbasın haqqı olduğuna inanırdılar.
Sələflərinin küfrə girdiyini söyləməkdən çəkinir, Əbu Muslimi dost bilib, onu ucaldardılar. Lakin, Abbas və soyu haqqında ifrata varırdılar.
📚 H.Atay, eyni mənbə, səh 60; Kummi 65, 196; Nevbahti 42

Növbəxti və Qummiyə görə xəlifə Mənsurdan sonra xilafətə keçən Muhəmməd Mehdinin (M.158-169) xilafəti zamanında Abbasilər artıq imamətin özlərinə Hz Əli soyundan deyil, ulu babaları peyğəmbər əmisi Abbasdan varis olması səbəbi ilə onlara keçdiyini iddia etməyə başladılar.
Bu nəzəriyyəyə görə imamət aşağıdakı silsilə ilə gəlmişdir:
1-Hz Abbas
2-Abdullah ibn Abbas
3-Əli ibn Abdullah
4-Muhəmməd ibn
5-İbrahim ibn Muhəmməd
6-Abdullah Əbulabbas ibn Muhəmməd (Səffah-İbrahimin qardaşı)
7-Abdullah Əbu Cəfər əl Mənsur (İbrahimin digər qardaşı)
8-Əbu Cəfər əl Mənsurun oğlu Muhəmməd Mehdi.
📚 H.Atay, eyni mənbə, səh 63

Hz Hüseynin oğlu Əli Zeynəlabidin (H. 94/M.712) vəfat etdikdən sonra imamət baradə onun tərəfdarları (şiələr) arasında iki ana firqə ortaya çıxmışdı:
A) Əli Zeynəlabidinin oğlu Muhəmməd Baqirə tabe olanlar - Baqiriyyə.
B) Digər oğlu Zeydə tabe olanlar - Zeydiyyə.

Zeydiyyə:

Zeydiyyə məzhəbinə görə imamlıq silsiləsi Zeydə qədər belə olmuşdur: Əli ibn Əbu Talib xəlifə olduğu zaman imam olmuşdu. Sonra Hz Hüseyn Yezidə beyət etməyib, üsyan edincə ölənə qədər o imam olmuşdur. Ondan sonra onun nəvəsi Zeyd imamlığa keçmişdir. Onlara görə Əli - Fatimə soyundan olub, qılınc çəkib, imamlığını elan edən kəs imam sayılır.
Hz Həsən və Zeynəlabidin qılınc çəkib, imamlıqlarını elan etmədiklərinə görə imam sayıla bilməzlər.
İmam Zeyd Hz Əli və Fatimə soyundan gələn, anası cariyə olan səlist, iti nitqi olan, cəsarətli bir gənc idi.
Əməvi xəlifəsi Hişam ibn Əbdulməlikin dövründə Zeyd ibn Əli nüfuzlu şəxs olduğundan xəlifənin casusları tərifindən izlənilirdi. Bununla belə ona toxunulmurdu. O, Hişamın sarayında olmuş və onunla söhbətlər etmişdi. Hişamın casusları onu getdiyi hər yerdə izləyirdilər. Bu arada şiələrin Zeydin yanına gedib-gəldiyi müşahidə olunurdu və onlar Zeydi üsyana təşviq edirdilər. Şiələr özlərinin Zeydə bağlı olduqlarına dair qətiyyətli sözlər verir,and içirdilər və sayılarının altmış minə yüksəldiyini bildirirdilər.

Buna baxmayaraq, Zeydin qohumları və xüsusən qardaşı Davud Zeydi xəbərdarlıq edir, babasına, əmisinə, Həsənə və Əli ibn Əbu Talibə necə sözlər verilib, sonra qaçdıqları ona xatırladırdı.
Buna cavab olaraq, Zeydi üsyana təşviq edənlər Davudu qısqanclıqda ittiham etdilər. Nəhayət, Zeyd hərəkətə keçməyə qərar verir və Kufəyə gedir.
📚 H.Atay, eyni mənbə, səh 65; Taberi, 5/488

O zaman İraqın valisi məşhur Həccacın əmisi oğlu Yusif ibn Ömər idi. Xəlifədən gələn təlimatlar və öz məlumatları əsasında Zeydi izləməyə başlayır amma, onu yaxalaya bilmir. Zeyd üsyana hazırlaşan ərəfədə İraq valisinin adamları Zeydin adamlarının arasına fitnə salır və üsyandan bir gün öncə tərəfdarlarına belə suallar ünvanlayır.
Şiələrdən bir dəstə ona belə dedilər:
— "Allah səni bağışlasın! Əbu Bəkr və Ömər haqqında fikrin nədir?"
— Zeyd dedi: "Allah hər ikisini bağışlasın və onlara rəhmət etsin. Ailəmdən kimsənin onlardan təbərri etdiyini və onlar haqqında pis söz dediyini eşitməmişəm."
— Şiələri dedilər: "O halda ailənin intiqamı yoxsa əldən çıxan səltənət üçün qiyam edirsən?"
— Zeyd: Dediyinizdən də ağır olanı sizə söyləyəcəm. İnsanlar içərsində Hz Peyğəmbərin (s.a.s) hökmranlıq haqqına biz daha çox layiqik. Onlar bizdən bunu aldılar və bizi tərk etdilər. Amma, onlar Quran və Sünnət ilə insanlar arasında ədalətlə hökm etdiyi müddətcə hökmün onların əlində qalması bizə görə küfr olmaz.
— Şiələr: "Bunlar sənə zülm etmədi və sənə zülm etməyən kimsələrlə savaşmanın mənası nədir?"
Zeyd: "Bunlar mənə, sizə və özlərinə də zülm edən kimsələrdir. Biz sizi Allahın kitabına, peyğəmbərin sünnətinə, sünnətlərin dirildirməsinə, bidətlərin qaldırılmasına çağırırıq. Dəvətimizə icabət etsəz xoşbəxt olarsız, imtina etsəz sizə qarşı öhdəliyim yoxdur."
Bundan sonra onlar Zeyddən ayrıldılar, beyəti pozdular və belə dedilər: "Halbuki, imam vardı, buna niyə gəldik?!
İmamız Zeydin indi həyatda olmayan qardaşı Muhəmməd Baqirin oğlu Cəfərdir. Atasından sonra imamlığa o layiqdir və o bizim imamımızdır, Zeyd isə imam deyil."
Buna görə Zeyd onlara "rafiza" (rədd edənlər) adını verdi...
Zeyd hələ hərəkətə keçməmişdən öncə şiələrdən bir qrup Cəfər ibn Muhəmmədin (imam Sadiq) yanına gedib, "Zeyd bizdən beyət alır, nə deyirsiz" dedikdə Cəfər onlara belə demişdi: "Gedin ona beyət edin. O, bizim ən yaxşımız, ən fəzilətlimiz və böyümüzdür."
Lakin, onlar bunu gizlədilər. Nəhayət, Zeyd yoldaşları ilə birlikdə (H.122/M.740) səfər ayının ilk çərşənbə günü üsyan etdi və üç gün sonra cümə günü öldürüldü. Beləliklə, onun üsyanı yatızdırıldı və o öldüyü zaman 43 yaşında idi.
📚 H.Atay, eyni mənbə, səh 67; Taberî, 5/498-499, 504-505; İbn Hallikan, 5/120, 122; Kummi, 7
Zeyddən sonra oğlu Yəhya ibn Zeyd təqibdən gizlənərək, Xorasana gedir və bir neçə məntəqə dəyişdikdən sonra hicri 115-ci ildə tərəfdarları ilə birgə orada öldürüldü. Təbəri onun qəfil hücum nəticəsində öldürüldüyünü qeyd etsə də digər alimlər onun üsyan nəticəsində öldürüldüyünü yazmışdılar.
📚 H.Atay,eyni mənbə səh 68; Mesudi, "Muruc ez Zeheb", 1/167; İbn Hallikan, "Şezerat", 5/123, 6/111
Qummi və Növbəxti Yəhyadan sonra imamətin qardaşı İsa ibn Zeydə, sonra da Muhəmməd ibn Abdullah ibn Həsən ibn Həsənə keçdiyini nəql edirlər.
📚 H.Atay, eyni mənbə, səh 68; el-Kummi 74; Nevbahti 51

Hicri 145-ci ildə Hz Həsənin soyundan olan Abdullahın oğlu Muhəmməd özünü gizli şəkildə imam elan etdikdən sonra qiyam qaldırdı. Onun qardaşı İbrahim də plana görə eyni zamanda Bəsrədə üsyan qaldırmalı idi. Lakin, işlər istədiyi kimi getməmiş, Muhəmməd Mədinədə iki ay, on yeddi gün müqavimət göstərəndən sonra öldürülmüşdü.
📚 H.Atay,eyni mənbə, səh 70; Taberî, 5/230
Bu Hz Əli soyundan gələnlərin Abbasilərə qarşı ilk üsyanı idi. Bu Muhəmməd çox dindar, hər kəs tərəfindən sevilən, elm, fəzilət sahibi və səxavətli olduğundan "Muhəmməd Nəfsuz-zəkiyyə" yəni, ruhu təmiz ləqəbi ilə tanınmışdır.
📚 H.Atay, eyni mənbə, səh 70; Eşari, "Makalat", 1/145; Hasan İbrahim Hasan 2/124-129
Muhəmməd digər qardaşı İdrisi Afrikaya göndərmişdi və gələcəkdə onun soyundan gələnlər Afrikada İdrisilər dövlətini quracaqdılar. Muhəmməd Nəfsuz-zəkiyyə öldüyündə 52 yaşında idi. İmam Malik Muhəmməd ibn Abdullaha Mədinədə yardım etmişdi.
📚 H.Atay, eyni mənbə, səh 70; "Şezerat", 1/213; Hasan İbrahim Hasan, 2/130

— Zeydiyyə firqələri:

Carudiyyə:
1) Bunlar Əbul Carudun tərəfdarları idilər ki, onlar Hz Peyğəmbərin (s.a.s) Əli ibn Əbu Talibin imamətini vəsfləri, nişanələri ilə işarə etdiyinə inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 77; Şehristani, 1/212; Bağdadı, "Fark", 30
Yəni, Peyğəmbər (s.a.s) Hz Əlinin adını xüsusi olaraq qeyd etməmiş, ona uyğun olan bəzi vəsfləri çatdırmışdır. Bir insana uyğun gələn xüsusiyyətlər başqa insanda da ola bilər.
İmam Muhəmməd Baqir, Əbul Carud Ziyad ibn Munziri dənizdə yaşayan canavar (şeytan) anlamında "Sərhub" adlandırmışdı. Çünki, o Hz.Əliyə beyət etməyən səhabələri kafir sayırdı.
Onlar Hz Əlidən sonra oğlu Həsən və sonra da Hüseynin imam olduğunu qəbul edirdilər.
Əbul Carudun rəvayyət etdiyi hədislər zəif olduğu üçün tərk edilmişdir.
📚 H.Atay, eyni mənbə, səh 78; "Fark"'ın haşiyesi, 30; İsferayani, "et-Tabsir",16

2) Hz Əlinin vəsiyyətlə imam olduğuna inananlar Hz Hüseyndən sonra imamətin bitdiyinə inanırdılar. Onlar Peyğəmbərin (s.a.s) Hz Əli, Həsən və Hüseynin adlarını birbaşa qeyd etməklə imam təyin edildiklərini iddia edirdilər.
Onlardan sonra isə hər hansı bir kimsənin imamlığını iddia etməzdilər.
📚 H.Atay,eyni mənbə, səh 78; "Fıraku'ş-Şia", 54

3) Muhəmməd ibn Abdullah ibn Həsən ibn Həsən ibn Əli ibn Əbu Talibin (Nəfsuz-zəkiyyə) ölmədiyinə, öldürülmədiyinə, geri dönəcəyinə inananlar. Bunlar onun Mehdi olduğunu və dünyanı ədalətlə dolduracağına inanırdılar.
📚 H.Atay, eyni mənbə, səh 78; Bağdadi, "Fark", 31

4) Yaqubiyyə:
Yaqub adında birinə tabe olanların firqəsi olub, Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edirdilər. Ancaq onların xəlifəliyini qəbul etməyənlərdən uzaq olduqlarını deməz, rəcatı (ölülərin dünyaya geri dönəcəyini) inkar edər və bu inanca bağlı olanlardan uzaq durardılar.
📚 H.Atay, eyni mənbə səh 79;Eşari, "Makalat", 1/137, "Fark", 34

5) Naimiyyə:
Bu Naim ibn Yəmən adında birinin qurduğu firqədir. İmamətin Hz Əlinin haqqı olub, Peyğəmbərdən (s.a.s) sonra ən fəzilətli insanın o olduğunu iddia edirlər. Onlara görə ümmət

Əbu Bəkr və Ömər ilk xəlifə seçməklə günah deyil, sadəcə ən yaxşısını seçməməklə səhvə yol vermişdir.
Onlar Osman və Əli ibn Əbu Taliblə müharibə aparanlardan uzaq durar və onları küfrdə ittiham edərdilər.
📚 H.Atay, eyni mənbə, səh 79; Eşari, "Makalat", 1/137

6) Süleymaniyyə, Cəririyyə:
Bunlar Süleyman ibn Cəririn adamlarının qurduğu firqədir. İmamətin seçki yolu ilə, iki ən yaxşı, seçilmiş müsəlmanın seçməsi və beyəti ilə həyata keçməli olduğuna inanırdılar. Onlara görə daha fəzilətli kimsə varkən, daha az fəzilətli kimsənin imam seçilməsi caizdir. Əbu Bəkr və Ömərin xəlifəliyini qəbul edərlər. Süleyman ibn Cərirdən nəql olunduğuna görə Əbu Bəkr və Ömərə beyət səhv olsa belə bu fasiqlik deyil. Sadəcə, ümmət daha üstün olanı tərk etmişdi. O, Osmanı tənqid edildiyi hadisələrə görə küfrdə ittiham edirdi.
📚 H.Atay, eyni mənbə, səh 79; Eşari, "Makalat",
1/135-136; İsferayini 17; Kummi 7
Süleyman ibn Cərir Harun ər Rəşidin müasiri olub, Zeydiyyənin kəlamçılarından sayılırdı. Bunlar Hz Aişə, Zubeyr və Təlhəni Əliyə qarşı olduqlarına görə təkfir edirdilər. Bunlar "bəda" və təqiyyəni qəbul etmirdilər.
📚 H.Atay, eyni mənbə, səh 79; Kummi 8, 141

7) Bətriyyə: (Zeydiyyə)
Bunlar Həsən ibn Salih ibn Həyyin adamlarının qurduğu firqədir. Şəhristani Bətriyyə və Salehiyyə firqələrinin Həsən ibn Həyyə nisbət olunan eyni firqələr olduğunu qeyd edir. Onlara görə Hz Peyğəmbərdən (s.a.s) sonra insanların ən fəzilətlisi və imamlığa ən layiq olan Hz Əli olmuşdur. Lakin, Əbu Bəkr və Ömərin imaməti də məqbul sayılır. Çünki, Əli ibn Əbu Talib imaməti onlara tərk etmiş və məcburiyyət olmadan onlara beyət etmişdi. Əşariyə görə Bətriyyə Hz Əlinin imamətini yalnız ona beyət edildiyi zaman məqbul hesab etmişdir.
📚 H.Atay, eyni mənbə, səh 82; Makalat 1/137
Bağdadi yazır: "Zeydiyyədən olan Süleymaniyyə və Bətriyyə Əbu Bəkr və Ömərı kafir saydıqlarına görə Carudiyyəni təkfir etdilər. Carudiyyə də Süleymaniyyə və Bətriyyəni ilk xəlifələri təkfir etmədiklərinə görə təkfir etdilər.
📚 H.Atay, eyni mənbə, səh 82;" Fark", 34, "Tabsir", 17
Şəhristaniyə görə Bətriyyə digər Zeydi firqələri kimi Hz Həsən və Hüseynin soyundan qılınc çəkən hər kəsi imam hesab edirdi. Eyni zamanda onlara görə iki imamda eyni şərtlər olarsa kimin daha fəzilətli və zahid olduğuna baxılar. Bunlarda da bərabərlik olarsa kimin daha sağlam fikirli və qətiyyətli olduğuna önəm verilər. Bunda da bərabərlik olarsa hər imam olduğu məkanda müstəqil imam olur və ona itaət fərz olur.
Şəhristani yazır: "Dövrümüzdə (imamlar) bunların çoxu təqlidçidir və ictihad etməzlər. Etiqadda Mötəziləni hərfiyyən təqlid edib, onların imamlarını şiə imamlarından daha üstün tuturlar. Fiqhdə Əbu Hənifə, bəzi məsələlərdə isə Şafii məzhəbinə tabe olurlar.
📚 H.Atay, eyni mənbə, səh 82; Şehristani, "el-Milel", 1/217-218

— Baqiriyyə və qolları:

a) İmamətin Əlidən Həsənə, ondan Hüseynə, sonra oğlu Əli Zeynəlabidinə, ondan da oğlu Muhəmməd Baqirə verildiyinə inananlar imam Baqirin ölümünə qədər ona bağlı qaldılar. Çox az kimsə sağlığında ondan ayrıldı. Bunlar da Ömər ibn Rəyaha tabe olanlar idi.

📚 H.Atay, eyni mənbə, səh 89; Kummi 75; Nevbahti 52; "el-Fark", 38
Muhəmməd Baqirin imamlığını qəbul edənlərin bir qismi onun ölümündən sonra Hz Həsənin soyundan gələn Muhəmməd ibn Abdullahın (Nəfsuz-zəkiyyə) imam olduğunu, onun ölmədiyini, Mehdi olaraq geri gələcəyinə etiqad etdilər. Onun qardaşı İbrahim də onun imamətinə insanları dəvət edirdi. Bəsrədə üsyan edəndə Əbu Cəfər Mənsurun ordusu tərəfindən öldürülmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 90; Kummi 76; Nevbahti 54

b) Muğiriyyə: (Muhəmmədiyyə)
Bunlar imam Zeynəlabidin və oğlu Muhəmməd Baqirin ayrı-ayrılıqda Muğirə ibn Səidi imam olaraq vəsiyyət etdiklərini iddia etdilər.
Muğirə İraq valisi olmuş Xalid ibn Abdullah əl Kəsrinin köləsi idi. İfrata varıb, öz peyğəmbərliyini bəyan edib və bunu da Xalidin yanında etiraf edincə, Xalid onu öldürmüşdü.
📚 H.Atay, eyni mənbə, səh 90; Kummi 77; Nevbahti 55
Muhəmməd Baqirin adamları onu rədd etmişdilər və o da onları "rafizi" (rədd edənlər) adlandırmışdı. Muğiranın adamları onun ölüləri diriltdiyinə inanır və ruhların köçünə etiqad edirdilər. Növbəxtinin ifadəsinə görə onun zamanında yəni, hicri 300-cü illərdə onlar mövcud idilər.
İmam Əşari Muğira haqqında ətraflı məlumat vermişdir. O, Hz Əlinin soyunu istismar edən saxtakar və sehrbaz biri idi....Muğiranın adamları Muhəmməd Nəfsuz-zəkiyyənin ölümündən sonra onun xalq arasında olan yüksək nüfuzu və hörmətini istismar edərək, onun Mehdi olduğunu iddia etdikləri güman edilir. Muğiranın Allahı cisim olaraq qəbul etdiyi söylənilirdi.
İmam Əşari və digər firqə yazarları onun haqqında belə yazırlar:
"Allahın uca adını istifadə etməz, məbudlarını başı taclı nurdan bir adam kimi vəsf edər, insanın cisimləri olduğu kimi onun da üzvləri olduğunu iddia edərdilər."
📚 H.Atay, eyni mənbə, səh 90;Taberi 5/456; Eşari, "Makalat", 1/68; el-Kummi 77; "el-Fark", 37
Muhəmməd Nəfsuz-zəkiyyə Mədinədə üsyan edib, məğlub olub, öldürülüncə Muğriyyə mənsubları ikiyə ayrıldı. Mehdi necə öldürülə bilər, o Mehdi olsaydı ölməzdi deyənlər Muğridən ayrıldılar. Digərləri də şeytan Nəfsuz-zəkiyyənin şəklinə girmiş və o öldürülmüşdür deyərək o firqədə qaldılar.
📚 H.Atay, eyni mənbə, səh 91; Eşari 1/73; "et-Tabsir", 73; "el-Fark" 48

— Cəfəriyyə və qolları:

Əbu Cəfər Muhəmməd Baqirin ölümündən (H.114/M.732) sonra tərəfdarlarının bir qismi oğlu Əbu Abdullah Cəfərin imamətini qəbul edib, az kimsə xaric həyatı boyunca onun imamətinə bağlı qaldılar.
Ancaq imam Cəfər oğlu İsmailin imam olmasını vəsiyyət edib və İsmail də atasının sağlığında vəfat edincə Cəfərin imamətini inkar edənlər peyda oldu.
Onlar dedilər ki, əgər o imam olsaydı yalan deməzdi və olmayacaq şeyləri olacaq kimi xəbər verməzdi. Bunlar Cəfərin "Allah fikrini dəyişdirdi" (bəda) sözünü söylədiyini dedilər və bu səfər də bunu inkar edib, bu şey caiz deyil deyərək, Bətriyyə və Süleymaniyyə məzhəbinə keçdilər.
📚 H.Atay, eyni səh 92; el-Kummi 78; Nevbahti 55
İmam Əbu Abdullah Cəfəri Sadiq vəfat etdikdə (H.148/M.765) tərəfdarları altı firqəyə ayrılmışdılar:

A)Navusiyyə:
Bunlara görə Cəfəri Sadiq diridir, ölməyib və ölə bilməz. O, insanların başına keçəcək olan gözlənilən Mehdidir. Həmçinin, onun belə dediyini deyərlər: "Başımın kəsildiyini görsəniz belə inanmayın. Mən sizin sahibiniz və qılınc sahibiyəm."
Bu fikirlərin başında dayanan Əclan ibn Navus adında biri idi. Səbəiyyədən bəziləri ona qoşulmuşdular. Cəfəri Sadiqin dinin əqli və şəri bütün elmlərini bildiyini iddia edirdilər.
📚 H. Atay, eyni mənbə, səh 92; el-Kummi 79-80; Nevbahti 57; Eşari, "Makalat", 1/97; "el-Fark", 61

B)İsmailiyyə:
Tarixdə önəmli iz qoymuş İsmailiyyə firqəsi ümumi olaraq şiəliyə bağlı bir təriqət olsa da içində şiəlik xaricində başqa dinlərdən alınma bir çox təlimlər də daşıyırdı.
İsmaililər eyni zamanda Batiniyyə (Batini), Mübarəkiyyə (Mübarəki), Qərməti (Qaramita), Meymuniyyə və Məzdəkiyyə kimi adlarla da anılırdı. Bu firqənin adı Cəfəri Sadiqin böyük oğlu İsmail ibn Cəfərlə bağlıdır.
Şiələrdən bir dəstə İsmailin ölmədiyini, onun atasından sonra yeddinci, son imam və Mehdi olduğunu, gəlib dünyanı idarə edəcəyinə inanırdılar.
Onun Bəsrə şəhərində görüldüyü, Hz İsa kimi ifliç və kor insanları sağaltdığı əfsanəsi yayılmışdı.
Bir dəstə də İsmailin atasından öncə öldüyünə, ona görə də yeddinci və son imamətin İsmailin oğlu Muhəmməd ibn İsmailə keçdiyinə inanırdılar.
İsmailiyyənin bu firqəsinə əvvəllər Mubarəkiyyə, sonra da Qarmətilər deyilirdi.
Ön iki imami şiələrə görə yeddinci imamət 765-cı ildə ölən Cəfərdən sonra kiçik oğlu Musa əl Kazıma keçmişdi.
İsmailiyyə şiə kimi görünsə də əslində İslam xaricində gizli inanc və təlimləri olan ezoterik bir təriqət idi. Onlar bu vəsflərinə görə Xürrəmi və Batinilər olaraq da adlandırılırdılar.
İlk öncə batini vəsfləri daşımayan İsmaili təriqəti Cəfər əs Sadiqin vəfatından sonra xüsusilə, atasının sağlığında ölən İsmailin oğlu Muhəmmədin imam olaraq qəbul edilməsi ilə batini vəsflərə büründülər.
İsmailiyyə təriqəti İsmailin, sonra oğlu Muhəmmədin xidmətçisi olmuş xoliqrafi ustası Mübarəkin (Qərmət) və onun yoldaşı olmuş bacarıqlı sehrbaz Abdullah ibn Meymun əl Qəddahın (öl.871) dövründə güclü idilər.
Bu dövrdən başlayaraq İsmailiyyə firqəsi müəmma dolu, gizli, batini bir forma almağa başladı.
İsmailiyyədə batinilik təlimi çox güman ki, Qəddahın zamanında yayılmağa başladı. O, İslami və qeyri dini gizli elmləri peyğəmbərdən aldığını iddia edirdi. Qəddah və atası şərqi xristian qnostik təriqəti olan, üçüncü əsrin əvvəllərində süryani Bar Daysan tərəfindən qurulmuş dualist mahiyyətli Deysaniyyə təriqətinə bağlı idilər.
Daha sonra Qəddah və onun tələbəsi olmuş Mübarək (Qərmət) bu ezoterik, batini təlimləri yaydılar. Ona görə ismaili vəya batinilərə eyni zamanda Mübarəkilər və Meymunilər də deyilirdi.
Kufədə hicri üçüncü əsrin ortalarında ortaya çıxan Həmdan Qərmətin başçılıq etdiyi ismaililərin bir qolu olan Qərmətilər Meymuni və Mübarəkilərin bir növ davamı sayılırdılar.
  Həmdan Qərmət Kufəli bir kəndçi idi və deyilənə görə gözləri çox qırmızı olduğu üçün ona Arami dilində qırmızı göz mənasına gələn "Qərmitah" deyilirdi. Digər bir rəyə görə Qərmət adı Muhəmməd ibn İsmailin xidmətçisi olmuş Mübarəkin ləqəbi Qərmətdən gəlirdi. Onlar yeddi imama və son imamın da Muhəmməd ibn İsmail (Cəfər Sadiqin nəvəsi) olduğuna inanırdılar.

İsmaililərə görə İsmail Abbasi xəlifələrindən qorxduğu üçün gizlənərək, şəhərdən şəhərə dolaşmış və 158-ci ildə öldüyü zaman oğlu Muhəmməd 26 yaşında imam olmuşdu.
Onların inanclarında İslami, yəhudi, xristian təlimlərinin elementləri olsa da inancları özündə əsasən ezoterik, batini, gizli, sirrli elmləri əhatə edirdi.
İsmaililər sonrakı əsrlərdə öz təsirlərini gedərək artırdılar. Misal olaraq, əvvəllər on iki imami şiəsi olmuş, daha sonra batini təlimləri mənimsəmiş Həsən Sabbahın miladi 11-ci əsrin sonlarında İranda qurduğu və mərkəzi Alamut qalası olan İsmaililərin bir qolu sayılan Xaşxaşilər adı ilə tanınan "yeni dəvət" (davəti cədidə) adlı təriqət (1090-1256) həm dini, həm də siyasi mənada tarixdə önəmli iz buraxmışdı.
İsmailiyyə uzun illər siyasi, iqtisadi və dini səbəblərə görə orta Asiyadan tutmuş şimali Afrikaya qədər olan bütün bölgələrdə Abbasilərə qarşı döyüşdülər. Onlar inanclarını "dai" deyilən missionerləri vasitəsilə insanlar arasında gizli və israrlı şəkildə yayırdılar. Qəddah (Meymun) bir peyğəmbər kimi İsmaili təbliğatı aparırdı. Cəsusları və quşları vasitəsilə uzaq yerlərdən xəbərlər alırdı.
Mübarək Kufədə, Qəddah isə Kuhistan (Əfqanıstan) və İraqda, xüsusilə şiələr arasında təbliğat aparırdı. Batini təlimləri Təbəristan, Rey, Nişapur, İsfəhan, Qum, Kəşan, Herat kimi bölgələrdə, daha sonra Mərv, Mavərenəhr, Buxara, Səmərqənddə yayıldı və oralarda təsirli oldu.
Batinilik eyni zamanda Azərbaycan, Bəhreyn, Məkkə, Suriya və şimali Afrika ərazisində də yayılma imkanı əldə etdi.
Batini təlimləri xüsusilə, şiələr və rafizilər arasında daha çox yayılmışdı.
İsmailiyyə-şiə təlimlərinə yəhudi, xristian, zərdüştilik, maniheizm, məzdəkilik və materializm kimi ideologiyaların inancları qarışmışdı. İsmaililər yeddi imama inanır və son imamın da Muhəmməd ibn İsmail olduğuna etiqad edirdilər.
Onlara görə imamlar: Əli ibn Əbu Talib (eyni zamanda peyğəmbər olaraq da qəbul edilirdi), Həsən ibn Əli, Hüseyn ibn Əli, Əli ibn Hüseyn (Zeynəlabidin), Muhəmməd ibn Əli (Baqir), Cəfər ibn Muhəmməd (Cəfəri Sadiq), Muhəmməd ibn İsmail idi. Həmçinin, onlar yeddi əsas peyğəmbər olduğuna etiqad edirdilər. Bunlar: Hz Nuh, Hz İbrahim, Hz Musa, Hz İsa, Hz Muhəmməd, Hz Əli ibn Əbu Talib, Muhəmməd ibn İsmail idi.
Muhəmməd ibn İsmailin ölmədiyinə, onun Rum torpağında yaşadığına və Mehdi olduğuna inanırdılar.
Bu təriqətin Batiniyyə adlandırılmasının səbəbi o idi ki, onlara görə şəriətin bir xarici (zahir), bir də daxili, iç (batini) tərəfi vəya mənası vardır.
Lakin, bunlardan ən önəmli olanı
daxili (batini) tərəfdir. Ona görə də haram və qadağan olan bir çox hökmlər onlara görə əslində haram sayılmırdı.
İmamətin atadan oğula keçəcəyinə və imamətin də əzəldən var olduğuna inanırdılar. Onlara görə Muhəmməd ibn İsmailə qədər imamlar görünürdü və zahirdə idilər. Lakin, İsmaildən sonra imamlar aşkarda olmamağa və görünməməyə başladılar.
İslamiyyətdən öncə də imamlar görünmürdü və Hz Əli ilə birlikdə görünməyə başlamışdılar.
İsmaililər Allahın ancaq imamlar vasitəsilə dərk oluna biləcəyinə və Ona yetişə biləcəklərinə inanırdılar.
Allahın Adəmin cənnətini Muhəmməd ibn İsmailə verdiyinə, cənnətdə toxunulmaması zəruri olan ağacın Muhəmməd ibn İsmail və oğulları mənasına gəldiyinə inanırdılar.
Onlara görə Muhəmməd ibn İsmail peyğəmbərlərin möhürü idi. Dünyanın on iki adadan ibarət olduğuna, hər adada bir şahid və hər bir şahidin də bir təmsilçisi olduğuna, hər bir təmsilçinin də əməli saleh bir adamın yardımçısı olduğuna inanırdılar. Şahidə ata, təmsilçiyə ana, yardımçıya da oğul deyirdilər. Ata - ilah, oğul - İsa, və ana da - Məryəm idi. Onlara görə

ən böyük şahid Allahdır. İsmailiyyədə yeddi rəqəmi çox böyük əhəmiyyət daşıyırdı. Onlar yeddi imama, yeddi göyə, yeddi kainata, yeddi qat yer üzünə və insanın yeddi hissədən ibarət olduğuna inanırdılar. Bunlar onların inanclarının təməlini təşkil edirdi və onlara görə yeddi mərhələ vardır.
📚 İbrahim Çeşmeli, "Erken İslami dönem Mazdekizm kökenli ezoterik tarikatlar", səh 73-75; Maqdisi, 61; Mesudi,6, 187-188; Nizamulmulk, "Siyasetnâme", 213-238; İbn Nadim, 1, 462-492; Bağdadi, II, 107-157; Şehristani, 163-170; İbnul Esir, VII, 372-375; Tabari, 37, 169-175; Nevbahti, 123-124

C) Şamıtiyyə:
Bunlar Yəhya ibn Şamitin fikirlərini mənimsəyib, onun yolu ilə gedənlərdir.
Onlar imamətin nass ilə Cəfəri Sadiqdən oğlu Muhəmmədə keçdiyinə inanır və imam Cəfərin öldüyünü qəbul edirdilər. İmamətin Muhəmmədin oğullarına məxsus olduğuna etiqad edirdilər.
📚H.Atay, eyni mənbə, səh 95; el-Kummi 86-87; Nevbahti 64; Eşari 54; Şehristani, 2/3

D) Əftahiyyə: (Futhiyyə)
Cəfəri Sadiqin şiələrindən bir qismi imamətin vəfatından sonra böyük oğlu olmuş Abdullaha aid olduğuna inanırdılar.
Bu firqənin başçısı Əmmar ibn Musa Səbati olduğuna görə bunlara Əmmariyyə deyilmişdir. Həmçinin, Abdullahın atası düzdaban olduğu üçün (ərəbcə - Əftah) ona isnad edilən məzhəbə Əftahiyyə adı verilmişdir.
📚H.Atay, eyni mənbə, səh 95; el-Kummi 87; Nevbahti, 65; Eşari, 1/98; "el-Fark", 62

— Musaviyyə və qolları:

Bunlar Cəfəri Sadiqin oğlu Musanın imam olduğunu qəbul edənlərdir. Onlar Abdullahın imamətini inkar edib, onun yanlış davrandığını iddia etdilər. İmam Sadiqin oğlu Abdullah vəfat etdiyi zaman onun imamətini qəbul edənlərin əksəriyyəti Musanın vilayətinə döndülər. Abdullah atasından 70 gün sonra vəfat etmişdi.
📚H.Atay, eyni mənbə, səh 95; Kummi, 88-89

Musa ibn Cəfər (Museyyi Kazım) ikinci
dəfə xəlifə Harun ər Rəşid tərəfindən həbs edildiyi və vəfat etdiyi zaman (H.128/M.765) ona tabe olan şiələr beş firqəyə ayrıldılar:

a) Qatiyyə:
Bunlara görə Museyyi Kazım həbsdə zəhərlənərək ölmüş və yerinə oğlu Əli ər Rza keçmişdi. Bu firqə Musa əl Kazımın öldüyünə qəti olaraq inandığı üçün bunlara Qatiyyə deyilmişdir. Musa ölmədən öncə oğlu Əlini vəsiyyət etmişdi. Bağdadi Qatiyyəni oniki imami şiələrdən hesab etmirdi.
📚H.Atay, eyni mənbə, səh 96; Kummi, 89

b) Musa əl Kazımın ölmədiyinə inananlar:
Bunlara görə Musa əl Kazım ölməmiş, diri olub, şərqə və qərbə hökm edəcək, dünyanı ədalətlə dolduracaq və gözlənilən Mehdi də odur.
Həbsdən öldürülməkdən qorxduğu üçün qaçmışdı. Xəlifə və dövlət adamları insanları aldatmaq üçün onun öldüyünü elan etmişdilər.

Həbsdə ölən bir adamı onun yerinə təqdim etmiş və belə bir görüntü yaratmışdılar.
Bu baradə imam Cəfərdən bəzi hekayələr nəql etmişlər ki, o demişdir:
"Gözlənilən Mehdi budur. Kəsilmiş başının dağdan yuvarlandığını görsəz belə inanmayın."
📚H.Atay, eyni mənbə, səh 96; Kummi 89

c) Musa ibn Cəfərin Mehdi olaraq gələcəyinə inananlar:
Bunlara görə Musa gözlənilən Mehdidir.
O, vəfat etmiş amma, nə oğlu nədə başqası onun yerinə keçə bilməz və o geri qayıdıb, yenidən imam olacaqdır. Öldükdən sonra yenidən dirilib və hal hazırda gizlənməkdədir.
Bəziləri də onun bir yerdə olmayıb, davamlı şəkildə hərəkətdə olduğunu iddia edirdilər.
📚H.Atay, eyni mənbə, səh 96; Kummi 90

d) Vaqifiyyə:
Bunlara görə Musa əl Kazım vəfat etmişdir. Onun haqqında atasının belə dediyini rəvayyət edirlər: "Bu oğlumda Məryəm oğlu İsanın sünnəti vardır."
Axır zamanda qayıdıb, dünyanı ədalətlə dolduracaqdır. Başqalarının dediyi kimi hələki deyil, axır zamanda gələcəkdir.
Bunların bir qismi onun öldürülməmiş olub, ancaq öz əcəli ilə öldüyünə, Allahın onu göyə qaldırdığına, axır zamanda geri dönəcəyinə inanırdılar.
Digər bir qismi də oğlu Əli Rza və soyundan heç bir kimsənin onun yerinə imam deyil, yalnız xəlifə olaraq keçə biləcəyinə inanırdılar.
Vaqifiyyənin meydana gəlişi səbəbi olaraq bu hadisə göstərilir:
Museyyi Kazım vəfat etdiyi zaman Həyyan Sarac ilə bir kimsə Musanın vəkilləri idilər və onların yanında çoxlu mal, para mövcud idi.
Bunlar Musanın varislərinə mirası verməmək üçün onun ölmədiyini iddia etdilər və imam Cəfərdən öz xeyirlərinə dair bəzi rəvayyətlər nəql etdilər. Hər kəsin onlara itaət etməli olduqlarını söylədilər. Bunlara Museyyi Kazımın üzərində dayandıqları üçün "Vaqifiyyə" deyildi.
Həmçinin, bir qrup da Museyyi Kazım haqqında deyilən rəvayyətlərə görə onun ölü yoxsa diri olduğuna hökm edə bilmədikləri üçün şübhə içində qaldıqlarını bildirdilər və bunlar da Vaqifiyyə adlandırıldılar. Qəti hökm verə bilmədikləri üçün də imamlığı başqasına həvalə etmədilər və dedilər ki, əgər Musa imaməti Əli Rzaya həvalə etsəydi ona itaət edərdilər.
📚 H.Atay, eyni mənbə, səh 96; Kummi 90-91

e) Məmturə:
Bunlar Kufəli Əsəd oğullarının köləsi olmuş Muhəmməd ibn Bəşirin adamlarının təşkil etdiyi firqədir. Onlar Museyyi Kazımın həbs edilib, ölmədiyini, qeybə çəkilib, gizləndiyini və gözlənilən Mehdi olduğuna inanırdılar.
Onlara görə Musadan sonra gizləndiyi əsnada Muhəmməd ibn Bəşir imam olmalıdır. O, öləndə oğlu Sanuə-ni vəsiyyət etmişdi. Museyyi Kazım zühur edənə qədər onun və oğlunun vəsiyyət etdiyi imam olmalıdır.
Onlara görə insanların Allaha yaxınlaşmaq üçün etdiklərini Muhəmməd ibn Bəşirin vəsiləri üçün etmələri zəruridir.
Bunlar Museyyi Kazımın soyu və oğlu Əli ər Rzanın soyundan gələnlərin imamlıq iddialarını inkar etdilər. Onların yalançı, batil və hətta, qeyri qanuni doğulduqlarını iddia etdilər. Onları imamlıq iddialarına görə təkfir etdikləri kimi onların imamətini qəbul edənləri də təkfir etdilər, canlarının və mallarının da halal olduğunu söylədilər.

Gündə beş vaxt namazı, Ramazan ayında oruc tutmanın fərz olduğunu qəbul edib, zəkat, həcc və digər fərzləri inkar etdilər.
Onlar məhrəmlərin və kişilərin mübah olduğunu iddia edib, ruhların köçünə inanırdılar. İmamların bir olub, ruhlarının bədəndən bədənə keçdiyini iddia edirdilər. Allah yolunda verilən hər şey Sanuənin haqqıdır.
Bunlar müfrid qulatdan olub, "islanmış" mənasına gələn "Məmturə" adı ilə adlandırılmışlar. Bu sözlə onların iylənmiş leş olduqları qəsd olunurdu. Bugün (H.300) onlar bu adla tanınırlar. Bir kimsəyə islanmış adam (rəcul məmtur) deyiləndə Museyyi Kazıma imamlığı verməyib, onda dayananlar nəzərdə tutulur.
📚H.Atay, eyni mənbə, səh 98; Kummi 91-92

— Əli ibn Musa (ər Rza) vəfat edəndə (H.151-203) tərəfdarları bir neçə firqəyə ayrıldılar:

1- Bu firqəyə görə Əli ər Rzadan sonra imam yalnız onun oğlu Muhəmməddir.
Bu imam xəlifə Məmunun qızı ilə evlənmişdi. İsnaəşəriyyənin (on iki imami) doqquzuncu imamı olub, Mədinədə doğulmuşdu. Daha sonra Bağdada gəldi, atası öləndə xəlifə Məmun onu yanına aldı, böyütdü və qızı Ummul Fədl ilə evləndirdi.
Mədinəyə gedib, təkrar Bağdada gəlmiş və orada vəfat edincə zövcəsi onun əmisi xəlifə Mutəsimin sarayına geri alınmışdı. Muhəmməd hicri 195-ci ildə doğulub, 220-ci ildə Bağdadda vəfat etmişdi.
📚H.Atay, səh 98; Kummi, not.93, 240

2—Museyyi Kazımın oğlu Əhmədin imamətinə inananlar:
Bunlar Əftahiyyə kimi imamətin qardaşdan qardaşa keçəcəyinə inanırdılar.
Əhməd Mədinədən çıxıb, Xorasandakı qardaşı Əli ər Rzanın yanına gedərkən, yolda Şirazda qardaşının ölümünü eşitmiş olan vali onun yoluna davam etməsinə mane olmuş və o orada bu əsnada vəfat etmişdi.
📚H.Atay, eyni mənbə, səh 98; Kummi, not. 94, 241

3—Muəllifə:
Əvvəllər Museyyi Kazımın ölmədiyinə, daha sonra öldüyünə inanmış və oğlu Əli ər Rzaya bağlanmışdılar. Əli vəfat edəndə isə təkrar Museyyi Kazım üzərində dayanmışdılar.
📚H.Atay, eyni mənbə, səh 98; Kummi 94

4—Zeydiyyənin bir qisim mənsubları xəlifə Məmun tərəfindən Əli ər Rza vəliəhd təyin olunduğu zaman dünya malı qarşılığında onun imamətini qəbul etmişdilər. Lakin, o vəfat etdikdən sonra yenidən Zeydiyyə məzhəbinə döndülər.
📚H.Atay, eyni mənbə, səh 98;
Kummi 94

Qummi yazır: "Museyyi Kazımın oğlu Əli ər Rza vəfat etdiyi zaman onun oğlu Muhəmmədin yeddi yaşı var idi. Bəziləri yetkinlik yaşına çatmamış birinin böyüklərə əmr verməsi və yasaqlar qoymasının doğru olmayacağını, onun şəriət əhkamlarının incə və dərin məsələlərini anlamayacağını, bunun alışılmamış və mənasız olduğunu iddia etmişdilər. Digər bir qrup Muhəmmədin kiçik yaşda imam olması ona itaəti o anda vacib etməz. Lakin, böyüdüyü zaman ona itaət etmək vacib olar dedilər. Necə ki, bir zamanlar Hz İsa beşikdə olarkən danışmış, namaz və zəkat verməklə mükəlləf olduğunu demişdi.

Muhəmməd ibn Əlinin imamlığını qəbul edənlər kiçik yaşda uşağın elmi necə, hansı şəkildə əxz etməsi baradə ixtilaf etmişdilər:

a) Bir qisim heç kəsin deyil, yalnız atasının ona elmi öyrətdiyini iddia etdi.
b) Başqa qisim bunu qəbul etmədilər.
Çünki, atası Xorasana gedən zaman Muhəmmədin dörd yaşı vardı. Allah ona yalnız yetkinlik yaşına çatan zaman elm öyrənmə yolları; ilham, qəlbdə yaranan incəlik, qulağa səs, röya, danışan mələk və s. ilə elm öyrətmişdir.

c) Başqa bir qismə görə yetkinlik yaşına çatana qədər ona imam olaraq itaət etmək vacib deyil, zəruri olan sadəcə imamlığını etiraf etməkdir. Böyüyəndən sonra din və dünya işlərində nə lazımdırsa onu öyrənir. Amma, bu sıradan bir insanın öyrənmə yolu ilə ola bilər. Çünkü, Hz Peyğəmbərdən sonra vəhyin bütün çeşidlərinin kəsildiyinə dair ümmətin icması vardır.

d) Digər bir qrupa görə isə imam nə qədər kiçik uşaq olursa olsun o yetkinlik yaşına çatmamış sayıla bilməz. O, uşaq olsa da (b fəslində olduğu kimi) möcüzəvi şəkildə elm öyrənə bilər.
📚H.Atay, eyni mənbə, səh 99,100; Kummi 95-98, 243

Muhəmməd ibn Əli (Muhəmməd Cavad) hicri 195-ci ildə doğulmuşdu. Xəlifə Mutəsim hicri 220-ci ildə onu Bağdada gətirdi və eyni ildə o orada vəfat etdi. Bağdadda Museyyi Kazımın yanında dəfn olundu və vəfat etdiyi zaman 25 yaşı vardı, (şiələrə görə) imamlığı 17 il davam etmişdi.
O, vəfat etdikdən sonra aşağıdakı firqələr ortaya çıxdı:

a) Əksəriyyət Əli ibn Muhəmmədin, bir qismi isə qardaşı Musanın imamlığını qəbul etdi. Musa onları yalanlayıb, onlardan uzaqlaşınca, onlar yenidən Əli ibn Muhəmmədin imamlığına döndülər.
Xəlifə Mutəvəkkil onu Mədinədən hicri 233-cu ildə Samarra şəhərinə gətirmiş və 40 yaşında hicri 254-cü ildə orada vəfat etmişdi. İmamlığı 33 il davam etmişdi.
📚H.Atay, eyni mənbə, səh 100;Kummi 99-100

b) Əli ibn Muhəmmədin imamətini qəbul edənlərdən bir qrup Numeyri - Muhəmməd ibn Nuseyr adında birinin peyğəmbərliyini iddia etdilər. O, Əli ibn Muhəmməd əl Əskəri'nin onu peyğəmbər olaraq göndərdiyini iddia edir, ruhların köç etməsinə və Hz Əlinin ilah olmasını söyləyirdi.
Məhrəmlərin mübah olduğunu, kişilərin bir-biri ilə yaxınlıq etməsini halal görər və bunun bir təvazökarlıq əlaməti olduğunu iddia edərdi. O, Muhəmməd əl Əskəri'nin tərəfdarı (şiəsi) olub, quluva sapmışdı.
📚H. Atay, səh 101; el-Kummi, 100, 248
Bunlara Nuseyri də deyilir. Onlar Allahın bəzən Əlinin görkəminə girdiyini iddia edir, Hz Əlidə ilahi bir hissə, rəbbani bir qüvvət olduğunu söyləyir, onun göylərin və yerin yaradılmasından öncə mövcud olduğuna inanırdılar.
📚H.Atay, eyni mənbə, səh 101; Kummi 101

—Əli ibn Muhəmməd (213-254) vəfat edəndə tərəfdarları bu firqələrə ayrıldılar:

a) Bu firqə Muhəmməd ibn Əlinin imamətini qəbul etdi. Halbuki, Muhəmməd atasının sağlığında vəfat etmişdi. Amma, bunlar onun ölmədiyini, qeybə çəkildiyini və gözlənilən Mehdi olduğunu iddia etdilər.
b) Digər firqə Həsən ibn Əlinin imamətini qəbul etdi. Az bir qisim də Cəfər ibn Əlini imam elan etdilər.
📚H.Atay, eyni mənbə, səh 101; Kummi 101

—Həsən əl Əskəri'nin vəfatından sonra şiə firqələri:

Həsən ibn Əli hicri 232-ci ildə doğulub, 260-cı ildə Samarrada 28 yaşında vəfat etmişdi. Beş il imamlıq etdi, bir oğlunun olduğu bilinmirdi. Mirasını anası (Əsfan) və qardaşı Cəfər bölüşdürdü.
📚H.Atay, eyni mənbə, səh 102; Kummi 102
Həsən ibn Əlinin tərəfdarları Qummiyə görə 15, Növbəxtiyə görə 14 firqəyə ayrıldılar:

1 - İmamiyyə:
Bunlara görə Həsən ibn Əli Əskəri'nin vəfatından sonra Allahın yer üzündə qullarına qarşı bir hüccəti, xəlifəsi və onun işlərini yerinə yetirən Həsən əl Əskəri'nin soyundan gələcək birinin imam olması zəruridir. Bu şəxs insanların dünya və dini sahədə möhtac olduğu şeyləri bilir. O, atasının xələfi, vəsisi və onun yerinə keçən Mehdidir.
Qiyamət gününə qədər imamın olması zəruridir. İmamət Hz Həsən və Hz Hüseyndən başqa qardaşdan qardaşa keçməz. Kainatın dağılmasına, Allahın əmri və yasağının qalxmasına qədər imamlar Həsən əl Əskəri'nin soyundan gələcəkdir.
Atasının sağlığında ölən kimsə imam ola bilməz və imamət onun soyuna keçə bilməz. Bu doğru olsaydı İsmaili məzhəbi haqq olar və İsmailin oğlu Muhəmməd imam olurdu. Beləcə İsmaili olan Mubarəkiyyə və Qaramita məzhəbləri haqq olardı.
Yer üzü imamsız qala bilməz. Əks təqdirdə yer üzü və üzərində olanlar pərişan olar və çamura batardı. Biz (müəllif) Həsən əl Əskəri'nin imamətinə bağlıyıq, onun öldüyünə və soyundan bir xələfin olduğuna inanır və buna din olaraq qəti iman gətiririk.
Onun xələfi olan imam (H.300-cu il) hal hazırda qorxu səbəbi ilə gizlənmiş, ortalıqda görsənməyib, bu şəkildə qalmaqla əmr olunmuşdur. Uca Allah ona zühur əmri verənə qədər o belə qalacaqdır....İmamları və hüccətləri ancaq Allah seçir, təyin edir və O gizlədər.
📚H.Atay, eyni mənbə, səh 103; Kummi 102-104

İmamilərə görə Həsən əl Əskəri'nin hicri 255-ci ildə Muhəmməd adında bir oğlu olmuşdu. Atası vəfat edəndə onun beş yaşı vardı.
Bu şəxs imamiyyə (isnaəşəriyyə) məzhəbinin son imamı qəbul edildi. Muhəmməd Samarra şəhərində anasının gözü önündə mağaraya girmiş
və bir daha geri qayıtmamışdı.
Ondan sonra tərəfdarları onun izinə rast gələ bilmədilər...
İmamiyyə bu Muhəmmədi Mehdi olaraq qəbul edir və hal-hazırda onun zühurunu gözləyir.
📚H.Atay, eyni mənbə, səh 103

2—Həsən əl Əskəri'nin ölmədiyinə inananlar:
Bunlar Həsən əl Əskəri'nin ölmədiyinə, qeybə çəkilib, zamanını gözlədiyinə inanırlar. Yerinə varis olmadan bir imamın ölməsi caiz deyil. Çünki, yer üzü imamsız ola bilməz.
📚H.Atay, eyni mənbə, səh 104; Kummi 106

3—Həsən əl Əskəri'nin Qaim olduğuna inananlar:
Bu firqə Həsən əl Əskəri'nin öldüyünə amma, sonra dirilib yaşadığına və onun gözlənilən Mehdi olduğuna inanır.

4—Həsən əl Əskəri'nin öldüyünə inananlar:
Bu firqəyə görə Həsən əl Əskəri'nin ölməsi doğrudur, bunda şübhə yoxdur. Necəki, onun bütün atalarının ölməsinə şübhə edən olmamışdı. Onun yerinə keçəcək imam olmadığına görə imamət onunla bitmişdir.
Necəki, Hz Muhəmməddən sonra onunla peyğəmbərlik bitmişdi. Bu firqə gözlənilən Mehdinin gəlməsini zəruri hesab etmirdi.
📚H.Atay, səh 104; Kummi 107-108

5—Həsən əl Əskəri'nin soyundan birinin gələcəyinə inananlar:
Bunlara görə Həsən əl Əskər'inin ölümündən sonra Allah peyğəmbər soyundan birini imam göndərənə qədər imamət kəsilmişdir.
Son imam Həsən əl Əskəri vəya keçmişdə olanlardan biri ola bilər. Həsən əl Əskəri öldüyünə, yerinə keçəcək varisi olmağına və xələfi də ancaq soyundan olacağına görə Qaim imam axır zamanda ortaya çıxacaqdır.
📚H.Atay, eyni mənbə, səh 104; Kummi 108

6—Muhəmməd ibn Əlinin imamətinə inananlar:
Bunlara görə Həsən əl Əskəri və qardaşı Cəfər əslində imam deyildilər. Əsl imam atasının sağlığında ölən Muhəmməd idi. Həsən əl Əskəri öləndə oğlu yox idi. Cəfər isə fasiq, günahkar və haram işlərlə məşğul olduğu üçün imam ola bilməzdi.
Ona görə Muhəmməd ibn Əlidən başqası imam ola bilməz. Bunlar Muhəmməd ibn Əlinin oğlu olduğunu iddia etdilər.
📚H.Atay, səh 104; el-Kummi 109

7—Həsən əl Əskəri'nin vəsiyyəti ilə Cəfərin imam olduğuna inananlar:
Bu firqəyə görə Həsən əl Əskəri öləndə oğlu olmadığı üçün qardaşı Cəfərə vəsiyyət etmişdi. Bunların başçısı Kufəli kəlamçı olan Əli ibn Taht Həzzaz idi. O, Fəthiyyə firqəsində nüfuz qazanmış, sonra Cəfərə üz tutmuş və insanları ona dəvət etmişdi.
📚H.Atay, səh 105; Nevbahti 99

8—Cəfər ibn Əlinin imam olduğuna inananlar:
Bunlara görə atasından sonra imam olan Cəfər ibn Əlidir. Həsən əl Əskəri'nin imamlığı doğru deyildi. İmamət böyük oğula keçməlidir. Həsən əl Əskəri oğlu olmadan ölüncə bunlar səhv etdiklərini anladılar.
Övladı olmayanın imaməti ola bilməz. Çünki, bunlara görə imam varis təyin etmədən ölə bilməz. Ona görə də imam Cəfər ibn Əlidir.
📚H.Atay, eyni mənbə, səh 105; Kummi, 110-111

9—Həsənin oğlu olmadığı üçün imamətin Cəfərə keçdiyinə inananlar:
Bunlar Fəthiyyə kimi inanırlar. Fəqih və kəlamçılarına görə imam Həsən əl Əskəridir amma, o ölmüşdür. Çünki, imamət ən böyük oğula keçməlidir. İmam oğluna vəsiyyət edə bilməz. Həsən əl Əskəri'nin oğlu olmadığı üçün ondan sonra imam qardaşı Cəfər olmalıdır.
Hz Həsən və Hz Hüseyndən sonra qardaşdan qardaşa imamət keçməz qaydası doğrudur, ancaq bu ölən imamın yerinə keçəcək oğlu olduğu zaman keçərlidir.

📚H.Atay, eyni mənbə, səh 105; Kummi 111

10— Nəfsiyyə:
Muhəmməd ibn Əli imam olmalı idi. O, özündən sonra qardaşı Cəfərə vəsiyyət etmişdir deyənlər:
Bunlara görə imam Muhəmməd ibn Əli olmalı idi,atası imaməti ona vəsiyyət etmişdi. İmamın başqa birinə vəsiyyət etməsi caiz deyil. Muhəmməd imaməti qardaşı Cəfərə atasının əmri ilə vəsiyyət etmişdi. Vəsiyyəti elmləri və silahı özündə əks etdirən olan Əbul Həsənin "Nəfis" adındakı köləsi ilə göndərdi. Bu etibarlı biri idi. Əbul Həsən öləndə imamət qardaşı Cəfərə Nəfisin əli ilə keçməli idi. Ona görə bunlara "Nəfsiyyə" firqəsi deyilirdi.
📚H.Atay, eyni mənbə, səh 105; Kummi, 112

11— Əli ibn Muhəmməd Mehdidir deyənlər:
Bunlara görə Həsən əl Əskəri vəfat etmiş və Muhəmməd adında bir uşaq yaşda oğlu ondan sonra imam olmuşdur. Atası sağlığında ona gizlənməyi əmr etmiş və o da əmisi Cəfərdən çəkinərək, gizlənmişdi.
Ona görə də Həsən əl Əskəri'nin oğlu olmadığı zənn edilmişdir. Mehdi Qaim olan imam budur.
📚H.Atay, eyni mənbə, səh 106;Kummi 14

12—Həsən əl Əskəri'nin oğlu Əlinin imamətinə inananlar:
Bunlara görə Həsən əl Əskəri'nin oğlu var. Amma, bunun adı Muhəmməd deyil, Əlidir və ondan başqa da oğlu yoxdur. Bu baradə Həsən əl Əskərinin xüsusi elçiləri vardı. Kufənin ətrafında kiçik bir qrup bu məzhəbdəndir.
📚H.Atay,eyni mənbə, səh 106; Kummi 14

13—Həsən əl Əskərinin adsız oğlunun imamlığı:
Həsən əl Əskərinin vəfatından səkkiz ay sonra bir oğlu oldu amma, adı və yeri bilinməməkdədir.
📚H.Atay,eyni mənbə, səh 106; Kummi 14

14—Həsən əl Əskərinin oğlunun olmadığını deyənlər:
Həsən əl Əskərinin əsla oğlu yoxdur. Çünki, bütün araşdırmalara baxmayaraq onun bir oğlunu tapa bilmədik...."
📚 H.Atay, eyni mənbə, səh 106; Kummi 115

15—Vaqifi-Mustənkiflər:
Nə deyəcəyimizi bilmirik. Həsən əl Əskərinin oğlu olub, olmadığı, imamətin Cəfərə vəya Muhəmmədə aid olduğunu bilmirik. Yalnız bunu deyə bilərik:
"Həsən əl Əskəri imamdır və ona itaət fərzdir. Vəfat etdi, bunda şübhə yoxdur amma, yer üzü də hüccətsiz qalmayacağına görə qəti bir hökm verə bilmirik və ondan sonra da bir imam qəbul etmirik. Çünki, bir imamdan sonra kimin imam olduğu bilinməzsə yeni bir imam bəlli olana qədər əvvəlki imamın imamlığı davam etməlidir. Həsən əl Əskəridən başqasına və soyuna da imamlıq keçə bilməz. O, öldüyünə görə geri dönə bilməz, Allah istədiyi zaman bizə birisini açıqlayar."
📚 H.Atay, eyni mənbə, səh 107; Kummi 115-116